Bu bir xalq qəzetidi
ƏDALƏT



## Ceyhun Bayramov Mövlud Çavuşoğlu ilə görüşəcək

Xarici işlər naziri Ceyhun Bayramov fevralın 23-də Türkiyəyə səfəri çərçivəsində türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə görüşəcək.

Adalet.az bu barədə Türkiyə Xarici İşlər Nazirliyinə istinadən məlumat verir.

Görüş zamanı iki ölkə arasında münasibətlər və regional məsələlər müzakirə olunacaq.

Qeyd edək ki, C.Bayramov həm də Türkiyə-Azərbaycan-Türkmənistan xarici işlər nazirlərinin 5-ci üçtərəfli iclasında iştirak edəcək.

## Baş prokurorluq Sevil Atakişiyevanın intihar faktı ilə bağlı məlumat yaydı



**Bu gün Bakı şəhəri Xətai rayon prokurorluğunda 2001-ci il təvəllüdlü Sevil Atakişiyevanın intihar faktı ilə əlaqədar Cinayət Məcəlləsinin özünü öldürmə həddinə çatdırmanı nəzərdə tutan 125-ci maddəsi ilə cinayət işi açılıb.**

Baş prokurorluqdan Adalet.az-a verilən məlumata görə, 2001-ci il təvəllüdlü Atakişiyeva Sevil Samir qızının fevralın 21-də saat 20 radələrində paytaxtın Xətai rayonu ərazisində yerləşən yeni inşa edilmiş binanın 20-ci mərtəbəsindən özünü ataraq intihar etməsi faktı üzrə toplanmış materiallar əsasında Xətai rayon prokurorluğunda CM 125-ci maddəsi ilə cinayət işi açılıb. Baş prokurorluğun mətbuat xidmətindən həmçinin hazırda iş üzrə intensiv istintaq əməliyyat tədbirlərinin həyata keçirildiyini bildiriblər.

## FHN-nin nöqsanlar aşkarladığı obyekt bağlandı

Bax:səh-2

## "Siyasi dialoqun Azərbaycan modeli" – silsilə görüşlər davam edir

Bax:səh-2

## Azərbaycanda media ilə bağlı yeni qanun layihəsi hazırlanır



**Azərbaycanda media ilə bağlı yeni qanun layihəsi hazırlanr.**

Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov "Real TV"yə müsahibəsində deyib ki, "Media haqqında" yeni qanun layihəsi üzərində İşçi Qrup işini yekunlaşdırmaq üzrədir.

Onun sözlərinə görə, artıq müəyyən istiqamətlər bəllidir:

**"Artıq "Kütləvi İnformasiya Vasitələri haqqında" qanunun qüvvədən düşməsi və Azərbaycanda yeni "Media haqqında" qanunun qəbul edilməsi prosesindəyik".**

## "ƏDALƏT"İN ƏMƏKDAŞINA MÜKAFAT TƏQDİM OLUNDU






**Dünən Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində Prezident İlham Əliyev tərəfindən fəxri adlarla və medallarla mükafatlandırılmış bir neçə jurnalistə mükafatlar təqdim edilib. Həmin mükafatı jurnalistlərə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyininin icraçı direktoru Əhməd İsmayılov təqdim edib. O, bu gün Azərbaycan mətbuatında gedən islahatlardan danışıb, bu sahədə görüləcək işlərdən söhbət açıb. Qeyd edib ki, medianın yenidən qurulması işində bütün jurnalistlər yaxından iştirak etməli, öz ideyalarını və təkliflərini verməlidir.**

Sonra icraçı direktor Əhməd İsmayılov tərəfindən mükafatlar sahiblərinə təqdim edilib. "Ədalət" qəzetinin şöbə müdiri Faiq Qismətoğluya Prezidentin Sərəncamı ilə verilmiş "Əməkdar jurnalist" fəxri adın vəsiqəsi və medalı təqdim olunub. Əməkdaşımız çıxış edərək bildirib ki, bu yüksək mükafata görə cənab Prezidentə öz təşəkkürümü bildirirəm. Çünki cənab Prezident halal haqqı olan bütün jurnalistləri və onların ailələrini bu mükafatla sevindirib. Bir daha sübut edib ki, o, hər bir azərbaycanlının prezidentidir. Və Azərbaycan mətbuatı da həmişə dövlətçiliyimiz və bütövlüyümüz yolunda cənab prezidentə dəstək olacaq və arxa duracaqdır. Möhtəşəm Qarabağ savaşı və işğaldan azad olunan bütün torpaqlarımızın geri qaytarılmasında Ali Baş Komandanın yanında Ordu ilə yanaşı, Azərbaycan jurnalistləri də dayanmışdı. Və biz möhtəşəm Qələbəni qazanaraq ərazi bütövlüyümüzü təmin etdik.

**Onu da qeyd edək ki, qəzetimizdə beş Əməkdar jurnalist var: Aqil Abbas, İradə Tuncay, Əbülfət Mədətoğlu, Faiq Qismətoğlu və Yaşar Nəbiyev.**

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 21 (5853) 23 fevral 2021-ci il | Qiyməti 30 qəpik

## Cənnətdən göndərilən şəkil



Məmməd Araz, Qulu Xəlilov, Şamil Xurşud, Qasım Qasımzadə! Ruhunuz şad olsun!

# Polisdən uğurlu əməliyyat

## 22 kq-dan artıq narkotik ələ keçirildi



*Daxili İşlər Nazirliyinin əməkdaşları narkotik vasitələrin ölkə ərazisində qanunsuz dövriyyəsinin qarşının alınması istiqamətində mübarizə tədbirlərini davam etdirirlər.*

*Nazirlikdən Adalet.az -a verilən məlumata görə, qurumun Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən əldə edilən əməliyyat məlumatı əsasında həyata keçirilən növbəti uğurlu tədbir nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən vətəndaş Füzuli Sultanov saxlanılıb. Onun üzərinə baxış zamanı 514 qrama yaxın narkotik vasitə olan heroin aşkar edilib. Əməliyyat tədbirlərinin davamı olaraq Füzuli Sultanovun Abşeron rayonundakı evinə baxış zamanı oradan 9 kiloqram heroin, 1 kiloqram 992 qram psixotrop maddə metamfetamin və 1900 ədəd psixotrop tərkibli "Metadon 40" həbi aşkar olunaraq götürülüb. Saxlanılan şəxs izahatında külli miqdarda narkotik vasitəni xarici ölkələrdən birinin vətəndaşından satmaq məqsədi ilə əldə etdiyini bildirib.*

(Ardı 3-cü səhifədə)

## Avqustun sonuna qədər "Zəfər yolu" istifadəyə veriləcək



**Şuşaya aparan Bakı-Hacıqabul-Mincivan yolunun 101 kilometrlik hissəsinin torpaq yatağı tam hazırdır.**

Bunu Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) İdarə Heyətinin sədri Saleh Məmmədov qurum tərəfindən 2020-ci il ərzində yerinə yetirilmiş işlər və qarşıda duran vəzifələrə həsr olunmuş brifinqdə bildirib.

O, bildirib ki, yolun 61 kilometrlik hissəsi tam olaraq minadan təmizlənməyib:

"Yol ikinci dərəcəli avtomobil yolu kimi çəkiləcək. İkitərəfli hərəkət zolağına malik yol 13 kilometr yol yatağından ibarət olacaq. Avqustun sonuna qədər "Zəfər yolu" istifadəyə veriləcək".

*33 il öncə - fevralın 22-si Azərbaycan Qarabağda ilk iki şəhid verib. Ermənistanın milliyətki hərəkatına qarşı etiraz edənlərin sırasında Ağdam rayonundan olan Əli və Bəxtiyarı Azğın ermənilər gülləyə tutaraq Əsgəran yaxınlığında şəhid ediblər.*



ƏLİ VƏ BƏXTİYAR!
SİZ HƏMİŞƏ QƏLBLƏRDƏ
YAŞAYACAQSINIZ!

## İLQAR RƏSUL: ÖZÜ ŞƏN ADAM İDİ, RUHU DA ŞADDI YƏQİN Kİ...



*Vəkil Elton Quliyevin anım günüdü. Məmləkətin çox dəyərli oğlu. Mənim əziz həmyerlim.*

*Azərbaycan vəkilliyinin Xaç Atası. Öz sahəsinin Xudu Məmmədovu.*



*Rza Rzayev*

## Sizin " içinizə" qızı necə tək buraxsınlar?!

Susun və susun!

Sevilin atasını qınamadan öncə etiraz etmədiyiniz halları yadınıza salın və utanın!

Sevilin atasını qınayanlar, dayanacaqda avtobus gözləyən qadınlara maşın saxlayanlar - siz deyilsiniz?!

Küçədə yanınızdan keçən qadınlara söz atan - siz deyilsiniz?!

Toylarda rəqs edən qadınlara baxanlar və bir-birinizə göstərənlər - siz deyilsiniz?

Məktəblərdə gənc qadın müəllimələri kabinetinə çağıran direktorlar, stulu çəkib diz-dizə oturanlar, adının mənasını soruşanlar - siz deyilsiniz?!

"12 yaşında qız mini yubka geyinəndə - "kişiyik", adamda istər-istəməz hiss yaradır" - deyən məktəb direktoru - siz deyilsiniz?!

Restoranlarda, istirahət mərkəzlərində, bulvarlarda, hətta taksilərdə "quş" ovuna çıxanlar - siz deyilsiniz?!

Və belə hallara etiraz edənləri "daşqalaq" edənlər - siz deyilsiniz?!!!

Az bir qismini yazdım!

Abrınıza qısılın və bir daha deyirəm, susun!

## TƏBİB: Azərbaycandakı peyvənd virusun yeni növlərinə qarşı da effektlidir

*Çinin "Sinovac Biotech" şirkətinin istehsal etdiyi "CoronaVAC" peyvəndi "COVID-19"-un Böyük Britaniya və Cənubi Afrika variantlarına qarşı da effektlidir. TƏBİB-dən Adalet.az-a verilən məlumata görə, bu barədə "CoronaVAC"-ın Braziliyadakı sınaqlarına rəhbərlik edən və Butantan Biotibb Mərkəzinin rəhbəri Dimas Kovas bildirib. O qeyd edib ki, Mərkəz "CoronaVAC" peyvəndinin virusun Böyük Britaniya və Cənubi Afrika variantlarına qarşı effektivliyini yoxlamaq üçün kliniki sınaqlarını aparıb və nəticə uğurlu olub. Mərkəz rəhbəri "Sinovac" şirkətinin peyvəndinin texnologiyasına görə digər vaksinlərdən üstün olduğuna da diqqət çəkib. Bildirib ki, inaktivləşmiş bu peyvəndin hazırlanmasında orqanizmdə ciddi xəstəliyə və ya əks-təsirə səbəb olmadan bədənin immunitet sistemini virusa məruz qoymaq üçün öldürülmüş virus hissəciklərindən istifadə olunub.*

## Çavuşoğlu ilə Məmmədyarovun görüşündən



***- Mehhaba, hoşgeldiniz. Biz gerçekten bir milletin iki devletiyiz. Bu menada böyle resmi görüşlerimizde bile tercüman ihtiyacı duymuyoruz. Ne mutlu türküm deyene!***

***- Efendim, ya xoçu skazat( ( beynində rusca deyinir) əşşi bu türk dili nə qəliz dildi. Zalımlar ruscanı öyrənməyiblər ki, tərcüməçisiz danışaq), çto mı dva qosudarstva odnoy nachchii. Ya znayu moi predkie toje na etom yazıke govorili. İzvinite çto ya vaşego yazıka ne znayu. Po etomu moy perevodçik budet pomoqat.***

***Allah stalini cəhənnəm odunda yandırsın. Yıxıb evimizi!***

## "Bayraktar" 300 mininci uçuş saatını başa vurub

*Türkiyənin "Bayraktar" pilotsuz silahlı uçuş aparatı ümumilikdə 300 mininci uçuş saatını başa vurub.*

*Adalet.az-ın məlumatına görə, bu barədə "Baykar" şirkəti bildirib. Bu nəticə Türkiyə istehsalı olan hava nəqliyyat vasitələri arasında rekord göstərici olub. Qeyd edək ki, "Bayraktar" uçuş aparatları 2014-cü ildən etibarən Türkiyə Silahlı Qüvvələrinin istifadəsindədir. Hazırda Türkiyə, Ukrayna, Qətər və Azərbaycanda 160 "Bayraktar TB2" PUA-sı fəaliyyət göstərir.*

***Mehman CAVADOĞLU***

## Paşinyanın yox, Putinin imzası əsasdı



*Ermənistan müxalifətinin yaratdığı "Vətəni xilas hərəkatı"nın neçə gündür ciddi-cəhdlə hazırlaşdığı, "sayıyla rəqiblərinin kürkünə birə salacaq", "maraqlı sonluğuyla görənlərin gözünü qamaşdıracaq" - deyə anonsladığı 20 fevral mitinqi ümidləri doğrultmadı. Yerli və xarici informasiya agentliklərinin "bir neçə minlik" aksiya adlandırdığı tədbirin iştirakçıları iki gün sonra yenidən toplaşmaq şərtilə Yerevanın küçə və dalanlarıyla yürüyə-yürüyə dağılışıb getdilər. Mitinq hələ dağılışmamış elan olundu ki, bu gündən etirazlar fasiləsiz, aparıcının öz təbiriylə desək, "non stop" mərhələsinə qədəm qoyur. Hərçənd, müxalifət "non stop" mitinqlər rejiminə keçdiyini ilk dəfə hələ ötən ilin noyabrım 11- də elan eləmişdi.*

Bax:səh-2

## GÜNÜN LƏTİFƏSİ

***Rauf Qərib Alagözdən günün lətifəsi***



Bayaq görürəm qonşu Şakir kişi sevinclidir.

Mən:

**- Nə olub, Şakir dayı, nəyə sevinirsən?**

Şakir:

**- Tezliklə Bakıdan Ukraynaya təyyarə qalxacaq, ona sevinirəm.**

Mən:

**- Bu yaşda təkcə təyyarə qalxmaqla iş düzəlmir e, dayı.**

Şakir əsəbi halda:

**- Sən də adamın yarasını deşməsən dura bilmirsən də.**

# Prezidentin xüsusi nümayəndələri ilə bağlı "Dövlət qulluğu haqqında" qanuna dəyişiklik edilib



**Prezident İlham Əliyev "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanunu təsdiqləyib.**

Adalet.az xəbər verir ki, sənədə əsasən, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa aşağıdakı məzmunda 11.1.2.1-1-ci, 11.1.3.3-1-ci və 11.1.4.3-1-ci maddələr əlavə edilir:

"11.1.2.1-1. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələrinin vəzifələri;";

"11.1.3.3-1. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələrinin müavinlərinin vəzifələri;";

"11.1.4.3-1. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərində mütəxəssislərin vəzifələri;".

# Prezidentin xüsusi nümayəndəliklərində yeni vəzifələr yaradılıb

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda dəyişiklik edilməsi haqqında fərman imzalayıb.**

Adalet.az-ın məlumatına görə, sənədə əsasən, Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun 2.1.4-cü yarımbəndinə aşağıdakı məzmunda 4-2-ci abzas əlavə edilir:

"4-2. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərində baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;".

# İlham Əliyev "AzerGold"un Müşahidə Şurasının tərkibini təsdiqləyib

**Prezident İlham Əliyev "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

***Müşahidə Şurasının sədri***

Rövşən Nəcəf - Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müavini, Azərbaycan İnvestisiya Holdinqinin İdarə Heyətinin üzvü

***Müşahidə Şurasının üzvləri***

Elçin Ağakişiyev - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsi rəisinin birinci müavini

İlham Pənahov - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin İstehsal və Xidmət Müəssisələrinin İdarəetmə Mərkəzinin direktoru

Samir Qurbanov - Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin İdarə Heyətinin sədri

Vüqar Məcidli - Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının İqtisadi sahələrin maliyyəsi şöbəsinin müdiri.

# Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin Müşahidə Şurasının tərkibi təsdiq edilib

**Prezident İlham Əliyev "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilib:

***Müşahidə Şurasının sədri***

Samir Şərifov - Azərbaycan Respublikasının maliyyə naziri

***Müşahidə Şurasının üzvləri***

Rəhman Hümmətov - Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini

Mətin Eynullayev - Azərbaycan İnvestisiya Holdinqinin İdarə Heyətinin sədri, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini

Zaur Qurbanov - Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktorunun müavini

Vüqar Məcidli - Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının İqtisadi sahələrin maliyyəsi şöbəsinin müdiri.

# "Siyasi dialoqun Azərbaycan modeli" - silsilə görüşlər davam edir

**Siyasi dialoq mühitinin ölkəmizdə dəstəklənməsi, eləcədə dialoq məfhumunun təşviqi məqsədilə Azərbaycanda fərqli layihələr davamlı olaraq reallaşmaqdadır. Görülən işlər sayəsində "siyasi dialoq" anlayışı öz aktuallığını qoruyaraq, siyasi təcrübənin ayrılmaz amilinə çevrilib.**

Adalet.az xəbər verir ki, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin ölkədə tanınmış politoloq və müvafiq sahədə ixtisaslaşmış QHT rəhbərləri ilə fevralın 19-da keçirilmiş "Siyasi dialoqun Azərbaycan modeli" adlı görüşü məhz mövcud istiqamətdə Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan siyasətin davamı kimi dəyərləndirilməlidir.



Ölkəmizdə reallaşan islahatlar siyasi münasibətlər sistemini də əhatə edir. Dayanıqlı inkişaf, sabitlik, milli həmrəylik mühiti, peşəkar münasibətlərin təşviqi və demokratik ənənələrin formalaşması kimi vəzifələri özündə ehtiva edən islahatlar qaçılmazdır və siyasi münasibətlər sisteminə də sirayət edir.

Dövlətimizin başçısının ***"Hesab edirəm ki, indiki genişmiqyaslı islahatlar dövründə siyasi islahatlar mütləq aparılmalıdır. Siyasi islahatlar partiyalararası geniş dialoq aparılmadan həyata keçirilə bilməz. Bir partiya - hakim partiya təkbaşına siyasi dialoq apara bilməz. Çünki dialoq üçün tərəf-müqabillər lazımdır və ilkin təəssürat müsbətdir"*** - fikri ölkəmizdə siyasi dialoqun inkişafına ayrılan yüksək diqqətin sübutudur. Bu cür yanaşma və nümayiş olunan siyasi iradə sayəsində "dialoq məfhumu" Azərbaycanda siyasi dəyər statusuna qədər yüksəlmiş olur.

"Siyasi dialoqun Azərbaycan modeli" adlı silsilə tədbirlər çərçivəsində təşkil olunmuş növbəti görüşdə tanınmış politoloq və siyasi şərhçilərlə yanaşı, ölkənin müvafiq sahədə ixtisaslaşmış qabaqcıl QHT rəhbərləri də iştirak ediblər. Tədbiri giriş sözü ilə açan şöbə müdiri Ədalət Vəliyev ölkə rəhbərliyi adından iştirakçıları salamlayaraq, şöbənin əsas fəaliyyət istiqamətləri və prioritetləri, Azərbaycanda aparılan sistemli islahatlar, o cümlədən siyasi partiyaların canlanması və dayanaqlı demokratik ənənələrin formalaşmasına xidmət edən siyasi dialoq məfhumunun təşviqi istiqamətində görülmüş işlər haqqında geniş məlumat verib.

Ölkəmizin artıq gündəlik siyasi təcrübəsinə daxil olmuş iqtidar-müxalifət dialoqunun davamlı şəkildə inkişaf etdiyini qeyd edən Administrasiya rəsmisi cəmiyyətin fəal üzvlərinin, həmçinin vətəndaş cəmiyyəti institutlarının bu proseslərdə qabaqcıl mövqe tutmasının əhəmiyyətindən bəhs edib. Qeyd olunub ki, dayanıqlı siyasi dialoq mühitinin qorunması kontekstində isə obyektiv siyasi şərhlərin, həmçinin maarifləndirmə və təbliğat işlərinin aktuallığı xüsusi olaraq artır. Bu mənada mövcud potensialların səfərbər olunması və müvafiq sahələrin mütəxəssisləri ilə birgə müzakirələrin aparılması siyasi zərurətdir.

Öz çıxışını Prezident İlham Əliyevin ***"Növbəti illərdə siyasi sistemin təkmilləşdirilməsi, müasirləşdirilməsi, Azərbaycanda siyasi münasibətlərin sağlam zəmində qurulması işində önəmli addımlar atılacaqdır"*** - fikirləri ilə davam etdirən Administrasiya rəsmisi siyasi münasibətlərdə dialoq mühitinin dəstəklənməsinin, ilk növbədə, ölkə rəhbərliyinin dövlət quruculuğu məsələlərində demokratik prinsip və ənənələrə sadiq qalmasından xəbər verdiyini bildirib.

Dövlətin və cəmiyyətin inkişafında siyasi dialoqun rolunun təbliği və malik olduğu bütün müsbət təzahür formalarının aşılanması üçün Azərbaycanda tanınmış ictimai xadimlər tərəfindən mövzu ilə bağlı verilən şərhlərdə obyektiv mövqeyin qorunması və dövlətçilik mövqelərdən çıxış etməsinin prinsipial məsələ olduğunu qeyd edən Ədalət Vəliyev bildirib ki, Vətənə sadiqlik və milli maraqlara xidmət bütün vətəndaşlarımızın əsas həyat amilinə çevrilməlidir.

Azərbaycanda yaşanan milli birlik və həmrəylik kontekstində 44 gün davam edən Vətən müharibəsində əldə olunan Böyük Qələbəni xatırladan Administrasiya rəsmisi Prezident İlham Əliyevin bununla bağlı fikrini səsləndirib: ***"Müharibədən əvvəl artıq ölkəmizdə yeni bir siyasi iqlim yaranmışdır, müsbət iqlim. Çünki bizim hamımızın, bütün vətənpərvər qüvvələrin bir amalı var idi - torpaqlarımızın işğaldan azad edilməsi. Biz, Azərbaycan iqtidarı buna da nail olduq. Bu gün isə bizim qarşımızda bu Qələbəni siyasi yollarla möhkəmləndirmək vəzifəsi durur".***

Bu mənada siyasi dialoqun, eyni zamanda, cəmiyyətin çeviklik və mobillik kimi əvəzolunmaz keyfiyyətlərinin inkişafı prosesinə də təsir etdiyini qeyd edən Ədalət Vəliyev vurğulayıb ki, münasibətlər sisteminin məhz bu tərəfləri Azərbaycanda ən az tədqiq və təhlil olunmuş mövzulardandır.

Daha sonra dialoqun Azərbaycan milli mədəniyyətinə məxsus keyfiyyətlərdən biri olduğunu xatırladan şöbə müdiri hökumət tərəfindən mövcud istiqamətdə atılan qlobal təşəbbüslərdən danışıb. Konteksti inkişaf etdirərək Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva tərəfindən mövcud istiqamətdə görülmüş işlər haqqında məlumatları tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirdə iştirak edən Milli Məclisin deputatları Elşad Mirbəşiroğlu "Azərbaycanda siyasi dialoq mədəniyyəti yeni inkişaf mərhələsində", Musa Qasımlı "Diskussiya mədəniyyəti: keçilən yol, mövcud vəziyyət və perspektivlər", Hikmət Babaoğlu "İctimai siyasi münasibətlər sistemi tariximizdə yeni plüralist əməkdaşlıq mərhələsi", Cavanşir Feyziyev "Siyasi dialoqun zərurəti: Siyasi dialoq - milli təhlükəsizliyin mühüm elementi", həmçinin tanınmış politoloqlar Eldar Namazov "Dəyişən dünyada milli birliyin və ölkə daxili dialoqun vacibliyi", Fariz İsmayılzadə "Milli Həmrəylik və dialoq üçün təhsil platforması", Tofiq Abbasov "Qarşılıqlı anlaşmadan təkamülə doğru", Rufiz Qonaqov "Siyasi dialoq - Həmrəylik və Vətən müharibəsi", Rauf Arifoğlu "Siyasi dialoq düşmənin informasiya təxribatlarına qarşı milli dirənişin əsası kimi" və Elşad Eyvazlı "Siyasi dialoqda medianın rolu" mövzuları üzrə məruzələrlə çıxış ediblər.

Tədbirdə yekun sözü ilə çıxış edən Administrasiya rəsmisi Prezident İlham Əliyevin ***"Bu gün isə bizim qarşımızda bu Qələbəni siyasi yollarla möhkəmləndirmək, erməni faşizminin baş qaldırmasına yol verməmək, beynəlxalq müstəvidə keçmiş münaqişə ilə və indiki reallıqlarla bağlı, o cümlədən dağıdılmış ərazilər haqqında məlumat çatdırmaq vəzifəsi durur. Bizim partiyalarımızın bəziləri beynəlxalq partiya qurumlarına üzvdürlər. Bu məlumat o qurumlar çərçivəsində verilməlidir. Yəni bu, gələcək fəaliyyət üçün əsas istiqamət olmalıdır. Əlbəttə ki, ölkə daxilində demokratikləşmə proseslərinə müsbət təsir etmək, partiyalararası dialoqu möhkəmləndirmək, çatışmazlıqlar haqqında məsələ qaldırmaq və normal, sağlam rəqabət aparmaq - biz bunu istəyirik"*** - fikirlərini səsləndirərək bildirib ki, dialoqun təzahür formalarından biri olan əməkdaşlığın nəticəsində ölkədə aparılan islahatların maksimal effektivliyi təmin olunacaq.

**Dialoq ənənələri ilə zəngin olan Azərbaycanda milli və siyasi həmrəyliyin inkişafı üçün bütün amillərin mövcudluğunu qeyd edən tədbir iştirakçıları mövcud istiqamətdə əməkdaşlığa hazır olduqlarını və öz fəaliyyətlərində mövzuya xüsusi diqqətin ayıracaqlarını bildiriblər.**

# FHN-nin nöqsanlar aşkarladığı obyekt bağlandı

**Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən Bakı şəhəri, Nərimanov rayonu, Müzəffər Nərimanov küçəsi, ev 4 ünvanında yerləşən polietilen paket istehsalı müəssisəsində plandankənar yoxlama zamanı yanğın təhlükəsizliyi sahəsində çoxsaylı nöqsanların mövcud olduğu, aşkar edilmiş nöqsanların insan həyatı və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa təhlükə yaratdığı müəyyən edilib.**

Adalet.az FHN-in saytına istinadən xəbər verir ki, istehsal sahəsi normalara uyğun təxliyə çıxışları ilə təmin olunmayıb. Qeyd olunub ki, qeyri-standart elektrik qızdırıcı cihazlarından və odun sobalarından istifadəyə yol verilib, elektrik təsərrüfatı "Elektrik Qurğularının Quraşdırılması Qaydaları"nın tələblərinə uyğun quraşdırılmayıb.

Bina və qurğular avtomatik yanğın xəbərverici siqnalizasiya, tüstüxaricetmə və ventilyasiya qurğuları və yanğına qarşı su təchizatı sistemi ilə təmin olunmayıb, obyektin tələb olunan zəruri sahələri ilkin yanğınsöndürmə alət və vasitələri ilə təmin olunmayıb, mövcud osdondürənlərin tərkibi yenisi ilə əvəz olunmayıb; Bundan başqa, otaqların yenidən planlaşdırılması, onların təyinatının dəyişdirilməsi və ya yeni texnoloji avadanlıqlarla təmin edilməsi zamanı qüvvədə olan tikinti və texnoloji layihələndirmə normalarının yanğına qarşı tələblərinə riayət edilməyib, xammal anbarı istehsal sahəsindən yanğına qarşı arakəsmə divarlarla təcrid olunmayıb.



Yenidənqurma, genişləndirmə və fəaliyyətin dəyişdirilməsi Dövlət Yanğın Nəzarəti orqanları ilə razılaşdırılmayıb, daşınmaz əmlakın icbari sığortası həyata keçirilməyib. Yanğın təhlükəsizliyi norma və qaydalarının pozulması səbəbindən baş verə biləcək yanğın hadisələrindən insanların həyatının və sağlamlığının, dövlətin əmlak maraqlarının, milli sərvətin, ətraf mühitin, bütün mülkiyyət növlərinin qorunması məqsədilə, "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinin 9-cu və "Azərbaycan Respublikası Fövqəlada Hallar Nazirliyi Dövlət Yanğın Nəzarəti Xidməti haqqında Əsasnamə"nin 9.7-ci bəndininin tələblərini rəhbər tutaraq, yanğın təhlükəsizliyi norma və qaydalarının tələblərinin pozulması faktları aşkar edilmiş Bakı şəhəri, Nərimanov rayonu, Müzəffər Nərimanov küçəsi, ev 4 ünvanında yerləşən polietilen paket istehsalı müəssisəsinin Rəngləmə sexində işlərin görülməsinin dayandırılması barədə Qərar qəbul edilib.

*Mehman Cavadoğlu*

# Paşinyanın yox, Putinin imzası əsasdı

*Ermənistan müxalifətinin yaratdığı "Vətəni xilas hərəkatı"nın neçə gündür ciddi-cəhdlə hazırlaşdığı, "sayıyla rəqiblərinin kürkünə birə salacaq", "maraqlı sonluğuyla görənlərin gözünü qamaşdıracaq" - deyə anonsladığı 20 fevral mitinqi ümidləri doğrultmadı. Yerli və xarici informasiya agentliklərinin "bir neçə minlik" aksiya adlandırdığı tədbirin iştirakçıları iki gün sonra yenidən toplaşmaq şərtilə Yerevanın küçə və dalanlarıyla yürüyə-yürüyə dağılışıb getdilər. Mitinq hələ dağılışmamış elan olundu ki, bu gündən etirazlar fasiləsiz, aparıcının öz təbiriylə desək, "non stop" mərhələsinə qədəm qoyur. Hərçənd, müxalifət "non stop" mitinqlər rejiminə keçdiyini ilk dəfə hələ ötən ilin noyabrım 11- də elan eləmişdi.*

*Mitinqin 20 fevrala, yəni, bədnam Dağlıq Qarabağ hərəkatının başlanmasının 33-cü ildönümünə təyin edilməsi də onun kütləviyini artırmağa hesablanmış gediş idi. Ancaq nə bu cür sentimental-nostalji tryuklar, nə də yaxasında qalib xaltası gəzdirən iki keçmiş prezidentin siyasətə uzun müsahibələrlə müşahidə olunan təmtəraqlı qayıdışı Yerevanın 20 minlik Azadlıq meydanının heç yarısını doldurmağa yetərli olmadı. Üstəlik, Paşinyan da qollarını yanına sallayıb durmamışdı, mitinqin kütləvilliyini əngəlləmək üçün təşkilatçıların siyasi-psixoloji təqibi və həbsi də daxil ənənəvi təzyiq vasitələrindən tutmuş sivil təbliğat üsullarına kimi bütün mümkün vasitələrdən yararlanmışdı.*

*Mitinq ərəfəsində "Gullap" kimi nüfuzlu bir beynəlxalq mərkəzin ölkədə keçirdiyi sorğuda 34 faiz reytinqlə opponentlərinin hamısından öndə getməsi onun mövqelərinin hələ də möhkəm olduğunun bariz nümunəsiydi. Hər nə qədər küçə suyasətçisi ayaması daşısa da, məğlub baş nazirin müasir texnologiyalardan yaxşı baş çıxardığını və lazımi anda ondan düzgün yararlanmağı bacardığını da etiraf eləmək lazımdı.*

*Mitinqin uğursuzluğu təkcə onun eloktoral bazasının kasadlığında deyildi. Hətta müxalifətə açıq rəğbətiylə seçilən erməni ekspertlərinin etiraflarına görə "son və qəti döyüş" şüarıyla keçirilən aksiyada yeni heç nə yox idi, hər şey ötən əsrin 90-cı illərindəki primitiv-populist ab-havanı xatırladırdı.*

*Ən çox diqqət isə vahid namizəd Vazgen Manukyanın çıxışına yönəlmişdi. Onun guya proqram xarakterli nitqinin təhlili göstərir ki, müxalifət məqsədini açıq elan eləsə də, hazırkı mərhələdə "nəyi necə etməyin", daha doğrusu, Paşinyanı necə devirməyin yolları haqqında aydın təsəvvürə malik deyil. Manukyan baş naziri devirmək üçün irəli sürdüyü "A" və "B" bəndli iki planının birincisinin reallaşacığına, yəni, Paşinyanın öz əsas dayaqlarından - xalqın, parlamentin və güc strukturlarının dəstəyindən məhrum edilməsinin mümkünlüyünə özü də inanmadığı üçün ikinci variantı, üsyan ssenarisini daha məqbul hesab etdiyini də gizlətmədi. Ancaq güc strukturlarının birmənalı şəkildə müdafiə etdiyi baş naziri hansı sirli qüvvənin gücüylə zorla devirəcəklərinə də aydınlıq gətirə bilmədi.*

*İkinci vacib məqam Manukyanın onu vahid namizəd kimi irəli sürən öz müttəfiqlərinin bostanına atdığı daşla bağlıdı. O nə qədər uzaq 90-cı illərin ab-havasıyla yaşayan populist siyasətçi olsa da, özünün müvəqqəti keçid fiquru olduğunu yaxşı anlayır. Ona görə də dəmiri bəri başdan isti-isti döyməyə çalışır və iki mühüm şərt irəli sürür: "Paşinyan getməldi, amma onun yerinə ölkənin keçmiş birinci şəxslərindən heç kim gələ bilməz. Təbii ki, mesajın məhz Köçəryanla Sərkisyana ünvanlandığı heç kimə sirr deyil. Çünki Manukyan onu vahid namizəd kimi irəli sürən 17 partiyanın liderləri arasında ən çox məhz bu iki nəfərdən çəkinir. Ona görə yox ki, onlar geniş eloktoral dəstəyə malikdi, ona görə ki, hazırda ölkədə etiraz hərəkatının əsas ağırlığının məhz Dağlıq Qarabağ əsilli fəal azlığın çiynində olduğunu yaxşı bilir. Bir sözlə, anti Paşinyan koalisiyasının öz arasında gec-tez ciddi çəkişmələrin yaranacağı barədəki proqnozlar özünü vaxtından xeyli tez doğrulmaqdadı.*

*Nəhayət, üçüncü və ən vacib məqam vahid namizədin Rusiyanı nəzərdə tutaraq söylədiyi və hətta ən nikbin ekspertlərin belə təəccübünə səbəb olan açıqlamasıyla bağlıdı. O, ənənəvi antitürk ritorikasından sonra Ermənistanın mümkün müttəfiqlərini sadalayarkən İrandan Çinə kimi bir çox ölkələrin adını çəkdi, Qərb ölkələrindən yan ötsə də Rusiyanı da unutmadı. Amma ağzından qəfil və ya düşünülmüş şəkildə çıxardığı bir ifadə hər şeyi alt-üst elədi. Vahid namizəd bəyan elədi ki, mən müttəfiqlər deyəndə Ermənistanla bərabərhüquqlu əməkdaşlıqdan (oxu: Ermənistana təmənnasız yardım edən və hətta onların əvəzinə Azərbaycan və Türkiyə ilə savaşa girməyə hazır olan) danışıram, ona öz sadiq köləsi kimi baxanlardan yox.*

*Daşın Rusiyanın bostanına atıldığı heç kim üçün sirr olmadı. O Rusiyanın ki, Ermənistanı tarix boyu boyunduruq kimi boynundan asıb saxlayıb, bu gün onun sərhədlərini qorumaqdan tutmuş iqtisadiyyatının tamamilə çökməməsi üşün əlindən gələndən də beş qat artığını eləyir. Kölə köləlikdən yaxa qurtarmaq gücündə deyilsə buna ağa neyləsin. Dövlətlər arasındakı münasibətlərdən tutmuş insane münasibətlərinə kimi hər sahədə belədi. Vaxtilə quldarlığı ləğv edən ölkələrin əksəriyyətində yaşanan ən ciddi problemlərdən biri bilirsiniz nə idi? Qulların çoxu azadlıq istəmirdi. Çünki azad yaşamaq vərdişlərini itirmişdilər, ağasız nə edəcəklərini bilmirdilər.*

*Bu gün Ermənistanda ən antirus siyasətçi Qərbin projesi olan, havalı vaxtlarında Putini hava limanında qarşılamağı belə özünə rəva görməyən Paşinyandı. Odur ki, Manukyanın Kremlə yönəlik bu isterikası sadəcə, ağlını itirmiş qocanın sayıqlamasından başqa bir şey deyil. Əgər ermənilər artıq belə bir mayıf siyasətçinin ümidinə qalıbsa, onda gələcəkləri bu günündən daha dumanlı görünür.*

*Ermənistanın son və qəti məğlubiyyətdən Putinin təcili müdaxiləsi sayəsində qurtarması heç kimə sirr deyil. Görünür, Rusiya prezidentinin özü də buna nail olacağına əvvəlcədən əmin deyilmiş. Təsadüfi deyil ki, bu günlərdə ölkənin baş redaktorlarıyla görüşü zamanı o, Qarabağ münaqişəsinin nizamlanması yolundakı fəaliyyətini prezidentlik dövrünün ən mühüm hadisəsi adlandırıb.*

*Ancaq Putinin nikbinliyinə baxmayaraq, bu münaqişənin tam olaraq nizamlanmasından danışmaq hələ çox tezdi. İrəlidə bizi Azərbaycanın öz əraziləri üzərində suveren hüquqlarının tam şəkildə bərpa edilməsi kimi uzun və çətin diplomatik çəkişmələr gözləyir. Bunu diplomatiya bacarmasa "dəmir yumruq" edəcək. Hazırda Paşinyanı yıxmaq üçün birləşmiş siyasi qüvvələrin hamısı bu gerçəkliyi yaxşı bilir. Onlar hakimiyyətə gəlsələr belə indiki baş nazirdən fərqli mövqe tutmayacaqlar, istəsələr belə bunu bacarmayacaqlar. Məqsəd Dağlıq Qarabağın xilası yox, topasının bir nömrəli rəqibinə çevrilmiş Paşinyandan intiqam almaqdır.*

*Azərbaycanda da bəzilərinin tez-tez işlətdiyi "Paşinyanın üçtərərəfli bəyanatda imzası var, odur ki, onun qalması bizə sərfəlidir" deyə yayğın bir tezis var. Vacib məqam bəyanatın altında Paşinyanın yox, Putinin imzasının olmasıdı. Hazırda heç bir erməni siyasətçisi bu imzaya şəkk edəcək dərəcədə cəsarət yiyəsi deyil.*

# XALQA VƏ DÖVLƏTƏ SƏDAQƏTLƏ XİDMƏT ETMƏK NÜMUNƏSİ

**İctimai asayişin qorunması və cinayətkarlığa qarşı mübarizədə öz fəallığı ilə həmişə diqqət mərkəzində olan Azərbaycan polisi cəmiyyətin ən çox inanıb etibar etdiyi mükəmməl dövlət strukturu kimi indi yeni bir mərhələdədir. Xalqına və dövlətinə sədaqətlə xidmət anlayışı Azərbaycan polisinin həyat amalına çevrilib. Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov bütün görüş və çıxışlarında polisin xalqa və dövlətə arxalandığını vurğulayır. Dövlətçiliyə və xalqa xidmətində fədakarlıq nümunəsi göstərən doğma polisimiz ictimaiyyətin rəğbətini məhz bu istiqamətdə əldə etdiyi nailiyyətlərlə möhkəmləndirir. Bu xüsusda bir fakt ayrıca vurğulanmalıdır: Azərbaycan Respublikası sabitliyin və ictimai asayişin qorunması reytinqinə görə keçmiş SSRİ məkanında birincilər sırasındadır.**



### *Cinayətkarlığa qarşı mübarizədə*

qazanılan uğurların ən vacib məqamlarından biri, şübhəsiz, polisin xalqla daha da yaxınlaşması, xalqdan dəstək almasıdır. Məhz bunun nəticəsidir ki, polisin gündəlik dinamik fəaliyyətində profilaktik və əməliyyat-axtarış istiqamətli tədbirlərin effektliyi daha da yüksəlir, əldə olunan nailiyyətlərdə öz əksini tapır.

***Bu baxımdan Şəki Şəhər Rayon Polis Şöbəsində də uğurlu nəticələrə yönəlik tədbirlər davamlı olaraq həyata keçirilir. Rayonun hüquq-mühafizə orqanları asayişin qorunması və cinayətkarlığa qarşı mübarizədə həlledici rol oynayan birgə fəaliyyətə xüsusi həssaslıqla yanaşır, tədbirlərin effektliyini təmin edirlər.***

Bu mənada polisin fəaliyyəti daha çox diqqət mərkəzindədir. Camaatla daha çox təmasda olan, yerlərdə keçirilən görüşlər zamanı daha çox suallar, istəklər ünvanlanan Şəki polisi özünün adekvat münasibəti ilə sakinlərin inam bə rəğbətini qazanır. Vətəndaşların qəbulu, ərizə və şikayətlərə baxılması, o cümlədən DİN-in 102 xidmətindən daxil olan müraciətlərə dərhal əməli reaksiya verilməsi işi gündəlik nəzarətdədir. Şəki Şəhər Rayon Polis Şöbəsinin əməkdaşları Azərbaycan Respublikasının Konstitusiyasını, Qanunlarını, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamlarını, DİN-in kollegiya qərarlarını, DİN rəhbərliyinin əmr və göstərişlərini rəhbər tutaraq xidməti ərazidə cinayətkarlığa qarşı mübarizə, ictimai qaydaların qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində fəaliyyət göstərərək etimadı doğrultmağa çalışırlar.

### *Ən mühüm məsələlərdən biri*

də budur ki, vətəndaşların şöbə rəhbərliyi və aidiyyatı əməkdaşlar tərəfindən mərkəzdə və polis sahə məntəqələrində vaxt məhdudiyyəti qoyulmadan müntəzəmliklə qəbulu və müraciətləri üzrə qanuni tədbirlər görülməsi yüksək səviyyədə təmin edilir. Elə DİN rəhbərliyinin də tələb və istəyi belədir: ölkə vətəndaşlarının hər bir müraciətinə həssaslıqla yanaşılmalıdır. Müxtəlif profilaktiki tədbirlərin və cəmiyyət-polis mövzusunda aparılan işlərin fonunda aldığımız məlumatlar bu məsələlərin Şəki Şəhər Rayon Polis Şöbəsində xüsusi önəm daşıdığını bir daha təsdiqləyir.

***Xüsusilə, şöbənin rəisi, polkovnik Azər Muradovun bu istiqamətdə nümunəvi iş üslubu əməkdaşların da fəaliyyətində ciddi xarakter alır. Polis şöbəsinə müraciətlər edən, qəbullara gələrək prinsipial və səmimi rəislə, əlaqədar əməkdaşlarla təmasda olan onlarla sakinin razılıq və təşəkkür dolu sözlərini eşitmişik. Polisə üz tutan hər hansı bir rayon sakini qanunların tələb etdiyi səviyyədə dinlənilir və istisnasız olaraq hamıya köməklik göstərilir.***

### *Göründüyü kimi,*

vətəndaşların qəbulu, ərizə və şikayətlərə həssaslıqla yanaşılması,yerlərdə aparılan görüş və söhbətlər polisi xalqla daha da yaxınlaşdıran, qarşılıqlı hörmət və inam yaradan gözəl xüsusiyyətlərdir.

Şəki polisinin fəaliyyətində digər nümunəvi tədbirlər də diqqət çəkir. Cinayətkarlığa qarşı mübarizə və ictimai asayişin qorunması istiqamətində daha çox maarifləndirmə tədbirlərinə önəm verilir. Sakinlərin, xüsusilə gənclərin cəmiyyətimizə zidd əməllərdən çəkindirilməsi məqsədilə rayon icra hakimiyyətinin müvafiq qurumlarının, rayon prokroluğunun, təhsil şöbəsinin, gənclər və idman idarəsinin rəhbər vəzifəli əməkdaşları, rayonun tanınmış ziyalılarının və müharibə veteranlarının iştirakı ilə çoxsaylı görüşlər keçirilmiş, müxtəlif mövzularda mühazirələr oxunmuş, disputlar təşkil edilmişdir. Polkovnik bildirir: "Biz əgər profilaktik tədbirləri və cinayətkarlığa qarşı mübarizə üsullarını daha da təkmilləşdirməyi, müasirləşdirməyi və gücləndirməyi qarşımıza mühüm vəzifə olaraq qoymuşuqsa, bu mübarizənin anatomik xüsusiyyətlərini də dəqiqliyi ilə istiqamətləndirməliyik. Faktik bütün cinayətlər mübarizə hədəfindədir. Polisin ənənəvi peşəkarlığı və potensialı hər zaman yeniliklərə meyillidir. Biz öz gündəlik fəaliyyətimizi hörmətli nazirimiz, general-polkovnik Vilayət Eyvazovun əmr və göstərişlərinə əsasən məhz bu səviyyədə qurmağa çalışırıq. Xalqımızın və dövlətimizin də tələbi məhz belədir..."

Öryənirik ki, ötən dövr ərzində həyata keçirilən bir sıra tədbirlərlə yanaşı əsasən cinayətklarlığa qarşı mübarizə işi gündəlik nəzarətdə saxlanılmışdır. Rayonda quldurluq, oğurluq və narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı 23 cinayət hadisəsi törədilmiş, 19 nəfəri birləşdirən 7 cinayətkar qrup zərərsizləşdirilmişdir.

Hesabat dövründə qeydə alınmış ümumi cinayətlər 10 fakt, ağır və xüsusilə ağır cinayətlər 11 fakt, dələduzluqlar isə 23 fakt artmışdır. Əvvəllər cinayət törətmiş şəxslər tərəfindən 36 cinayət hadisəsi, sərxoş vəziyyətdə 11, yetkinlik yaşına çatmayanlar tərəfindən 1, qadınlar tərəfindən 5 cinayət hadisəsi törədilmişdir.

### *Cinayətlərin açılması*

***yüksək olmaqla 98,0 faiz təşkil etmiş, ağır və xüsusilə ağır cinayətlərin açılması 100 faiz təmin olunmuşdur.***

Qeyri-aşkar şəraitdə baş vermiş cinayətlərin açılması 95,3 faiz, o cümlədən mülkiyyət əleyhinə olan cinayətlərin açılması 97,1 faiz təşkil etmişdir. Müvafiq dövrlə müqayisədə mülkiyyət əleyhinə olan cinayətlərin açılması 6,9 faiz, oğurluqların açılması 4,7 faiz, mənzildən edilən oğurluq cinayətlərinin açılması 5,7 faiz yaxşılaşmışdır. Baş vermiş 57 xırda talama faktının hamısı açılmış, vətəndaşlara dəymiş maddi ziyanın ödətdirilməsi tam təmin edilmişdir.

Axtarışda olan 33 nəfər təqsirləndirilən şəxsdən 26 nəfəri, ağır və xüsusilə ağır cinayətlərə görə axtarılan 9 təqsirləndirilən şəxsin isə 5-i tutulmuşdur.

### *Narkotiklərin qanunsuz dövriyyəsi*

***ilə əlaqədar 50 cinayət faktı, o cümlədən 12 satış faktı müəyyən olunmuş, qanunsuz dövriyyədən 9,3 kq narkotik vasitə çıxarılmışdır. Bunların 200 qramı güclü təsirə malik olan, 9,1 kq isə yüngül tərkibli narkotik vasitədir. "Xaş-xaş 2020" tədbirlər planına uyğun olaraq keçirilmiş reydlərlə yabanı halda bitmiş, ümumi çəkisi 8 ton 46 kq olan 47529 ədəd çətənə kolu aşkarlanaraq məhv edilmişdir.***

İstintaq bölməsinin icraatında 128 cinayət işi olmuşdur. Həmin işlərdən 58-i məhkəməyə göndərilmişdir. İstintaqı tamamlanmış cinayət işləri üzrə dəymiş maddi ziyanın 92,4 faizi ödənilmişdir.

Yol hərəkəti qaydalarının pozulması sahəsində 7433 fakt aşkar edilmişdir. Bunlardan 1885 fakt kobud qayda pozuntularıdır. Keçən dövrlə müqayisədə hadisələr 10 fakt, ölənlər 2 nəfər, yaralananlar isə 14 nəfər azalmışdır.

Dövr ərzində şöbənin rəhbərliyi tərəfindən 796, ayrıca olaraq şöbə rəisi tərəfindən isə 443 vətəndaş qəbul edilmiş, onların müraciətlərinə həssaslıqla yanaşılmışdır.

**Göründüyü kimi Şəki Şəhər Rayon Polis Şöbəsinin əməkdaşları cinayətkarlığa qarşı mübarizədə, sabitliyin və ictimai asayişin qorunması istiqamətlərində 2020-ci ili uğurlu nəticələrlə başa vuraraq 2021-ci ildə də yeni nailiyyətlər qazanmaq əzmindədirlər.**

**Məzahir ƏHMƏDZADƏ**

# Polisdən uğurlu əməliyyat

## 22 kq-dan artıq narkotik ələ keçirildi

**(əvvəli 1-ci səhifədə)**

Baş İdarə əməkdaşları tərəfindən həyata keçirilən daha bir uğurlu əməliyyat zamanı isə əvvəllər məhkum olunmuş Vüsal Rüstəmov saxlanılıb.

Onun üzərinə baxış zamanı 20 qrama yaxın, paytaxtın Xətai rayonunda yaşadığı mənzildən isə əlavə 7 kiloqram 444 qram narkotik vasitə qurudulmuş marixuana aşkar edilib. Araşdırma zamanı məlum olub ki, Vüsal Rüstəmov aşkar olunmuş narkotik vasitəni Ağdam rayonunda ona məxsus torpaq sahəsində xüsusi qulluq edərək əkib yetişdirib. Daha sonra qurudaraq satışını həyata keçirmək istəyib.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı daha bir əməliyyat tədbiri isə Salyan rayonunda həyata keçirilib.



Belə ki, Salyan Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat zamanı vətəndaş Anar Yaqubov saxlanılıb.

Onun sərnişin kimi əyləşdiyi avtomobilə baxış zamanı Anar Yaqubova məxsus 3 kiloqram 290 qram narkotik vasitə heroin, 170 qram tiryək və 120 qram psixotrop maddə olan metamfetamin aşkar edilərək götürülüb. Saxlanılan şəxs izahatında külli miqdarda narkotik vasitələri xarici ölkələrdən birinin vətəndaşının ona satmaq məqsədi ilə göndərdiyini bildirib. Beləliklə polis əməkdaşları tərəfindən keçirilən son əməliyyatlar nəticəsində qanunsuz yollarla ölkə ərazisinə gətirilən yüksək təsiredici xassəyə malik ümumi çəkisi 22 kiloqramdan artıq narkotik vasitə və psixotrop maddənin yayılmasının qarşısı alınıb.

**Qeyd edilən faktlarla bağlı saxlanılan şəxslər barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb və onlar tutularaq istintaqa cəlb olunublar. Cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.**

# "Qarabağı görmədən sevən və uğrunda can verən bir nəsil yetişib"

*Müsahibimiz deputat Müşfiq Cəfərovdur.*

**- Müşfiq müəllim, bildiyimiz kimi dövlət siyasətinin mühüm və ayrılmaz hissələrindən biri də gənclər siyasətidir. Bununla əlaqədar ölkə rəhbərliyi tərəfindən müvafiq qərarlar qəbul edilir, strategiyalar müəyyənləşib, dövlət proqramları həyata keçirilir. Bu gün bu sahədə aparılan siyasətə sizin baxışınız maraqlı olardı.**

- Düşünürəm ki, hər bir ölkənin uğurlu gənclər siyasəti bütün sahələrdə nailiyyətlər əldə edilməsinə zəmin yaradır. Həyata keçirilən bu siyasət gənclərin təhsil səviyyəsinin yüksəldilməsi, dünyagörüşünün, fiziki və mənəvi sağlamlığının möhkəmləndirilməsi, bir sözlə, hərtərəfli inkişafı üzərində qurulmalıdır. Sevindirici haldır ki, Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında fəal fəaliyyəti ilə seçilir və ictimai-siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində ciddi rol oynayır. Hazırda gənc nəsil cəmiyyətin vacib qüvvəsinə çevrilib. Dövlətimizin gənclər siyasətinin əsas məqsədi intellektual, fiziki cəhətdən sağlam və vətənpərvər gənclər yetişdirməkdir. Prezident İlham Əliyev ölkəmizin qüdrətli dövlətə çevrilməsində gənclərə böyük inam bəsləyir, onlara yüksək şərait yaradılması istiqamətində dövlət proqramları qəbul edilir. Bütün bunlar isə elmli, savadlı, yüksək ixtisaslı gənc kadrların yetişdirilməsinə hesablanmış addımlardır. Elə bu səbəbdən də gənclərin yüksək biliyə yiyələnməsi, onların maraqlarının təmin olunması sahəsində ciddi işlər görülüb, Azərbaycan gənclərinin beynəlxalq əməkdaşlığı artıb. Ötən dövr ərzində gənclər siyasəti və gənclərlə iş sahəsində bir sıra mühüm nailiyyətlər qazanılıb. Azərbaycan gəncləri Avropa miqyasında, beynəlxalq qurumlarda təmsil olunurlar. Onlar Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə var gücləri ilə çatdırırlar.

**- Ölkədə aparılan kadr islahatlarında da gənclər xüsusi diqqətdə saxlanılır. Onlara mühüm vəzifələr verilir, öz elmi bacarıqlarından istifadə etmək üçün şərait yaradılır. Gənclərimiz dövlətin onlara olan etimadını doğruldurlarmı?**

- Bildiyimiz kimi kadr siyasəti hər bir dövlətin adekvat fəaliyyət göstərməsi üçün zəruridir. Dövlət idarəçiliyində peşəkar kadrların önə çəkilməsi artıq ənənə halını alıb. Respublikamızın Prezidenti cənab İlham Əliyevin perspektivli kadrların irəli çəkilməsinə xüsusi diqqət ayırması demək olar ki bütün sahələrdə yüksək səviyyəli kadr bazasının yaranmasına şərait yaradıb. Hazırda dövlətimizin apardığı siyasətin mərkəzində məhz bu istiqamət prioritetdi. İdarəçilik işinin səmərəliliyini yüksəltməyə nail olmaq məqsədi ilə bu gün ölkəmizdə



aparılan islahatlar dövlətimizin qarşısında təkcə kadr hazırlanması kimi yox, həm də siyasi bir vəzifə kimi durmaqdadır. Bu gün savadlı, müasir dünyagörüşlü, vətənpərvər gənc kadrların formalaşdırılması, onların mühüm dövlət postlarına rəhbər vəzifələrə gətirilməsi kadr siyasəti kimi qəbul olunmaqdadır. Bu işin öz peşəkarlıq, işgüzarlıq və mənəvi keyfiyyətlərinə görə dövlət qulluğu vəzifələrini tutmağa layiq olan kadrların müəyyən edilməsi və seçilmiş namizədlərin müntəzəm olaraq hərtərəfli inkişaf etdirilməsi üzərində qurulmasına önəm verilir. Dövlət idarəçiliyində gənclərin irəli çəkilməsi, mühüm vəzifələrin onlara həvalə olunması, etibar edilməsi onlara olan diqqət və qayğının bariz nümunəsidir. Öz müşahidələrimə əsasən deyə bilərəm ki, gənc kadrlar cəlb olunduqları idarəçilik sahələrinə yeniliklər gətirib. Gənclərin onlara olunan etimadı doğrultmaq üçün əlindən gələni əsirgəməyəcəyinə inanıram. Mənim Azərbaycan gəncliyinə inam və ümidim böyükdür. Hər bir gənc layiq olduğu təhsilə və işə sahib olmalıdır, bu sahədə yorulmadan, dayanmadan çalışmaq lazımdır.

**- Gənclərin 44 günlük Vətən Müharibəsindəki roluna toxunmasaq olmaz. Onlar hər zaman olduğu kimi fədakarlıqları ilə tarix yazdılar. Bizə Zəfər gününü qismət etdilər...**

- 44 gün davam edən müharibədə gənclərimizin nümayiş etdirdiyi möhtəşəm səfərbərlik xalqımızın dövlət başçısının ətrafında sıx birləşməsinin bariz ifadəsi olmaqla yanaşı, həmçinin yeni və qüdrətli Azərbaycanın bütün dünyada özünü təsdiqi kimi qəbul edildi.

Azərbaycanın müzəffər ordusu düşmənin bütün torpaqlarımızdan qovulmasına, Qarabağın, xüsusən də xalqımızın ləyaqət və qürur simvolu olan Şuşanın işğaldan tam azad olunmasına, həlli mümkün görünməyən Dağlıq Qarabağ münaqişəsinin uğurla və ədalətlə həll edilməsinə, həm də yaşadığımız bölgədə sülhə və təhlükəsizliyə əvəzsiz töhfə verdi. Azərbaycan gəncləri 44 günlük müharibədə əvəzsiz mövqe nümayiş etdirdi.

Biz bir daha gördük ki, gənc nəsil əsl vətənpərvər ruhda böyüyüb. Azərbaycan gənci həm döyüşdü, həm Azərbaycan reallığını dünyaya diplomatik yolla çatdırdı, həm də zəfər dolu tarix yazdı. Biz bu zəfəri gənc nəslə borcluyuq. Böyük bir fəxarət hissi ilə qeyd edirəm ki, Qarabağı görmədən sevən və uğrunda can verən bir nəsil yetişib. Bu nəsil ki, milli dünya tarixində dövlətimizə yeni imic yaratdı.

**- Siz ölkəmizin ikinci böyük şəhəri sayılan Gəncənin Kəpəz rayonunun seçicilərinin etimadı sayəsində deputat mandatı qazanmısınız. Sözsüz ki, bu seçicilər arasında gənclərin öz rolu olub. Və yəqin ki, sizi seçən gənclər bu gün hansısa bir problemlə üzləşəndə sizə müraciət edirlər. Gənc seçicilərinizin qarşılaşdığı problemlər əsasən hansı sahələrə əhatə edir?**

- Hazırda gənclərin əsas problem təhsil və işlə bağlıdır. Artıq 1 ilə yaxındır ki, dünya pandemiyadan əziyyət çəkir. Deputatlıq fəaliyyətim pandemiya ilə üst-üstə düşdü. Dünya özünü qapatdı, təhsil sahəsində ciddi boşluqlar yarandı. Həmçinin də qapanmalarla əlaqədar olaraq işsizlik artdı. Əsas müraciətlər iş və təhsillə bağlı olur. Pandemiyanın fəsadları postpandemiya dövründə də davam edəcək, lakin yenə də əlimizdən gələni qanunvericiliyin tələbinə uyğun olaraq həyata keçiririk. Hazırda Gəncə şəhərində müharibə iştirakçılarının təhsil və bacarığına uyğun rəhbər vəzifələrə gətirilməsi prosesi davam edir. Şəhər icra hakimiyyəti Vətən Müharibəsi iştirakçılarını yeni yaradılan şöbənin idarəçiliyinə təyin etdi.

**Nicat NOVRUZOĞLU**

### *Türk ordusu 3 terrorçunu zərərsizləşdirdi*



*Türk ordusu İraqın şimalındakı Metina bölgəsində PKK-ya qarşı əməliyyat keçirib.*

*Bu barədə "TRT haber" məlumat yayıb.*

*Məlumata görə, əməliyyatlar çərçivəsində PKK-nın kəşfiyyat və maliyyə fəaliyyətlərini həyata keçirən 3 üzvü zərərsizləşdirilib.*

### *BMT konvoyuna hücum: səfir öldürüldü*



*Konqo Demokratik Respublikasında BMT-nin konvoyuna hücum edilib.*

*Hücum nəticəsində İtaliyanın səfiri Luka Attanasio və bir əsgər həlak olub.*

*İtalyan səlahiyyətliləri hücumun əsas məqsədinin avtomobildəki şəxsləri girov götürmək olduğunu bildiriblər.*

*MEHRİBAN*

**Orxan Saffari**

# Texnoloji qeyrət



***Sosial şəbəkələr hər şeydən öncə özünü ifadə etmə üçün ən effektiv tribunadır. Təbbi, belə məqamda da ortaya nə cür desən insan çıxacaq. Bura elə yerdir ki, heç kəs tam olaraq özü deyil.***

***Fikirlərimizi, düşüncələrimizi bölüşdüyümüz bu şəbəkədə(daha çox feysbuk) hər cür maraqlı, eyni zamanda da məzmunsuz, mənasız insanlarla qarşılaşırıq.***

***Məsələn, mənim üçün ən mənasız, ən məzmunsuz insanların bir qismi də, "texnoloji qeyrət" hissinə qapılıb, "söyüş söyməyin, qadınlar oxuyur", "18+ şeylər paylaşmayın, sizin də ana- bacınız baxır" və.s kimi "elektron namus" sərgiləyənlərdir. Yəqin ki, hər birinizin qarşısına çıxıb bu cür adamlar və yaxud da elə həmin adamlardan biri sizsizin, ey bunu oxuyaq "Əxlaq polisi". Əgər sizsinizsə, sizə bir-iki kəlmə sözüm var. Xahiş edirəm, axıra kimi oxuyub özünün tanıyın.***

***Ey sosial şəbəkə istifadəçisi, sən xəstəsən? başın çatmır? Dəlisən, nəsən sən? Yox, həqiqətən belədirsən, denən, kömək edək, budu buradır da, get İrana, özünü yoxlatdır.***

***Ümumiyyətlə, bu kimi tendensiyalar artıq qarşısı alınmaz məsələlərdir. Adamlar həqiqətən də düşünür ki, sosial şəbəkələrdə etik olmayan nələrsə onların əxlaqını pozur. Yox, əgər həqiqətən də pozursa, deməli, heç o əxlaq dedikləri nəsnə onlar da yerli-dibli olmayıb. Adamın da əxlaqı porno video gördü deyə pozular? adam da söyüş gördü deyə əxlaqsız olar, ey bəni adəm?***

***Təbii, mədəniyyət naminə etik olaraq söyüş söyməyə, 18+ nələrisə paylaşmaya bilərsən. Amma etik olmayan bir şeylə əxlaqın, xüsusi ilə qadının əxlaqının pozulmasını düşünmək absurddur. İkinci bir məsələ isə əxlaqın porno görüntülər də, söyüşlərdə görülməsidir ki, bu haqqda danışsam da, bilirəm ki, faydası olmayacaq. Yenə deyəcəklər, söyüş söymə, ay oğraş!***

***Cəmiyyətimizin elə üzvləri var ki, onlar ən xırda bir şeyi belə söyüş bilir, ona görə cinayət də törədirlər. Məsələn, şəxsən mən özüm şahidi olmuşam.***

***Bir neçə il əvvəl bir kafedə 4-5 dost oturub çay içirdik. Qəfildən, ortaya nə düşdüsə, uşaqlardan biri o birisə, hamımızın atası ilə anası yatıb, spermadan əmələ gəlmişik dedi.***

***Və budur, bununla da "lo" düşdü.***

***Əl atıldı bıçağa, spermatozoidin biri o birini budundan bıçaqladı.***

***İndi görəsən, burda problem nədir? Həqiqətin açıq deyilməsi? Axı, burda elə də əlahiddə bir həqiqət yoxdur. Çox kiçik bialoji bir məsələdir, bilikdir. Mən bu hadisədən sonra özümü inandırmağa çalışdım ki, yəqin, o bıçağa əl atan spermatozoid, hələ də onu leyləklərin gətirdiyinə, yaxud da onu zibillikdən tapdıqlarına inanır.***

***Zibilin biri zibil!***

***Ümumiyyətlə, adam var, hələ də elə bilir ki, qadınlar söyüş bilmir və öz aralarında söymürlər. Onların heç bir hissi yoxdur, onlar sevmir, yanlız kimsə onları sevsə, "alsa" bu zaman onlarda da nəsə baş verir. Ayıl ey qafil, ayıl! Onsuz da sən paylaşmasan belə, hər bir qadın sosial şəbəkələrdə hər gün siz qarşılaşdığınız şeylərlə qarşılaşırlar, siz baxdıqlarınıza baxırlar, gülürlər, müzakirə edirlər və.s. Tutaq ki, sən paylaşmadın. Axı Amerikadakı Con paylaşır. Onun vecinə də deyil, o düşünmür ki, bura "anabacı" baxır.***

***Odur ki, klaviaturada enteri yavaş basın, texnoloji qeyrətinizi də özünüzə saxlayın. Düzdü, həyatın heç bir mərhələsində sizə lazım olmayacaq, amma siz yenə də özünüzə saxlayın, elektron namuslular!***

# "L'Humanite" dən başlayan planlı Qarabağ münaqişəsi: ilk addım, ilk şəhidlər, son deportasiya - 33 il

**Bəlkə də tək mən belə düşünürəm, bilmirəm. 100 il idi ki, münaqişə korun-korun yanırdı. Həmişə ermənilərin başını bəlaya salan onların ədavətçi, millətçi. Burnundan uzağı görməyi ba-**



**carmayan ziyalıları olub.Məsələn, 1987-ci ilin oktyabr ayında Yerevanda Puşkin adına parkda "Qarabağ" komitəsinin ilk mitinqi keçirildi.**

Bu ermənilərin ərazi iddialarının həyata keçirilməsi yolunda atılan ilk addım olsa da, amma o addımı daha da körükləyən , qızışdıran həmin ilin noyabrın 18-də Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Abel A-qambekyan oldu.

Onun Parisdə verdiyi müsahibə "L'Humanite" qəzetində dərc olunduqdan sonra ermənilərin Qarabağ uğrunda gizlin-gizlin apardığı təbliğat daha geniş vüsət aldı, qarşısıalınmaz bir alova dönüşdü. O, müsahibədə DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan edərək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ideyasını irəli sürdü. Bu müsahibə ermənilərin Dağlıq Qarabağa dair ərazi iddialarının başlanması üçün bir siqnal idi.

### Ermənilərin həyasızlığını isbatlayan mitinqlər

***Artıq dekabrın 1-də Dağlıq Qarabağ ermənilərinin nümayəndələri muxtar vilayətin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi haqqında Ermənistandan gələn millətçilər tərəfindən hazırlanmış müraciəti Sov.İKP MK-ya təqdim etdilər. Bu müraciətdən sonra Yerevan, Qafan və Mehri rayonlarında azərbaycanlılara qarşı ədavət hissi baş qaldırdı.***

Gün keçdikcə həyasızlaşan erməni elektoratı daha təhlükəli cəhdlərə başladılar.

1988-ci il əvvəllərində ilk vaxtlar ictimai rəyi öz tərəflərinə çəkməyə çalışan erməni siyasətçiləri və onların himayədarları tərəfindən vilayətin iqtisadi geriliyi pərdəsi altında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün uzun müddətdən bəri hazırlanmış plan üzrə Xankəndidə və Yerevanda davamlı tətillər keçirilir, müəssisələr dayandırılır və kütləvi mitinqlər təşkil edilirdi.

Fevralın 8-də erməni millətçiləri Xankəndidə DQMV-nin Azərbaycan SSR-dən Ermənistan SSR-in tərkibinə verilməsi tələbi ilə yeni imza toplanması kampaniyasına başladılar.

Ayın 12-də ermənilər DQMV-də gizli fəaliyyət göstərən millətçi "Krunk"un təşkilatçılığı ilə muxtar vilayətin Ermənistana birləşdirilməsi tələbi ilə Xankəndidə ilk mitinq keçirdilər.

Guya "xalqın" haqq səsi eşidildi və bu dəfə daha təhlükəli addımlar atıldı.

1988-ci il fevralın 20-də DQMV xalq deputatları Sovetinin XX çağırış növbədənkənar sessiyası "DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR tərkibinə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali sovetləri qarşısında vəsatət qaldırmaq barədə" qərar qəbul etdi.

### Etnik təmizləmə, deportasiya, kütləvi basqınlar

***DQMV Xalq Deputatları Sovetinin vilayətin Azərbaycan SSR tərkibindən çıxması və Ermənistan SSR tərkibinə daxil edilməsi haqqındakı qərarı hüquqa zidd və Konstitusiya əleyhinə bir qərar idi. Respublikaların sərhədlərinin dəyişdirilməsi cəhdləri həm SSRİ, həm də Azərbaycan SSR konstitusiyalarına zidd olduğundan buna heç cür haqq qazandırıla bilməzdi və bu, Azərbaycan SSR-in dövlət suverenliyinin pozulması demək idi. Bunun ilə yanaşı, fevral ayında Ermənistandan azərbaycanlıların zorakılıqla qovulması da artıq kütləvi hala çevrilmişdi. Ayın 21-də ermənilər tərəfindən Yerevanda qalmış son məscid də dağıdıldı. Fevralın 23-də etnik təmizləmə siyasəti həyata keçirən ermənilər Ermənistan SSR-in Qafan rayonunun azərbaycanlılar yaşayan kəndlərinə kütləvi basqınlar təşkil etdilər.***

### Hüquqları pozulan Azərbaycan tərəfi

***Haqqı tapdanan ,əli konstitusiyadan və ədalət prinsiplərindən çıxmış Azərbaycan xalqı anlayırdı ki, Qorbacova ümid edib problemin həllinə nail olmaq artıq gecdir. Odur ki, fevralın 19-da Bakıda nümayiş keçirilir. Amma bu mitinq azərbaycanlıları sakitləşdirmir. Eyni zamanda fevralın 19-da Ağdamda da mitinqlər başlayır. Mitinq 3 gün davam edir. Fevralın 21-də Sov.İKP MK Siyasi Bürosunda Qarabağ məsələsinə baxılacağı barədə məlumat gəldi. 22 fevral, saat 8-dək Moskvadan heç bir xəbər gəlmədiyini görən azərbaycanlılar birbaşa Xankəndinə doğru yürüşə çıxdılar.***

Əsgəran yaxınlığında ermənilərin açdığı atəş nəticəsində Əli və Bəxtiyar adlı iki azərbaycanlı gənc həlak oldu. 1985-1991-ci illərdə



SSRİ DTK sədrinin birinci müavini işləmiş Filip Bobkov özünün "DTK və hakimiyyət" adlı əsərində bu barədə yazır: ***"Fakt faktlığında qalır. İlk qurbanlar azərbaycanlılar oldu. Münaqişənin başlanmasında ilk qanı məhz ermənilər tökdülər".***

Qeyd etmək lazımdır ki, ermənilərin iddia etdiyi kimi yox məhz azərbaycanlılar münaqişənin ilk qurbanları idi.. Həmin gün 2 şəhidlə bərabər 17 Ağdamlı gənc də yaralandı.

O vaxt hadisə şahidlərindən biri Təhmasib Novruzov xatirələrini "Vətən səsi" qəzetində bölüşərək yazır:

***"1988-ci il 16 fevral. "Hayastan" deyə bağıran ermənilərə ilk dəfə Ağdamda bildirildi ki, bu xalq yaşayır və öz Vətənini qorumağa qadirdir. Fevralın 19-da Ağdamda başlanan mitinq 3 gün davam etdi. Fevralın 21-də Sov.İKP MK Siyasi Bürosunda Qarabağ məsələsinə baxılacağı barədə məlumat gəldi. 22 fevral, saat 8-dək Moskvadan heç bir xəbər gəlmədiyini görən ağdamlılar birbaşa Xankəndinə doğru yürüşə çıxdılar... Həmin gün 2 şəhid, 17 yaralı verən Ağdam gənclərinə bundan sonrakı münasibət barədə 2 epizodu yada salmaq kifayətdir:***

Fevralın 24-də "Bakıdan gələn şura hökuməti"nin nümayəndəsi (Azərbaycan SSR Ali Soveti sədrinin birinci müavini -red Əntiqə Rəşid) Telman Orucov yığıncaq keçirirdi. İki gün əvvəlki hadisədə yaralanmış bir neçə gənci xəstəxanadan iclas zalına gətirdilər. Telman Orucov üzünü yaralılara tutaraq dedi ki, "gərək o güllə sizin alnınıza dəyəydi..." Torpaq uğrunda canından keçməyə hazır olan gənclərin "mükafat"ı belə oldu! Daha sonra rayon milisi "fəaliyyətə" başladı. Yürüş iştirakçıları şöbəyə çağırılıb qorxudulur, pul müqabilində "məsuliyyət"dən azad edilirdilər.

Və beləcə, adamların mübarizə ruhu "söndürülürdü. 21 sentyabr 1988-ci il. Moskva bacarıqsız respublika rəhbərlərindən istifadə edərək güclü bir gedişə əl atdı. Kemiş Dağlıq Qarabağ Muxtar Vilayətində (DQMV) və Ağdamda xüsusi vəziyyət elan edildi. Ermənilərin ən çox ehtiyat etdikləri Ağdamı Moskva nəzarətə aldı."...

### Faciənin içindən "Qarabağ" sayıqlaması

Münaqişə günü -gündən daha dəhşətli həddə düşür, azərbaycanlıları yaxıb-yıxıb keçirdi. Bu yerdə oxucularımıza bir nüansı da xatırlatmaq yerinə düşərdi: 1988-ci ilin noyabrın 1-də erməni silahlı dəstələri azərbaycanlı əhalinin evlərinə basqın edərək 40-dan çox azərbaycanlını vəhşicəsinə qətlə yetirdi, yüzlərlə ailə ev-eşiyindən çölə atılaraq evlərini tərk etməyə məcbur edildi. 1988-ci il dekabrın 7-də yerli vaxtla səhər saat 11:41-də Ermənistanda 7,2 bal gücündə zəlzələ baş verdi.

Zəlzələ baş verən gün Sov.İKP MK-nın Baş katibi Mixail Qorbaçov Amerika Birləşmiş Ştatlarında səfərdə olub. Bu səfərdən sonra onun Kubaya da səfəri planlaşdırılıb.

Qorbaçov rəsmi səfərini yarımçıq qoyaraq Moskvaya, oradan isə Ermənistana səfər edib. Zəlzələdən zərərçəkənlərlə görüş zamanı Qorbaçov dünya dövlətlərinə yardım üçün müraciət edib. Baş katibin imzaladığı sərəncamla 10 dekabr 1988-ci ildə SSRİ-də matəm günü elan olunub. Baş katiblə zərəçəkmiş ermənilərin görüşü zamanı ən maraqlı məqamlardan biri o olub ki, bu görüşdə Qorbaçova daha çox Qarabağ məsələsi ilə bağlı sual ünvanlayıblar.

Sözsüz ki, bu suallar Qorbaçovu təəccübləndirib.

Yeri gəlmişkən, 1988-ci il dekabrın 5-də Hamamlı şəhərində (Spitak) 17 azyaşlı uşağı iri diametrli boruya dolduraraq hər iki tərəfini qaynaq etdilər. Borunu hündür uçurumdan tullayaraq fidanları qətlə yetirdilər.

Elə həmin ilin noyabrında Quqarkda da bu cür hadisə həyata keçirilmişdi.

70-ə yaxın 5 yaşından 12 yaşına kimi uşağı 20 metr uzunluğunda 1,5 diametrdə boruya dolduraraq hər iki tərəfini bağlayıblarmış. Yalnız dekabrda baş verən zəlzələ zamanı köməyə gələn fransalı xilasedicilər bu qətliamın üstünü açaraq dəhşətə gəlmişdilər.

**Ermənistan belə vəhşilikləri şkala üzrə yüksəldə-yüksəldə münaqişəni artıq 1990-cı ildə böyük bir müharibəyə dönüşdürə bildilər.**

**Əntiqə Rəşid**



Qorxmaz İbrahimli

# ZİYANLI NAĞILLARIMIZ

*Çox vaxt dediyim fikrimi bir daha yeniləyirəm.*

*Bizim uşaqlara öyrətdiyimiz nağılları dəyişdirmək lazımdır.*

*Məsələn, "Cırtdanın nağılı".*

*Görün bir nağıl nə qədər zərərli içəriklərə sahibdir:*

*Yağlı kökə vermək - rüşvət. Cırtdan odun yığmır ki, nənəsi uşaqlara kökə verib, onlar yığmalıdırlar.*

*Tənbəllik. Kökə verildiyi üçün Çırtdan heç bir iş görmür.*

*Heyvanlardan uşaqlıqda yaranan qorxu,- nəticəsi heyvanlara nifrət.*

*Gecə azmış uşaqlar it hürən tərəfə getmirlər ki, it onları yeyər.*

*İşığa,- nura nifrət. İşıq gələn tərəfə getdilər, divlə rastlaşdılar.*

*Yalan danışmaq. Gecə divə yemək bişirtdirmək.*

*Kələkbazlıq. Divi aldadıb çayda batırmaq.*

*Belə yalan-palan nağıllarla böyüyən uşaqlar məmur olanda xalqı aldatmaqla məşğul olurlar.*

*Məncə lap körpə yaşlarından uşaqlarımızı dürüstlüyə, çalışqanlığa, kitab oxumağa, zəhmətkeşliyə öyrətməliyik.*

*Bunun üçünsə Milli İbtidai Təhsil Qanunu hazırlayıb, geniş müzakirə ilə qəbul etmək lazımdır.*

*Bağçalardan başlamaqla düzgün ibtidai təhsil versək bu millət çox böyük sürətlə öz dövlətini inkişaf etdirəcəkdir.*

**Vilayət Quliyev**



# "Sən pak deyilsən, mən səni necə öpə bilərəm?"

***Gənc Mirzə Kazımbəy Həştərxanda şotland missionerlərinin təlqini ilə xristianlığı qəbul edəndən sonra missiyanın iqamətgahında yaşayırdı. Atasına çox bağlı olduğundan ilk günlər ondan ayrı necə qalacağını heç cür təsəvvürünə gətirə bilmirdi.***

***Buna görə də missiyada bir neçə gün keçirəndən sonra sonra atasının yanına vasitəçi göndərib onunla görüşmək istədiyini bildirmişdi. Hacı Qasımbəy görüş təklifindən boyun qaçırmamışdı, amma şərt qoymuşdu ki, onu oğlu kimi yox, hər hansı bir ingilis, fransız, ümumiyyətlə bir xaçpərəst kimi qəbul edəcək.***



***Hacı Kazımbəy neçə günlük intizardan sonra oğlunun yolunu səbirsizliklə közləyirdi. Nəhayət, Məhəmməd Əli gəlib çıxanda ata heç kimin onların söhbətinə mane olmaması üçün qapını bağlamışdı.***

***Mirzə Kazımbəyin qızı 0. A. Baratınskaya - Kazımbəy (1843-1918) "Russkiy arxiv" jurnalında atasının söhbətlərinə əsasən görüşü belə təsvir etmişdi:***

***"Onlar uzun müddət ağladılar. Oğlunun dinindən üz döndərməsinə baxmayaraq ata ürəyinin övladına təbii bağlılığı qətiyyən azalmamışdı, Məhəmməd Əlinin atasına bəslədiyi məhəbbət isə lap artmışdı. Hacı Qasımbəy daha oğlunu qınamırdı, ancaq tez-tez deyirdi ki, görünür, şeytan onun ürəyinə yol tapıb; yoxsa öz Peyğəmbərindən və qoca atasından üz döndərməzdi".***

***Mirzə Kazımbəy isə həmin görüşün - müsəlman ata ilə xristian oğulun ilk görüşünün təfərrüatlarını belə xatırlayırdı: "Atam ayağa qalxdı ki, məni öpsün, lakin birdən yadına nə isə düşmüş kimi dayandı: "Sən pak deyilsən, mən səni necə öpə bilərəm?". O, ikinci dəfə ayağa qalxdı, amma yenə də bir qərara gələ bilməyib oturdu.***

***Nəhayət, atalıq hissi ürəyindəki xurafat xofuna qalib gəldi, yaxınlaşıb məhəbbətlə gözlərimdən, yanaqlarımdan, alnımdan öpdü. Sonra isə gedib ağzını bir neçə dəfə yaxaladı. Çünki dodaqları napak oğluna toxunmuşdu...".***

***Hacı Qasımbəy oğlunu başa düşə bilməsə də, xüsusən tək qaldığı vaxtlarda onun tutduğu işdən dəhşətə gəlsə də, saatlarla günahının bağışlanması üçün Allaha dua etsə də, ürəyindəki atalıq hissini boğa bilmirdi. Dindar qoca başqalarınıi yanında oğluna bəslədiyi hissləri büruzə vermirdi. Tək qalanda isə onunla əvvəlki kimi mehriban rəftar edir, sonra da öz hərəkətindən xofa düşür, dəhşətə gəlirdi. Qəzəbin və peşmançılığın ilk dalğası keçib getmişdi. Sarsılmış, ümidini itirmiş Hacı Qasımbəy artıq hər şeyi Allahın iradəsinə baqlayırdı: "Görünür, qəzanın qədəri belə imiş ki, oğlum kafir olsun. Kim Allahın hökmünə qarşı çıxa bilər?".***

***Görüşlərinin birində ata oğluna bildirmişdi ki, onun dinindən üz döndərməsi xəbəri Dərbəndə çatıb və ailənin çoxsaylı qohumlarını dəhşətə gətirib. Onlar cavan Məhəmməd Əliyə artıq dünyadan köçmüş adam kimi yas məclisi qurublar, qadınlar müsəlman adətincə paltarlarını ortalığa töküb ağlayıblar...***

# SÜRÜCÜLƏR İDARƏETMƏNİ İTİRİRSƏ...

## Bir çox halda qəzalar belə texniki nasazlıqdan baş verir

**Biz tez-tez eşidirik ki, filan sürücü sükan arxasında idarəetməni itirib, avtomobil aşıb, nəticədə ölənlər və yaralananlar var. Təbii ki, qəzaların baş verməsinin bir yox, bir çox səbəbləri mövcuddur və bunlar avtotexniki ekpertizadan sonra dəqiq müəyyənləşir. Heç uzağa getməyək, əksər halda respublikanın avtomobil yollarında sürücü sükan arxasında yatır və nəticədə avtomobili aşırır. Artıq son bir neçə gündə respublikamızda bu cür qəzalar xeyli çoxalıb.**

Ümumiyyətlə, sürücü sükan arxasına əyləşərkən bütün yol hərəkəti qaydalarına əməl et-



məyə borcludur. Əgər onun yuxusu gəlirsə, avtomobili yolun kənarına çəkib yata bilər və bundan sonra sükan arxasına əyləşər. Bu cür addımı atmaqla sürücülər özlərini gözləyən təhlükədən xilas edə bilərlər. Və onu da qeyd edək ki, belə sürücülər kifayət qədərdir.

### Respublikanın avtomobil yollarında

***idarəetmənin itirilməsi heç də birmənalı olaraq sürücülərin yuxulaması ilə bağlı deyil. Burda bir nüans da var: belə ki, bir çox sürücülər nəqliyyat vasitələrini vaxtında texniki baxışdan keçirmir və nəticədə bu cür ağır qəzalar baş verir. Ağır qəzalar da bayaq dediyimiz kimi, vaxtında ən azından ildə bir dəfə nəqliyyat vasitəsinin texniki baxışdan keçirilməməsidir. Çox təəssüf ki, bu məsələyə sürücülər bir o qədər də məsuliyyətlə yanaşmır, avtomobili 1000-2000 km istismar edirlər, amma onu bir dəfə nə ustanın yanına aparır, nə də digər müayinədən keçirmək istəmirlər.***

Ona görə də bu cür avtomobillər həm texniki cəhətdən nasaz olur, həm də atmosferə normadan artıq zərərli qazlar tullayır. Elə bu nəqliyyat vasitələrinin sürücülərnin səhlənkarlığı üzündən hər gün atmosferə 100 tonlarla zərərli qazlar atılır.

Məhz buna görə də Baş Dövlər Yol Polisi İdarəsinin Avtotexniki-müfəttişlik şöbəsinin əməkdaşları davamlı olaraq respublikamızda nəqliyyat vasitələrinin texniki cəhətdən nasazlığının aradan qaldırılması üçün lazımi tədbirləri vaxtında həyata keçirir. Belə ki, avtotexniki müfəttişlik şöbəsinin əməkdaşları respublika əhəmiyyətli yollarda, eləcə də Bakı şəhərində tez-tez reydlərdə iştirak edir, yoxlamalar aparır və bu zaman nasaz avtomobillər aşkarlanır. Onu da qeyd edək ki, şöbənin əməkdaşları inzibati cəzadan çox təbliğat işinə, sürücülərin maariflənməsinə daha çox önəm yetirir. Bu məqsədlə reydlər zamanı saxlanılan sürücülərin avtobillərində texniki qüsurlar aşkar edilərkən mövcud nöqsanların qısa zamanda ara-



dan qaldırılması onlara tövsiyə edilir.

### Aydındır ki,

***bu cür təbliğat işləri və maarifləndirmə tədbirləri zaman-zaman öz bəhrəsini verir. Texniki müfəttişlik şöbəsinin rəisi, polis polkovnik-leytenantı Xalid Əzimov bizimlə söhbətində bildirdi ki, nəqliyyat vasitələrinin texniki cəhətdən saz olması baş verə biləcək qəzaların qarşısının alınmasında önəmli əhəmiyyət kəsb edir.***

Çünki texniki cəhətdən saz olan avtomobillər respublikanın avtomobil yollarında daha təhlükəsiz idarə olunur və eyni zamanda, atmosferə normadan artıq zərərli qazlar atılmır. Elə əməkdaşlarımız da məhz bu məsələləri mütəmadi olaraq sürücülərin diqqətinə çatdırırlar. Indi qış mövsümüylə əlaqədar olaraq əməkdaşlarımız keçirilən reydlərdə sürücülərə tövsiyə edir ki, soyuq hava şəraitinə uyğun şinlərdən istifadə etsinlər və digər texniki göstəricilərə önəm versinlər. Eyni zamanda, avtomobillərin işıq sistemlərinin də normal işləməsi o hadisələrdə xüsusi əhəmiyyət kəsb etməklə yanaşı, təhlükəsilik baxımından da önəmli rol oynayır.

Bizimlə söhbətində polis polkovnik-leytenantı Xalid Əzimov bir fikri də vurğuladı ki, fevralın 24-25-də ölkə ərazisində qeyri-sabit hava şəraiti olacaq. Havanın temperaturu əvvəlki vaxtlara nisbətən 7-8 dərəcə aşağı düşəcək, qar yağacaq, yollar buz bağlayacaqdır. Bax, bu cür hava şəraitində sürücülərdən xahiş edirik ki, texniki cəhətdən nasaz avtomobillərlə respublikanın avtomobil yollarına çıxmasınlar, şinlərə xüsusi önəm versinlər, əyləc sistemindən istifadə etməsinlər, dumanlı havada avtomobilin qabaq farasını yandırsınlar ki, qarşıdan gələn nəqliyyat vasitəsinin sürücüsü onu görə bisin. Sözümün canı ondan ibarətdir ki, qəzaların baş verməməsi üçün nəqliyyat vasitələrini texniki cəhətdən saz saxlamaq, ən azından ildə bir dəfə texniki baxışdan keçirmək lazımdır. Texniki baxışdan keçməyən avtomobillər radarlar vasitəsilə aşkar edilir və onlara elektron protokol yazılaraq 50 manat civarında cərimə olunurlar.

**Göründüyü kimi, nəqliyyat vasitələrinin texniki cəhətdən saz və keyfiyyətli olması həm də sürücünü qəfil baş verə biləcək qəzalardan xilas edir. Çünki bir də görürsən ki, hər hansı avtomobil yüksək sürətlə hərəkət edərkən texniki nasazlıq yaranır, təkər dəmir hissədən qırılır və nəticədə ağır qəza qaçılmaz olur. Belə halların qarşısını almaq üçün isə hər bir sürücü vaxtlı-vaxtında avtomobili texniki baxışdan keçirməlidir. Vaxtında texniki baxışdan keçirilən nəqliyyat vasitəsilə mənzil başına daha rahat və təhlükəsiz çatmaq mümkündür.**

**Faiq QİSMƏTOĞLU**

# Prezidentin 4 dəfə təltif etdiyi - Vətən Qəhrəmanı

## Xüsusi Təyinatlıların "Canavar" ləqəbli şəhid - Zabiti İsmayıl...

**...Həlmət xanım gecə yarısı hövlanak yuxudan ayılıb "İsmayıl, İsmayıl" deyə, uca səslə çağıra-çağıra qapıya sarı getdi. Onun səsinə, əvvəlcə həyat yoldaşı Məhəmməd, sonra isə qonşu otaqlarda yatan ailə üzvüləri ayıldılar. Əri ona yaxınlaşaraq "Həlmət, nə olub sənə, kim gəlir, oğlumuz İsmayılmı? Bəlkə yuxu görürsən? Sakitləş, sakitləş gecənin yarısıdır..." Sonra oğlu Elvin ona yaxınlaşaraq, anasını sakitləşdirməyə çalışdı... İsmayılın qızı, Nurgül isə nənəsinin başını sığallaya-sığallaya "Əziz nənə, nədi, atam gəlir? Nə yaxşı, nə yaxşı" - deyərək, sevincək anası Bəsti xanımın üstünə qaçdı: "ana, ana atamız gəlir... Həlmət ana isə evin çöl qapısını açıb, həyətə düşdü və darvazaya sarı getdi... Ancaq, çöl qaranlıq, heç kim yox, göydə isə ulduzlar sayrışırdı və peşman geri qayıtdı... Elə həmin gün Oğlu İsmayıl müharibəyə gedəndən sonra ananın yuxuları ərşə çəkilmiş, gözlərini azca yuman kimi də oğlunu yuxuda gördü. Özünü çox narahat hiss edirdi. Cəbhədən hər acı xəbər gələndə, sanki, o dünyaya gedib, qayıdırdı. Gecə-gündüz düşmənlərimizi lənətləyir, onları gəbərdən, oğlunu və cəsur hərbiçilərimizi qələbə müjdəsi ilə sağ-salamat qayıtmaları üçün daima dualar edirdi...**

Ailə üzvləri isə hər an Həlmət xanımı səbirli, təmkinli, inadkar olmağa çalışırdılar. Ana isə tez-tez dodaqları ilə pıçıldayaraq "Kaş mən oğlumun hərbiçi olmağına razılaşmazdım, başqa sənət seçib yanımızda olardı" deyirdi. Onda belə hallar oğlunun 2016 -cı il aprel döyüşlərində iştirak edəndə baş vermişdi - onda. Şükürlər olsun ki, İsmayıl həmin vaxt sağ-salamat dönmüşdü. Ana qəlbi isə rahatlıq tapmırdı.

### *Xüsusi Təyinatlıların bölük komandiri*

***olan, kapitan İsmayıl Məhəmməd oğlu Səmədov müharibənin ən qızğın, ön mövqelərdə döyüşsə də, valideynləri, həyat yoldaşı ilə tez-tez telefon əlaqəsi saxlayanda: "Ana, ata, Bəsti xanım, Siz darıxmayıb, hər şey yaxşıdır, balalarımdan, özünüzdən, bacım Vəsilədən muğayat olun. Müharibədi, itki də olacaq, yaralananda olacaq, narahat olmayın, düşmənin başını necə lazımdırsa əzirik, qələbə xəbəri ilə az müddətə qayıdacağıq - Sizlərin yanına..."***

Müharibə başlayan bir müddətdən sonra cəsur zabitimiz İsmayılın dayağı sevimli həyat yoldaşı, iki şirin balasını da götürüb, yaşadıqları Yaşmadakı hərbi şəhərcikdən Lahıc kəndinə dönmüşdürlər. Bəsti xanım da özünü çox-çox narahat hiss edirdi... İsmayıldan çox nigaran idi...

Bəli, söhbət həyatda Vətən sevdası ilə yaşamış, qısa ömür yolunu mənalı, qəhrəmanlıqla keçirmiş və son savaşda döyüşə-döyüşə, şəhidlik zirvəsini fəth etmiş, XTD -nin xüsusi təcrübəli zabiti İsmayıl Məhəmməd oğlu Səmədovdan gedir...

***Heyf, Sizdən - Azərbaycanımızın mərd və qəhrəman oğlu! İsmayıl Zaqarala rayonunun Lahıc kəndində 1990 -cı ilin avqust ayının 9 -da dünyaya gələndə Qarabağda savaşlar başlanmışdı. Bu cəngavər el oğlumuzun anası Həlmət xanımı və həyat yoldaşı Bəsti xanım İsmayılın şərəfli həyatını nəql edəndə, onları həyəcansız dinləmək mümkün deyildi.***

O, Lahıc kəndindəki Birinci Qarabağ Müharibəsində şəhid olmuş Qoca Qocayev adına tam orta məktəbini 2007 -ci ilə 8 -ci sinfini bitirdikdən sonra, Bakı şəhərindəki kimya - biologiya liseyində təhsilini davam etdirmişdi. Həlmət ananın söylədiyiliyev adına Ali Hərbi Məktəbinə daxil olandan sonra o, xəbər tutmuşdur. İsmayıl məktəb illərində təbiət fənlərini çox sevsədə, hərbiyə daha çox meyilli idi. Böyük Vətən Müharibəsində həlak olan Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin keçdiyi qəhrəmanlıq yolu ilə daima maraqlanardı. Onun haqqında çəkilən "Uzaq sahillərdə" filminə tez-tez baxardı. Mehdini çox sevdiyi üçün 1 yaşlı oğluna da özü onun adını qoymuşdu. İsmayıl həm də Birinci Qarabağ Savaşında şəhid olmuş igidlərimizin göstərdikləri şücaətləri ilə də daima maraqlanardı. Onların qisasını almaq istəyi ilə yaşayan İsmayıl özü könüllü olaraq hərbiçi olmağı seçmişdi. Həyatını bu peşəyə həsr etmiş oğlum, gənclərə daima örnək olmuşdu" - söyləyən şəhid anası sonra bildirdi ki, "o, təhsil aldığı 4 ildə hərbi biliklərə ürəkdən, həvəslə və böyük ümidlərlə yiyələnirdi. İsmayıl balam, 2011 -ci ildə arzusuna qovuşdu. Ali Hərbi Məktəbini bitirdikdən sonra 1 il Təlim-Tədris Məşğələlərini yüksək fəallıqla keçirib, leytenant rütbsini alıb. Mənim oğlum bu hərbi sahəni seçəndə narahat idim. "Ana nigaran qalma, mənim seçimim yanlış deyil, baxarsınız necə zabit olacağam. Siz, mənimlə fəxr edəcəksiniz, qürur duyacaqsınız və bir vətənpərvər kimi adımı qəhrəmanlar sırasında görəcəksiniz" - demişdi, oğlum. O, 1 il Mingəçevir şəhərində Müdafiə Nazirliyinin "N" sayı hərbi hissəsində qulluq göstərilib. Daha sonra isə Xüsusi Təyinatlıların 6 aylıq kursunu keçib və Yaşmada yerləşən Azərbaycan Silahlı Qüvvələrinin Xüsusi Təyinatlılarının Hərbi Hissəsində xidmətini davam etdirib. İsmayıl 2016 -cı il aprel döyüşlərində də Xüsusi Təyinatlılarının zabiti kimi iştirak edərək, böyük igidlik və şücaət göstərib. Həmin döyüşlərdə o, düşmənin onlarla canlı qüvvəsini məhv etmiş, neçə-neçə yaralımızı döyüş meydanlarınan çıxartmış və hospitallar1a yola salmışdır. "Lələ-təpə" yüksəkliyinin alınmasında göstərdiyi xidmətlərinə görə Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev İsmayıl Səmədovu birbaşa cəbhə xəttində şəxsən mükafatlandırmışdır.

***Anası deyir ki, oğlu İsmayıl hələ Ali Hərbi Məktəbdə təhsil aldığı dövrlərdən Lahıc kəndindən olan ibtidai sinif müəlliməsi Bəsti xanımı sevirdi və onunla əhdi peyman bağlamışdı. İsmayıl aprel döyüşlərindən sonra həmin xanımla möhkəm təməlli, mehriban bir ailə həyatı qurmuşdur. Bu izdivacdan onların 1 qız, 1 oğlan övladı dünyaya gəlmişdi.***

### *Taleyin qismətinə bir baxın,*

gənc olmasına baxmayaraq, bütün mürəkkəb tapşırıqları əla yerinə yetirən, hərbi təlimlərdən, sınaqlardan, hətta hərbi idman yarışlarından üzü ağ çıxan oğlum... Bəs nə oldu sənə? 2016 -cı ilin aprel döyüşlərində böyük igidlik, şücaət göstərdin. Neçə-neçə yaralını güllə "yağışı altından" çıxartdın. Onların həyatlarını xilas etdin. O, ağzın düşmənə qan uddurdun, məhv etdin... - deyə, oğlunun qəhrəmanlıq epizodlarından danışan, göz yaşları qurumayan ana - Həlmə xanımın gözlərindən gil-gilə süzülən göz yaşlarını silə-silə söhbəti davam etdirdi: "İsmayılın aprel döyüşlərində göstərdiyi şücaətə görə Ali Baş Komandan cənab İlham Əliyev şəxsən özü mükafatlandırmışdır. Birbaşa ön cəbhə xəttində oğluma Prezident tərəfindən verilən Diplom və medallar bir zabit kimi oğlumun heyət və bütün şəxsi heyət qarşısında nüfuzunu artırmışdı... Seçdiyi sənətinə, doğma Vətəni - Zaqatalaya vurğun, sakit adam idi İsmayıl, Niyyəti gələcəkdə Azərbaycan Silahlı Qüvvələrində pillə-pillə yüksələrək daha ali rütbə almaq idi...onun. Sözsüz ki, oğlum qısa ömrünün hər anını səmərəli, mənalı keçirdi... Onun hərbi fəaliyyətini təbliğ etmək, məktəblilər tərəfindən öyrənməli, mütaliə etməlidirlər... Həyatdan, əzizlərindən doymadı, 2 körpə balasını doyunca qucaqlamadı, oxşatmadı... getdi - qəhrəman kimi... əbədiyyətə qovuşdu - şəhid kimi. Hərbiçinin həyat yoldaşı olmaq hər bir qadına qismət olmur. Daima narahat olan, çox gecələr yatmayan, nigaran qalan, hətta hərbi sirrləri saxlayanlardan biri də - məhz hərbiçinin həyat yoldaşlarıdırlar. Bəsti xanım, ailə həyatı qurduğu vaxtdan İsmayılın dayağı, sirdaşı, dostu oldu. Uşaqlarının, onun qayğısına qaldı. Onun qüruruna, dəyanətliyinə, hərbiçi həyatını mürəkkəb yaşamasına dözdü - Bəsti xanım. Onun mərdi-mərdliyinə valeh ol-



dum... Çünki, bu zabit ərinin yoxluğuna inanmayan - Bəsti xanım İsmayılın keçdiyi həyat yolunu vərəqlədikcə... Sanki, insan xəyallara dalırdı...: "İsmayılın daha yadda qalan hərbi uğurları: 2018 -ci il Türkiyə Respublikasında, dünyanın 25 ölkəsinin seçilmiş hərbiçilərin keçdiyi Efess - hərbi təlim yarışlarında onun rəhbərlik etdiyi bölük yüksək məharət və peşəkarlıq göstərərək, qalib oldu. Qazanılan bu uğura görə ona növbəsiz kapitan rütbəsi verildi. Gürcüstan dövlətində keçirilən beynəlxalq hərbi-təlim yarışlarında onun çəkdiyi əziyyət öz bəhrəsini verdi. İsmayılın rəhbərlik etdiyi dəstə birinci yeri tutdu. Lakin, İsmayıl bu təlimlərdən, uğurlardan danışmazdı...

Nəhayət, Həlmət ana yuxusunun "Çin" olduğu - O gecə... Yəni, sentyabr ayının 27 -si 2020 -ci il. Xüsusi Təyinatlı Qüvvələrin ən bacarıqlı zabiti İsmayıl Səmədovun bir komandir kimi qorxmazlığı, cəsarəti 44 günlük Vətən Müharibəsində tam şəkildə özünü göstərdi. Onlar müharibənin ilk günündən Murov dağından başladı. Xüsusi Təyinatlılar, öndə İsmayıl olmaqla hər yüksəklik, hər kənd, hər mövqe uğrunda düşmənə elə zərbələr endirirdilər ki, düşmən onların adlarını eşidəndə qorxuya, təlaşa düşür, lərzəyə düşərək geri çəkilirdilər.

### *İkinci hissə: Düşmənə qan udduran döyüşlər*

***İsmayıl Səmədovun dəstəsi Murov dağından sonra Cəbrayıl, Füzuli istiqamətlərində gedən döyüşlərdə igidlik göstərərək, yurd yerlərimizin azad olunmasında fəal iştirak edirdilər. Kapitan təcrübəli zabit kimi döyüşlərdə tabeçiliyində olan hərbiçiləri irəliyə aparır, döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsi, sonda düşmən mövqelərinin, istehkamlarının, silah-sursatlarının, döyüş texnikalarının və yüzlərlə canlı qüvvələrinin məhv olunması ilə nəticələnirdi...***

### *Oktyabr ayının 4-dən başlayaraq,*

Cəbrayıl, Füzuli, Hadrut istiqamətlərində şiddətli döyüşlər getdi. Cəsur komandirimizin bölüyü, yəni biz, oktyabr ayının 3 -dən 4 -ə keçən gecə Cəbrayıl istiqamətində düşmənin televiza qülləsini qoruyan bir tankını və 8 nəfərlik canlı qüvvəsini məhv etdik. Oktyabr ayının 7 -də komandirimiz İsmayıl Səmədovun əmrinə əsasən, gecə saatlarında Füzuli-Hadrut yolunu düşməndən təmizlədik. Bizim bölüyümüzün nəzarətçi qrupu ərazidə düşmən snayperlərin olduğunu müəyyənləşdirdi. Əvvəlcə bu snayperlərdən 3-ünü və sonra isə arxadan bizə atəş açan düşmənləri məhv etdik. Qeyd edim ki, biz növbəti tapşırığı oktyabr ayının 10 -da Füzuli rayonu Gorazıl kəndinin və Horadiz - Füzuli - Hadrut yolunu tutmağı tapşırığını aldıq.

***Bu əməliyyat zamanı biz, gərgin anlar keçirdik. Əvvəlcə düşmənin 10 -a yaxın texnikasını zərərsizləşdirərək, yolu təmizlədik və həmin kəndə daxil olduq. Ertəsi gün, yəni, oktyabr ayının 11 -də Hadrut qəsəbəsinin azad olunması uğrunda düşmənlə bizim taborumuzun daha ağır, şiddətli döyüşləri oldu. Həmin döyüşdə xain ermənilər bizə qarşı, daha çox saylı canlı qüvvəi ilə hücum etdilər. Düşmənin çoxlu sayda texnikasını, onların döyüşçülərini darmadağın etməyimizə baxmayaraq, biz tərəfdən xeyli itki verdik. Həmin döyüşdə çox təəssüflər olsun ki, bizim fəxrimiz, Silahlı Qüvvələrimizin dəyərli, təcrübəli zabitimiz, bölük komandiri, Xüsusi Təyinatlıların öncülü, kapitan İsmayıl Səmədov da namərd düşmənin snayperlə açdığı atəş nəticəsində qəhrəmancasına həlak oldu. Çox, çox heyf ondan, o, bizim Xüsusi Təyinatlıların gələcəyi, vüqarı idi... Allah onun əzizlərini, balalarını qorusun! İsmayıl, heç təəssüflənmə, o dığalardan sənin qisasını aldıq, onlara yerlərini göstərdik... Qələbə qazandıq... Bütün şəhidlərimizin qisasını almışıq - cənab Kapitan..! Rahat uyu, əziz qardaşımız, əsil qəhrəmanımız."***

İsmayılın oktyabrın 11 -dəki son döyüşündə onunla birlikdə daha 3 nəfər zabitimiz şəhid olub. Ümumiyyətlə yüksək təcrübəli Xüsusi Təyinatlılardan ibarət 133 nəfərdən şəxsi heyətdən cəmi 63 nəfər sağ qaldı. Onların da əksəriyyəti ağır yaralanaraq, qazi oldular... Gizir Cavad Babayev kimi... Hadrut uğrunda gedən döyüşlərdə İsmayıl Səmədovun dəstəsi 80 nəfər azğın düşməni və müxtəlif növ texnikalarını da zərərsizləşdirdik. Bizim səyimiz nəticəsində Hadrut füşməndən azad olundu...

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 19.12.2020 -ci il tarixli Srəncamı ilə Vətənimizin ərazi bütövlüyü, torpaqlarımızın düşmən işğalından azad edilməsi uğrunda gedən döyüşlərdə çoxlu sayda düşmən və hərbi sursat texnikasını məhv etdiyinə görə, ikidlik və mərdlik nümayiş etdirdiyinə görə İsmayıla "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adı verildi.

İsmayıl Səmədov döyüş əməliyyatlarına qatılaraq, döyüş tapşırıqlarını yüksək səviyyədə şərəflə və fədakarlıqla yerinə yetirdiyinə görə isə ölkə başçısının digər sərəncamları ilə "Vətən uğrunda" və "Cəbrayılın azadlığı uğrunda" medalları ilə təltif olunub... Bu, təltiflərə qədər, hərbi xidməti dövründə o, "Nümunəvi və Qüsursuz xidmətlərinə görə" III dərəcəli, "Hərbi xidmətdə fərqlənməyə görə", "Qüsursuz xidmətə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubileyi medalları, fəxri fərmanlarla və qiymətli hədiyyələrlə təltif olunmuşdu - İsmayıl...

**...Bu günlər uca şəhidlik zirvəsinə ucalanların adına qəhrəmanlıq dastanları, kitablar yazılacaq, kinolar çəkiləcək və mahnılar yazılacaq - İsmayıl. Sizə ən böyük mükafatı Xalqımız verir. Ruhun şad olsun, Bizim xilaskarımız!**

**Elman Maliyev**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# VƏTƏN SİZƏ OĞUL DEDİ

*Gizir Novruzov Amin*



***Gizir Novruzov Amin Taciddin oğlu 16.08.1996-cı ildə Balakən rayonu Qullar kəndində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 03.11.2020-ci ildə Zəngilan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.***

*Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub*



***Hüseynov Əsgər Vaqif oğlu 23.12.1998-cü ildə Balakən rayonu Kortala kəndində anadan olub. Vətən müharibəsi başlanan zaman səfərbərlik xidməti tərəfindən müharibəyə cəlb olunan Əsgər Hüseynov 26.10.2020-ci ildə Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.***

*MAXE Osmanov Məhəmməd*



***MAXE Osmanov Məhəmməd Seymur oğlu 27.10.1994-cü ildə Ağdaş rayonu Ərəbocağı kəndində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 04.10.2020-ci ildə Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.***

***Şəhidimiz ailəli idi. Şəbnəm adlı qızı və yaxın aylarda dünyaya gələcək övladı Vətənə əmanətdir.***

*Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub*



***Gizir Əlisoltanov Vahid Tahir oğlu 10.11.1994-cü ildə Balakən rayonu Gərəkli kəndində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 25.10.2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.***

*Vətən müharibəsinin qəhrəman şəhidi İslam Eyvazov*

***Eyvazov İslam Həsən oğlu 07.04.1999-cu ildə Naxçıvan şəhərində anadan olmuşdur. 2006-cı ildə Naxçıvan şəhər 15 saylı orta məktəbə daxil olmuşdur. 2015-ci ildə isə həmin məktəbin 9-cu sinfini bitirmişdir. Təhsil müddətində həm də 7 il Ərtoğrul Cavid adına musiqi məktəbinin fortopiano ixtisası üzrə dərs almışdır.***



***9-cu sinfi bitirdikdən sonra Naçıvan şəhər hərbi liseyinə sənəd vermiş, lakin qəbul olunmamışdır. 2017-ci ildə həqiqi hərbi xidmətə yola düşmüşdür. Həqiqi hərbi xidməti bitirdikdən sonra 2020-ci ildə yenidən hərb sahəsinə qayıdır, bu dəfə MAXE HQ əsgər kimi. N saylı hərbi hissədə kəşfiyyatçı kimi xidmət göstərməyə başlayır. Kəşfiyyatçı kimi xidmətə başlayan İslam Eyvazov 2 ay sonra vətənini qorumaq üçün ön cəbhəyə yola salınır. Cəbrayıl, Füzuli, Xocavənd istiqamətində ön cəbhədə vuruşur. 09.11.2020-ci ildə Xocavənddə şəhid olur.19 Noyabr 2020-ci ildə Qaraxanbəyli kənd məzarlığında dəfn olunub.***

***Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda" medalı, Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif olunub.***

*Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub*



***Həsənov Elvin Əlizadə oğlu 07.11.1994-cü ildə Ağdaş rayonu Mürsəl kəndində anadan olub. Vətən müharibəsi başlanan zaman səfərbərlik xidməti tərəfindən döyüşlərə yollanan Elvin 08.11.2020-ci il tarixdə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.***

*Yüzbaşıyev Cavid*



***Yüzbaşıyev Cavid Cavanşir oğlu 20.07.1995-ci ildə Balakən rayonu Hənifə kəndində anadan olub. Vətən müharibəsi başlanan zaman səfərbərlik ximəti tərəfindən müharibəyə cəlb olunan Nəcməddin Suqovuşan istiqamətində gedən döyüşlərdə igidlik və mərdlik göstərərək qəhrəmancasına Şəhid olub.***

## KƏND MÜƏLLİMİ

# "Nəsibə Zeynalovaya, Afaq Başirqızına bənzədirdilər"

***"Kənd müəllimi"nın növbəti qonağı Beyləqan rayonunun Seymur Abbasov adına Çəmənli kənd tam orta məktəbinin tarix müəllimi Pərvanə Şıxəliyevadır.***

**-Pedaqoji fəaliyyətə sizi hansı amil gətirdi? Bəzən məcburiyyətdən, başqa iş olmadığından və ya ailənin basqısı ilə müəllim sənətini seçən qızlar görürük.**

-Uşaq yaşlarımda Aztv də "Qvadelupa" serialını verirdilər. Əvvəlcə aparıcı elan edirdi ki, hörmətli aparıcılar indi isə sizi "Qvadelupa" serialına baxmağa dəvət edirik. Mən də həmin aparıcıdan ilhamlanıb aparıcı olmaq istəyirdim, onu yamsılayırdım, hamı gülürdü.

İllər keçdi məktəbə getdim. Kitab oxumağa, xüsusən, ədəbiyyata, bədii kitablara böyük marağım vardı. Ədəbiyyat müəllimim(Sərfinaz Ağayeva) dərsdə əsərləri daha çox mənə oxutdururdu, mən də hər obrazı özü kimi səsləndirməyə çalışırdım.

9-cu sinifdə oxuyurdum. Məktəblilərdən ibarət balaca bir yumoristik səhnəcik hazırlamaq lazım idi. Müəllim birinə məni seçdi. Avam, cahil kəndli bir qadını canlandırmalı idim. Bir günə məşq elədik, səhəri günü səhnəciyi göstərdik. Çox uğurlu alınmışdı. Kənd camaatından da yığılıb baxmağa gələnlər vardı. Mən rolu necə aparmışdım özümdə bilməmişdim həyəcandan. Sonradan videoya baxanda gördüm ki, çoxlu alqışlanıbmışam.

Bir müddətdən sonra rayonda "Teatr müsabiqəsi" elan olundu. Müəllimim məni xəlvət hazırlaşdırıb evdən xəbərsiz müsabiqəyə apardı. Dedi mənə inan. O, kənddə müəllim kimi etibarlı, nüfuzlu insan idi. Hətta ən geri düşüncəli adam da ona güvənir, fikirləri ilə hesablaşmalı olurdu.

Müsabiqəyə qatıldım.Çıxışım çox bəyənilmişdi. Təriflər yağırdı ünvanıma. İkinci tura keçdim.

Valideynlərim rayondakı müsabiqə barədə biləndə ikinci tura getməyimə icazə vermədilər.

Qaliblər elan olundu. Münsiflərdən biri olan müəllim sonradan müəllimimə demişdi ki, gözümüz qapıda qalmışdı, niyə gəlmədiniz? 1-ci yeri o qız üçün nəzərdə tutmuşduq...

İfamı Nəsibə Zeynalovaya, Afaq Bəşirqızınınkına bənzədirdilər. Təriflər sevindirsə də ovundurmurdu, çünki evə gedəndə narazı üzlər görürdüm.

Məktəbi bitirəndə mənə qalan 2 Fəxri Fərman və xatirəyə dönən o günlər oldu.

Ali məktəbə qəbul oldum, peşə seçimində valideynlərim fikrimi soruşdular, mən də aktrisa olmaq istəyimi bildirdim. Qətiyyətlə etiraz etdilər. Qarşıma bir seçim qoyuldu, o da müəllimlik. İxtisasın fərqi yox idi, əsas odur ki, müəllimlik olsun.

Mən də ani bir qərarla tarix ixtisasını seçdim.

### *Ciddiyə almırdım işimi, elə bilirdim bu müvəqqətidir, müəllim olmayacam*

**-Hətta tələbə olandan müəllim kimi çalışırsınız.**

-Bəli, 3-cü kursdan etibarən, ilk dərsim də yadımda idi. Direktor qəfil zəng vurdu ki, bəs başqa bir tarix müəllimini əvəz etməlisən. Məktəbə gəldim axırıncı saat idi. Girdim sinifə həyəcanlı idim, ancaq bu çox çəkmədi. Şagirdlər elə cani dildən " müəllim", " müəllim" deyib dərsdən suallar verdilər ki, başladım cavablamağa, mənə çox diqqətlə qulaq asırdılar. Onlar üçün yeni-



lik idim. Dərs bitdi. Gündəliyə qiymət də yazdım. Şagirdim dedi ki, müəllim ilk işinizdi yaxşı qiymət yazın, mən də səhv eləmirəmsə 4 yazdım.

İşləməyimə baxmayaraq, ciddiyə almırdım işimi, elə bilirdim bu müvəqqətidir, müəllim olmayacam. Ancaq universitetətə gələndə elə bil ilk dəfə idi gəlirdim, tələbələrə, qrup yoldaşlarıma, müəllimlərimə diqqət edirdim, ünsiyyətinə, necə danışırlar, dururlar və s.

Madam ki, onlara görə maaş alırsan, gərək işini vicdanla yerinə yetirəsən

**- Özünüz də tələbə və tələbələrinizə dərs keçirsiniz. Necə hiss idi?**

- Əslində könülsüz idim, müəllimlik etmək arzum olmamışdı, axı. Elə qismət oldu ki, ilk şagirdlərimə də son zənglərindəki çıxışlarına kömək etməli oldum. Məni müəllimlikdən daha çox bu sevindirirdi.

…Qayıtdım kəndə. Sentyabrda dərslər açıldı. Mənə 11-ci sinif verildi. Uşaqlarla dil tapmağa çətinlik çəkirdim. Aqressiv, kobud danışıqlı idim. Həmin il üzücü, boz idi mənimçün. Çoxlu dua edirdim ki. Allahım mənimçün nə yaxşıdı sən bilirsən. Məni öhdəsindən gələ biləcəyim daha çox faydalı olacağım işə yönəlt.Növbəti il 5-ci sinif verildi. Ilk vaxtlarda onlarla da alınmırdı. Ancaq bir gün hər şey dəyişdi.

Sual-cavab edirdim, uşağın biri sualı ətraflı cavabladı. Mən təəccübləndim ki, sən bunları hardan bilirsən kitabda bu məlumat yoxdur axı. O da qayıtdı ki, müəllim, siz demişdiniz də. Bilmirəm, nədənsə bu cavab mənə çox təsir etdi. Hiss elədim ki, onlara lazımam.

Öz özümə dedim ki, indi sən müəllim olmaq istəmirsən buna uşaq neyləsin? Madam ki, onlara görə maaş alırsan, gərək işini vicdanla yerinə yetirəsən. Hikkəmi içimdə boğdum. Başladım onları əzizləməyə, nazını çəkməyə. Beləcə şagirdlərlə aramda qırılmaz bağ quruldu. Artıq məni görəndə sevinib, qabağıma qaçırdılar, boynumu qucaqlayıb üzümdən öpürdülər. Onlarla vaxt xoş keçirdi.

Arada rayon mərkəzinə aparırdım onları. Fikirləşirdim ki, kənddə haranı görürlər e, aparım heç olmasa muzey, sərgi kimi mədəni şeylər görsünlər, dünya görüşlərinə təsir edər. Müəllimlik artıq sevgiyə dönmüşdü. Siniflərarası bilik yarışmaları təşkil edirdim.

Bir dəfə qonşu kəndin müəllimilə əlaqə saxlayıb onları məktəbimizə yarışa dəvət etdim. Gəldilər. Şagirdlərim qalib gəldi.

### *Diqqətlərin ən çox çəkəni isə subay olmağım oldu*

**- Daha sonra həmin məktəbi və kəndi dəyişdiniz. Buna nə səbəb oldu?**

-Dərsin azlığı, maddi çətinliklər məni sıxırdı...Atam məni böyük çətinliklərlə oxutmuşdu. Oxuyub işləyib ailəmə kömək ola bilməməyim məni çox sıxırdı.

İçimdəki səs bu məktəbdən getməlisən deyirdi. 4 il olmuşdu artıq. Yerdəyişmədə iştirak etdim. İndi işlədiyim məktəbə düşdüm. Müəllim həmkarlarım, şagirdlərim bu xəbərə üzüldülər. Getməyimi istəmirdilər. Ancaq mən hiss edirdim ki, getməliyəm.

Yeni iş yerimdə məni maraqla qarşıladılar. Əvvəlcə elə bilirdilər Bakıdan gəlmişəm. 1-ci ilimdi. Diqqətlərin ən çox çəkəni isə subay olmağım oldu. Yaşıma görə. Təsəvvürlərinə gətirmirdilər ki, bir qız 25 yaşa qədər necə subay qala bilər. Kəndə təzə gələn müəllimə elçi düşmək adətindən kənarda qalmadım, oğlanın anası dedi ki, mənim çoxdankı arzum olub oğluma yaşı keçmiş qız alım, biri də deyirdi eybi yox mən onu elə də qəbul edirəm.

Əvvəlki kimi yeni məktəbdə də bilik yarışmaları, ekskursiyalar təşkil edirdim. Təzə tikilmiş məktəb projektor da vardı. Bu da mənə yeni ideyalar verirdi. Direktorumuz mənə bu kimi işlərdə dəstək olurdu(elə indi də) . Şagirdlərim həssas yerimə dönmüşdü. Yay tətilini Bakıda keçirib, şəxsi inkişaf, peşəmlə əlaqəli kurslara, seminarlara getdim. Yeni tədris ilində öyrəndiklərim onlarla münasibətimə isti rənglər qatmışdı.Və bu indiyədək davam edir. Şagirdlərim mənim üçün bir başqa dünyadı, ayrıca dəyərdi...

**-Distant təhsilin öhdəsindən gələ bildinizmi?**

-Hər şey elə qəfil oldu ki. Heç birimiz hazır deyildik. Həm psixoloji, həm texniki. Mən əvvəlcə Zoomla keçməyə başladım. Ancaq çox çətinlik yaşadıq. Çünki tətbiqetməni mənimsəyə bilmirdi uşaqlar.

Uşaq dünyası hər zaman maraqlıdı. Ən çox zəif oxuyanlar əl ayağa düşmüşdülər ki, dərsdən geri qalırıq.

Sonra Vətən müharibəsi başladı. İnternet kəsildi. Bir müddət ara verdik. Şükürlər olsun ki, qalib gəldik.

Yenidən distant təhsilə qayıtdıq. Düzü, öhdəsindən gəldiyimi düşünmürəm.

**-Məktəblər yenidən açıldı. Şagirdlərdə karantinin yaratdığı geriləmələr var?**

-Bəli, çox ciddi. Əməlli başlı geriləmə, hətta ən yaxşı oxuyanda da. Elə bil keyləşiblər.

**- Bir müəllim üçün onlayn dərslər rahatdır, ya canlı?**

-Rahatlıq baxımından təbii ki, distant. Elə sizinlə görüşdən əvvəl distant dərsimi keçib gəlmişdim. Bütün hallarda canlı ünsiyyət daha zövqlüdür, məncə.

**-Son zamanlar müəllim sənətini seçənlər də artıb. əvvəllər kəndlərə göndərməyə müəllim tapılmırdı. Indisə hər il 50mindən çox insan müəllim olmaq çün imtahan verir. Sizcə nədən qaynaqlanır bu?**

- Səbəblər müxtəlif ola bilər. Ucqar ərazilərdə işləyən müəllimlərin maddi təminatı yüksək olur, pandemiya və müharibə dövründə məktəblərin fəaliyyəti dayansa da müəllimlər maaş aldı. Bu peşəni yaxşı təhsil görmüş adamlar seçsələrdi, nə gözəl olardı.

**Söhbətləşdi:**
**Emin Piri**

# MUĞAM İFASINDAN DOYMADIQ



**Milli muğam sənətimizin inkişafında böyük xidmətlər göstərərək xalqımızın dərin məhəbbətini qazanmış, muğam ifaçılarından biri də Mirməmməd Mircavadovdur.**

Mirməmməd muğam sənətimizi dərindən bilən, özünəməxsus ifası ilə seçilən xanəndələrdən idi. A.Zeynallı adına orta ixtisas musiqi texnikumunda ustad sənətkar, Xalq artisti, muğam bilicisi Hacı Ağaxan Abdullayevdən dərs almışdır. İstər televiziya ekranlarında, istərsə də el şənliklərində muğam ifa edərkən müəlliminin muğamda işlətdiyi zəngulələri edərdi ki, bu da dinləyicilər tərəfindən rəğbətlə qarşılanardı. Onun yeni-yeni qəzəllərə müraciət etməsi heç də təsadüfi deyildir. Çünki Mirməmməd mütaliəni çox sevirdi. O, bütün qəzəlxan şairlərin qəzəllərini demək olar ki, dərindən bilirdi, bəzən elə olurdu ki, hər qəzəlin təhlilini də verərdi. O, Füzulinin, Nəsiminin, Xəqaninin, Ə.Vahidin, Gülbudağın, Hacı Mailin və s. qəzəllərini dərindən bilir, muğamda istifadə edərdi.

Ümumiyyətlə, Azərbaycan muğam sənəti sonsuz, tükənməyən bir dəryadır. Muğam xalqın həyatına, canına-qanına dərindən daxil olmuş, tükənməz izlər buraxmışdır. Azərbaycan muğamının həm milli mədəniyyətimiz, həm də bütün bəşər mədəniyyəti üçün dəyəri 2003-cü ildə YUNESKO-nun onu "bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şedevri" qəbul etməsi ilə bir daha təsdiqlənir.

Muğam bilicisi və "ustad sənətkar" kimi onun da adı "Muğam ensiklopediyası" kitabına daxil edilmişdir.

Mirməmməd öz sənətinə qiymət qoyan bir insan idi. Onunla ünsiyyətdə olmaq insanı yormazdı, şirin və maraqlı söhbətləri ilə sevilərdi. Həmişə çalışardı ki, kimlərinsə ona etibar etdiyi, etimad göstərdiyi bütün işlərin öhdəsindən uğurla gəlsin və sənəti, şəxsiyyəti ilə özünün nəyə qadir olduğunu göstərsin.

Mən Mirməmmədlə bir çox tədbirlərdə olmuşam. O, çox səmimi, təmannasız dost idi.

Mirməmməd kimi dostu itirmək mənim üçün, eləcə də onu tanıyanlar üçün çox ağırdır.

Mirməmməd həm də "Cabir Novruz" Mədəniyyət Fondunun fəal üzvlərindən biri idi. Fond tərəfindən keçirilən ən mötəbər tədbirlərdə onun iflası xüsusilə sevilərdi.

"Cabir Novruz" Mədəniyyət Fondunun prezidenti, professor Cavanşir Qurbanovun bilavasitə rəhbərliyilə təşkil olunan tədbirlərdə musiqişünas Abbasqulu Nəcəfzadənin rəhbərliyilə trioda çıxış edən Mirməmmədin ifa etdiyi muğam və mahnılar alqışlarla qarşılanırdı.

Mirməmməd çox təəssüf ki, aramızdan tez getdi. Onun ölümü, onun yoxluğu Azərbaycan muğam sənəti üçün böyük itkidir. Hər dəfə muğam sənətindən, qəzəldən söhbət düşəndə Mirməmməd yada düşəcək, onun həzin ifası bizi xəyallara aparacaq.

**Ustad sənətkarlar cismən ölsələr də, özlərinin böyük sənətləri ilə həmişə xalqın qəlbində yaşayır, insanlara daim ruhi qida, mənəvi zövq verirlər. Mirməmməd də belə muğam sənətkarlarından biri idi.**

**Allah ona rəhmət eləsin, ruhu şad olsun.**

**Ruhuna dərin ehtiramla,**

**Elşad Qasımov**
**"Cabir Novruz" Mədəniyyət Fondu mətbuat xidmətinin rəhbəri, AJB-nin üzvü**

# ASİM YADİGAR ŞEİRLƏRİNDƏ QABARIQ GÖRÜNƏN VƏTƏN LİRİKASI

**Bütün təyinlərdən əvvəl şair kimi xarakterizə etdiyimiz Asim Yadigar çoxşaxəli yaradıcılıq istiqamətində öz fəaliyyətini uğurla və məhsuldarlıqla davam etdirən qələm sahibidir. Şairliyindən ictimai fəaliyyətinə kimi, ailə başçısından Birlik rəhbərliyinə kimi və bu şəkildə bir çox paralellikləri göstərə biləcəyimiz Asim Yadigar hansı sahədə fəaliyyət göstərməsindən asılı olmayaraq vicdanla, milli təəssübkeşliklə, vətəndaş mövqeyi ilə daim seçilən söz adamıdır. Bütün bunların fonunda isə - yəni onun çoxşaxəli yaradıcılığında bir istiqamət daha qabarıq şəkildə özünü büruzə verir. Bu da Asim müəllimin şairliyidir.**



## *Şair kimi yaradıcılığında*

lirik poeziya poemalarındakı epik şeirlə, dramaturgiyasındakı mənzum dramla, mətbuatdakı bədii publisistikası ilə müqayisədə bir neçə addım öndədir. Qısacası, cəmiyyət üçün Asim Yadigar lirik poeziyası ilə daha çox tanıdığımız və tanınan şair obrazındadır.

***Akademik İsa Həbibbəylinin Asim Yadigar haqqındakı portret yazısının adının "Vətəndaşlıq mövqeyi, plyus lirizm" adalandırılması da xarakterin bir sərlövhədə ümumiləşdirilməsi baxımından olduqca uğurlu səslənir. İsa müəllim çox haqlı olaraq yazır: "Azərbaycan şeirinin orta nəslinin tanınmış nümayəndələrindən biri olan Asim Yadigarın da şeirlərində mümkün olduqca vətəndaşlıq ruhu, ictimai və milli ideallların poetik bədii vasitələrlə obrazlı şəkildə ifadə olunmasına ciddi fikir verilir. Daha doğrusu, Asim Yadigar şeirlərinin ictimai məzmununu lirikanın dili ilə ifadə etməyi əsas məqsəd kimi qəbul edib, yoluna davam edir".***

Şairin son şeirlər kitabı olan "O mənim ürəyim deyil..." toplusunda da məhz yuxarıda qeyd olunan məqamların real ifadəsini görmək mümkündür. 460 səhifəlik kitabdakı şeirlərin böyük əksəriyyəti şairin son illərdəki yaradıcılığının nəticəsidir.

"O mənim ürəyim deyil..." bir neçə bölməyə ayrılıb: "Vətən sevgisi", "Vur, komandir, vur", "Türkün gücü", "Bu yol Təbriz yoludur", "Mənim ürəyimlə oynama", "Poemalar" və "Mənzum dramlar".

Kitabdakı bölmələrin adına diqqət etdinizsə, bir çoxu sırf Vətənə sevgidən, yurda bağlılıqdan, doğma torpaqlara məhəbbətdən qaynaqlanaraq seçilmiş adlardır. Həmin başlıqlar altında təqdim olunan şeirlərin ümumi ovqatı, əhatə etdiyi lirik duyğular da məhz millilikllə, vətən sevdasıyla yoğrulmuş, şair qəlbindən yola çıxaraq oxucu könlündə məkan salmışdır.

Asim müəllim vətənpərvərlik lirikasında da, siyasi lirikasında da, ictimai lirikasında da, məhəbbət lirikasında da duyğularının səmiyyətini hiss etdirə bilən, hətta belə demək mümkündürsə, buna inandırma gərəyi olmadan oxucunun inandığı sadəlikdə öz fikirlərini dilə gətirən şairdir. Ən maraqlısı da odur ki, yazdığı şeirlər oxucu yaddaşında bir neçə təkrardan sonra asanlıqla qala bilir. Tanıyanlar da yaxşı bilir ki, Asim müəllimin özünün, mübaliğəsiz deyim ki, fenomenal yaddaşı var.

## *Son kitabını oxuduqca*

bunun sirri az da olsa mənə bəyan oldu. Asim müəllim şeirini əvvəlcə yaddaşına yazır, sonra kağıza, yaxud bilgisayara. Ona görə yaddaşına yazır deyirəm ki, bu şeirlər yol gedə-gedə yazılsa belə yadda asanlıqla saxlayacaq bir bədii çəkiyə və axıcı üsluba malikdir. Bu mənada professor Hüseyn Həşimlinin bir fikrini xatırlatmaq istəyirəm: "Asim müəllim mövzunun, ovqatın mahiyyətinə uyğun janrlardan, poetik baxımdan, bədii təsvir və ifadə vasitələrindən yerli-yerində istifadə edir. Yəni şair daima çalışır ki, qələmindən çıxmış bədii nümunələrdə məzmunla formanın üzvi vəhdətinə, bir-birini tamamlamasına nail olsun.

Hətta onun bir çox əsərlərini oxuyandan sonra düşünürsən ki, həmin poetik mətnin əsasında dayanan duyğu və düşüncələr başqa bir formada üzə çıxa bilməzdi, məhz müraciət olunan bədii biçim ən düzgün vasitədir". Məsələn:

*Azadlıq yollarında ölüm görüb, qan görüb,*
*Sapları özümüzdən çox nankor insan görüb.*
*Yüz yol sınağa düşüb, min yol imtahan görüb,*
*Yenə üzüağ çıxıb, hər sınaqdan üzüağ,*
*"Azərbaycan dünyaya Günəş kimi doğacaq"!*

Yaxud, başqa bir şeirini nümunə çəkmək istəyirəm. Ulu öndər Heydər Əliyev haqqında çox şeirlər yazılıb. Bədii obrazı bir çox şairlərin şeirlərində özünü göstərib. Asim müəllimin ümummilli liderə həsr etdiyi şeir isə həm mövzunun fərqliliyi, həm yanaşmanın fərqliliyi, həmçinin qeyd etdiyimiz axıcılığı sayəsində rahatca yadda qalması ilə seçilir. "Bir nurlu heykəl yarat" adlanır şeir. Ulu öndərə yazılan şeirin heykəltaraşa müraciətlə başlaması qəribəlik hissi oyatsa da şeirin məzmunu sonda şairə qibtə etməyə kifayət edir:

*Heykəltaraş qardaşım, qəlbinin atəşinə*
*O insanın qəlbinin alovundan alov qat.*
*O insanın adına, əməlinə yaraşan*
*Əzəmətli, möhtəşəm bir nurlu heykəl yarat.*

*Bilmirəm qranitdən, tuncdan, qızıldan olsun...*
*Nədən yaradırsansa ürəkdən, candan yarat.*
*Can ver daşa, qızıla, yorulmasın əllərin,*
*Sabahıma boylanan bir nurlu insan yarat.*

Bu axıcılığı vətənpərvərlik lirikası ilə qələmə alınmış "Azərbaycanım mənim", "Vətən sevgisi", "Bir bayraq altında", "Azərbaycan bayrağı", "Azərbaycan tarix yazır", "Naxçıvan balladası", "Dünyanın bəzəyi", "Duzdağ" və onlarla bu ruhda yazılmış şeirlərdə müşahidə etmək o qədər də çətin deyil.

Asim Yadigarın "Vur, komandir, vur" bölməsində ümumiləşdirdiyi şeirləri isə son aylarımızın zəfər sevincindən doğan həyəcanlarımızın poetik ifadəsi ilə doludur.

"Hücum əmri ver mənə", "Döyüş əmri ver mənə", "Vur, komandir, vur", "Səngərim mənim", "Azərbaycan əsgəri", "Döyüş havaları çaldırmalıyıq", "Qələbə bayramı", "Cənnət Qarabağımız yenə cənnət olacaq" və digər şeirlərin hər biri bu gün efirlərdə klibləşən, radio dalğalarında milli pafosla səsləndirilən, mətbuatda milli ruhun təbliği məqsədiylə çap olunan şeirlər qədər mənəvi gücə malikdir.

*Qana-qandır bax bu gün mənim andım, amanım,*
*Qanımı şərbət kimi içsin vətən torpağı.*
*Bir milyon oğlu-qızı şəhid olsa da belə*
*Dalğalansın Şuşada Azərbaycan bayrağı.*
*Qələbədir son andım - odur dinim, imanım,*
*Döyüş əmri ver mənə, Ali Baş Komandanım!*

## *Asim Yadigarın savaşa səsləyən şeirləri*

***"döyüş havaları çaldırır", "milləti ayağa qaldırır", "Atilla, Mete gücünü üzə çıxarır", "Azadlıq uğrunda döyüşə qalxır". Bu şeirlərdə həm də "Bayramlara tac olan bir bayram - Qələbə, Zəfər bayramı" arzusu var, inamı, əminliyi var idi ki, bu arzu artıq gerçəkləşdi.***

Şairin son kitabında "Türkün gücü", "Bu yol Təbriz yoludur" bölmələrinin adından da göründüyü kimi müəllifin bəhs etdiyimiz mövzularla yaxınlıq təşkil edən tarixi milli kökə bağlılıqdan, bizim üçün doğmalığını hər zaman qoruyan yurdlara sevgidən doğan şeirlər cəmləşibdir. Bu şeirlərin ümumi abu-havasını bircə bəndlə də ifadə etmək olar:

*Dünya türkə qənim yox, dost olsa, qardaş olsa,*
*Ağrı-acılarına, dərdinə sirdaş olsa,*
*İnsanların qəlbinə sevgi, məhəbbət dolsa,*
*Türk bütün insanlığa açar xoş üzlə qucaq,*
*Dünyanı dərddən, qandan, ancaq türk qurtaracaq.*

Kitabın "Mənim ürəyimlə oynama" bölməsi isə məhəbbət lirikasıyla qələmə alınmış sevgi şeirlərindən ibarətdir. Amma mən bu barədə çox da ətraflı danışmaq istəmirəm. O mənada yox ki, bu şeirlər digər




şeirlərlə müqayisədə geridə qalır. Qətiyyən.

Sadəcə günümüzün aktual hadisələri fonunda sevgi şeirləri oxumağımızı hələlik sonraya saxlayaq.

Döyüşlərdən qəhrəman kimi qayıdan qazilərimizə qız seçərkən bu şeirlər də karımıza çatacaq.

Onu da qeyd edim ki, bu bölmədə Asim müəllimin təxmisləri, rübailəri, qəzəlləri də özünə yer tapıb.

Kitabda həmçinin bir neçə poema və 2 mənzum dram da oxuculara təqdim olunub ki, bu nümunələrin hər birində Asim müəllimin yenilik axtarışları başdan-sonacan uğurla özünü göstərir.

**Mən Asim Yadigarı, tələbəlik illərimdən bir çox sahədə öz qayğısını məndən əsirgəməyən, atamla həmyaşıd olmasına baxmayaraq, zamanla yaş fərqini ədəbiyyatla yoğurub dostlaşdığım həmkarımı 460 səhifəlik "O mənim ürəyim deyil..." şeirlər kitabı münasibətilə təbrik edir, bundan sonra da yeni yaradıcılıq uğurları arzulayıram.**

**ELXAN YURDOĞLU,**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent, şair-publisist**

# Tereza Ananın ƏSL ÜZÜ

***Əsl adı Qonca Boyacı.***

***26 avqust 1910-cu ildə bu gün Şimali Makedoniyanın paytaxtı, keçmişdə Osmanlı İmperiyasına bağlı olan Üsküpdə dünyaya gəldi.***

***Ona "haralısan" sualı verilən isə özünü belə tanıtdı:***

***"Qan bağıma görə Arnavutam, vətəndaşlığıma görə hindli, inancıma görə isə katolik bir rahibəyəm. Qəlbimə görə isə tamamilə İsanın qəlbinə aidəm".***

***Osmanlıda İmperiyasından isə heç danışmadı.***

***Nobel sülh mükafatı da daxil olmaqla bir çox mükafatlara layiq görüldü.***

***Ölümündən bir il əvvəl ABŞ-ın fəxri vətəndaşı oldu.***

***İnsanlığa, yoxsullara yardım edən xeyirxah bir missioner kimi dünyaya tanıdıldı.***

***Amma bir çox insanın fərqində olmadığı şey isə Tereza Ananın mübahisəli fiqur olmasıdır.***

## *Pedofil keşişlərlə, dələduzlarla,*

diktatorlarla yaxın əlaqələri var idi. İstər sağlığında, istərsə də ölümündən sonra şəxsi və yaratdığı qurumlarla bağlı bir çox iddialar önə sürüldü. Hətta etiraf edənlər də oldu.

Bütün bunlara rəğmən bu günə qədər gəlib-keçmiş ən böyük, ən sülhpərvər, ən təsirli dünyanı dəyişdirən insanların siyahısına baxsaq, Tereza Ananın bir çox siyahıda olduğunu görəcəksiniz. İnsanların çoxusu onu yaxşılıqlar mələyi kimi görür.

Hətta 2003-cü ildə dövrün Papası II Con Paul tərəfindən xeyir-dua verildi, 2016-cı ildə isə Vatikanda izdihamın önündə "Əzizə" elan olundu.

Bəs yaxşı, Tereza Ana niyə mübahisəli şəxsdir?

***Əslində o, kimdir?***

***Tereza 12 yaşına çatmış Tanrının ona bir çağırış etdiyini iddia etdi. O zamanlarda bəzi missionerlər Hindistana könüllü olaraq işləməyə gedirdilər. Bu, Terezanın da xəyalı idi. Yəni öz dinini başqa ölkələrdə yaymaq istəyirdi. 18 yaşına çatanda rahibə olmaq üçün Hindistana gedərək Doretta soydaşlarına qoşuldu.***

***24 may 1931-ci ildə ilk dəfə and içdi və Tereza adını aldı.***

14 may 1937-ci ildə isə Monastrda müəllimlik edərkən müqəddəs andını içdi. Yəni artıq Qonca Boyacı tarixə qovuşmuş, yerinə Rahibə Tereza gəlmişdi.

1948-ci ildə həyatını dəyişdirən ikinci ilahi mesajını aldı. Tanrının ona "monastr həyatını tərk etməlisən və həyatını kasıblara, yoxsullara həsr etməlisən, onlarla birgə yaşamalısan" dediyini iddia etdi. Tibbi təhsil alaraq Hindistanın Kəlküttə şəhərində gecəqondu məhəllələrində uşaqlara müəllimlik etməyə, xəstələri müalicə etməyə başladı. Valideynlərin çoxusu Terezanın uşaqlarının beynini yuyub xristian etməyindən ehtiyat edib onun bu şəhərdən getməyini istədi. Monastrdakı şagirdləri ona köməyə gəlməyə başlayanda Terezanın ağlında girdi ki, Dorettadan ayrılsın və öz icmasını qursun.

***Onun etdikləri dünyanın dörd bir yanında heyranlıqla izləyirdilər. 1950-ci ildə Xeyirxah Missionerlər İcması quruldu. Hətta ona***



***1951-ci ildə Hindistan vətəndaşlığı belə verildi.***

***1952-ci ildə öz açıqlamasına görə küçədə qalan tərk edilmiş insanların ən azından qürurla son nəfəslərini verə biləcəkləri, istefa verən rahibələrinin dediklərinə görə isə insanların gizlincə vaftiz edildiyi, "Həyatını itirənlər evi" adı verilən ilk təsis quruldu.***

***Şəhərin ən kasıb yaşayanları üçün yaxşılıq mələyi, amma böyük bir hindu əhalisinə görə isə tərk edilmiş bir hindu məbədini öz qurumuna çevirib hinduların inanclarını təhqir edən bir şəxs idi.***

Bütün bunlara rəğmən 1950-ci ildə 12 rahibə ilə qurduğu Xeyirxah Missionerlər İcması bu gün dünyanın 139 ölkəsində 700-dən çox xeyriyyəçilik vəqfi quran və içində 5000-dən artıq rahibənin xidmət etdiyi böyük bir cəmiyyətə çevrildi.

## *Nobel Sülh mükafatı*

27 oktyabr 1979-cu ildə Nobel Sülh mükafatına;

20 yanvar 1985-ci ildə ABŞ-ın ən sivil mükafatı olan Azadlıq medalına layiq görüldü.

Səhhətində ciddi problemlər yaranan Tereza 1989-cu ildə keçirtdiyi ikinci ürək infarktından sonra əməliyyat olundu, ürəyinə aparat yerləşdirildi. Amma səhhəti pisləşdikcə onun bədəninə şeytanın girdiyi düşünüldü, xəstəxanada ikən şeytan çıxartma ayini belə yerinə yetirildi. 5 sentyabr 1997-ci ildə 87 yaşında ürək çatışmazlığından dünyasını dəyişdi.

Elə hər şey də onun vəfatından sonra başladı. Onun sağlığında keşişlərə göndərdiyi məktubları gündəm oldu. O bu məktublarda yazırdı:

***"Özümü cəhənnəmdə yaşayırmış kimi hiss edirəm. Tanrının və cənnətin varlığına şübhələnməyə başlayıram. Səslənirəm, amma heç kim yoxdur. Heç kim cavab vermir. İnanclarım hanı? Qəlbimin dərinliklərində də heç nə yoxdur. Boşluqdan və qaranlıqdan başqa. Cavablarını tapacağından hürkdüyüm və o qədər cavablanmamış suallar var ki, mənimlə yaşayan, bütün bunlar səbəbindən əgər Tanrı varsa, ondan məni bağışlamasını istəyirəm".***

Əzab çəkməyin insanı Tanrıya yaxınlaşdırdığını deyən və bunun müqəddəs bir şey olduğunu müdafiə edən rahibə bir dəfə başına gələn bir hadisə: Xərçəng xəstəsi olan, dözülməz ağrı çəkən birinə gülümsəyib "çarmıxda əzab çəkən İsa kimi əzab çəkirsən, buna görə də Tanrı səni öpür" deyir. Xəstə cavabında "o zaman lütfən İsaya de ki məni öpməsin".

## *Tereza Ananın inancına görə*

əzab əslində Tanrının hədiyyəsidir. Elə bəlkə də bu səbəbdən xəstələrə, əzab çəkənlərə kömək etmək üçün əlində bu qədər imkan varkən onlara qarşı laqeyd qaldı. Terezanın yanında 20 il işləyən rahibə Mery Conson Terezanın yoxsullara yardım etmək kimi niyyətinin olmadığını, tez-tez "siz yoxsullara yox, İsaya xidmət edirsiniz" dediyini dilə gətirdi.

Tereza Ana özü də tez-tez bunu dilə gətirmişdi:

***"İnsanlar məni sosial xidmət mütəxəssisi zənn edirlər, amma mənim işim İsaya xidmət etmək, xristianlıq kəlməsini yaymaq və insanları qazanmaqdır. İddialara görə Terezanın açdığı yardım evləri əslində başqa niyyətlərə xidmət edirdi. Terezanın yanında 9 il yarım işləyib istefa verən rahibə Suzan Şilds bunları dedi:***



"Tereza Ana bacılara həyatını itirməkdə olanlara necə vaftiz ediləcəyini öyrətdi. Rahibələr son nəfəsdə olan insanlara "cənnətə qəbz istəyirsənmi?" deyə sual verəcək, müsbət cavab aldıqda isə alnını nəm bez parçası ilə qayğısına qalırmış kimi davranacaq, beləcə xəlvəti həmin insanı vaftiz edəcəkdilər. Ki, edirdilər də.

***Terezanın Nyu Yorkda Bronydəki hesabında 1 milyona yaxın pul toplanmışdı. Amma bu pulların yoxsulların həyatında heç bir rolu yox idi. Tereza üçün yoxsulların mənəvi vəziyyətləri daha önəmli idi. Pullar pislik üçün istifadə olunmasa da, yaxşılıqlar üçün də istifadə olunmadı. Efiopiyada qıtlıq olan zaman banka daxil olan çeklər "Efiopiya üçün" adı altında olsa da, Afrikaya pul göndərilmədi və bu kampaniya davm etdirildi.***

## *Tereza böyük bir sərvət yaratdı*

Fəqət o, bu pulları xəstəxanalar tikdirmək əvəzinə, 150-dən çox ölkədə monastr tikdirdi, yeni rahib və rahibələr yetişdirildi,

1991-ci ildə İngiltərədəki bir qurumda aparılan yoxlamada ümumi gəlirin sadəcə 7 faizinin yardım üçün xərcləndiyi, qalanının isə Vatikan bankına həvalə edildiyi ortaya çıxdı. Bu yoxlama sadəcə bir ölkədə və sadəcə bir dəfə aparıldı. Poşlaşadakı icmaya üzv olan qadın Eva Kolodziej toplanan bağışlar barədə bunları dedi:

***"Nyu Yorkdakı evi ziyarət edin, o zaman bağışların hara xərcləndiyini görəcəksiniz. Evin zirzəmisində dəyərli kitablar, zinət əşyaları və qızıllar var.***

***2008-ci ildə Kəlküttədə iki ay könüllü olaraq işləyən Hemley Qonzalez gördüklərindən dəhşətə gəldiyini dilə gətirdi və qurumdan ayrıldıqdan sonra feysbukda səhifə yaradaraq ifşalar paylaşdı. İşçilərin iynələri soyuq suda yaxalayıb başqa xəstələrə vurduğunu, tibbi ləvazimatların, dərmanların vaxtının keçməsinə rəğmən xəstələrə verildiyini, işçilərin tibbi təhsillərinin olmadığını, tuperklyoz və başqa yoluxucu xəstələrin başqaları ilə eyni məkanda müalicə olunduğunu dedi.***

1976-cı ildə dünyanın ilk Ebola virusunu kəşf edən Pider Piat bu virusun rahibələrin təkrar-təkrar istifadə etdiyi iynələrdən yayıldığını dedi.

Quruma məxsus olan təcili tibbi yardım maşınlarında ilkin yardım üçün heç bir tibbi ləzavimat çantası belə olmayıb. Bu maşınlar əsasən rahibə daşıyırmış.

## *Tereza əzab çəkməyin Tanrıya yaxınlaşmaq olduğunu desə də,*

özünün səhhəti pisləşən kimi xəstəxanaya da getdi, əməliyyat da olundu.

**Kəlküttədə könüllü işləyən Mary Loudon:**

***"Hamının başı keçəl qırxılmışdı. Çarpayı yox idi, baxça yox idi. 50-60 kişinin, bir o qədər də qadının olduğu iki ayrı otaq var idi. Hamısı həyatını itirirdi. Onlara yalnız ağrıkəsici aspirindən başqa heç nə verilmirdi. Xəstələrin bir çoxu isə bəsit bir əməliyyatla sağala bilən xəstələr idi. Amma heç bir rahibə Terezaya şübhə ilə yanaşa bilməzdi. Çünki ondan şübhələnmək, Tanrıdan şübhələnməyə bərabər idi və inanırdılar ki, buna görə o dünyada onlara cəza veriləcək".***

Terezanı ən sərt tənqid edənlərdən biri Xistofo Riçens isə Terezanın əslində yoxsulların dostu deyil, yoxsulluğun dostu olduğunu demişdi. O, katolikliyi yaymağı xəstələrin canları bahasına həyata keçirtdi. Aborta və doğuşa nəzarəti qadağan etdi. Bu düşüncə yoxsulluğun davamlı olması üçün atılmış addım idi. İddialara görə Tereza Hindistandakı təbii fəalkət qurbanlarına sadəcə Hz. Məryəmin dualarını və medallarını payladı. Kasıb olmağın o qədər də pis bir şey olmadığına inanan Tereza dünyanın kasıb insanların çəkdiyi əzabdan yardım aldığını düşünürdü.

Tereza diktatorlardan və dələduzlardan pul alırdı. Ona görə də Çarles Kitinq dələduzluqda ittiham olunanda Tereza onu müdafiə edən bir məktub yazmışdı.

## *Bəs necə oldu ki,*

bunlarla yanaşı Tereza "Əzizə" elan olundu?

Bunun üçün onun iki möcüzəni reallaşdırmağı lazım idi.

**1.** Monika Besra adlı bir qadının bədənindəki şişə Terezanın şəkli olan boyunbağını basaraq dua edib sağalması.

Besranın dediklərinə görə rahibələr onu tez-tez ziyarət edəcəklərini, mardi yaddım edəcəklərini desələr də, sonra onu unutdular.

Həkimlər Moniknaın dərmanlar vasitəsilə sağaldığını desə də, bu, qəbul edilmədi.

**2.** Braziliyalı Marcilio Andrino beynindəki pozuntu səbəbilə komaya düşür. Onun arvadı Terezaya dua edir və əri komadan ayılır. Və bu fakt nə yaşadığı yer, nə də təhsili bəlli olan bir həkim tərəfindən təsdiq edildi.

**Bir çox toplumlar ölən bir adamın arxasınca mənfi şeylər danışmağın günah, pis əməl olduğunu qəbul etdiyi üçün, Tereza kimi adamların da arxasınca ancaq yaxşı şeylər danışıldı, həqiqətləri deyənlər ciddiyə alınmadı. Nəticədə də dünya bu adamı yaxşılıqlar mələyi kimi tanıdı.**

**Dilimizə uyğunlaşdıran:**
**Eminquey**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 21 (2202) 23 fevral 2021-ci il

# Tarixi qələbə

**Mövcud olduğu bütün tarixi ərzində xalqımızın indiki qədər sevinc, fərəh hissi keçirdiyini, milyonlarla insanların bir-birinə bu qədər səmimi gözaydınlığı verdiyini təsəvvür edə bilmirəm.**

10 noyabr tarixli zəfər gecəsi küçələrdə insan axınının maşınların siqnal səsinin yuxuda olan insanları oyatması bəlkə də çoxlarını narazı salmışdı. Qələbədən xəbərləri olmayanlar bəlkə də haqlı idilər. Atəşkəs barədə üçtərəfli bəyanatın imzalanmasından, Ali Baş Komandanın həmin gecə xalqa müraciətindən xəbəri olmayanları yəqin ki, qınamaq yersizdir. İllərlə həsrətini çəkdiyimiz qələbə xəbəri milyonların ürəyinə su çilədi. Bu tarixi və möhtəşəm qələbə cəmi 44 günə qazanıldı. Düz bir qərinə başıaşağı, gözüqıpıq yaşayışımıza son qoyuldu. Bu qələbə barədə tarixçi alimlər, hərbi ekspertlət və jurnalistlər, yazıçı və şairlər və müxtəlif peşə sahibləri çox yazacaqlar.

Mən də adi bir vətəndaş kimi, bu xalqın sadə övladı kimi belə möhtəşəm qələbə günlərində öz sevincimi və fikirlərimi xalqımızla bölüşmək istəyirəm.

***Əvvəlcədən bəzi mətləbləri təəssüf hissi ilə qeyd edəcəyəm. Sentyabrın 27-də müharibə başladı. Müharibədən bir gün əvvəl Xırdalan bazarında boylu-buxunlu, bazburutlu bir oğlandan üzüm alırdım(onu da deyim ki, bu bazarda belə "igidlər" kifayət qədərdi, Allah canlarını sağ eləsin). Oğlan üzümü hamı kimi bazar məzənnəsi ilə satırdı. Üzümün qiyməti bir manat civarında idi. Soruşanda bir manata deyirdilər almayıb gedəndə səksən qəpiyə apar deyirdilər. Müharibə başlayandan bir gün sonra mən yenə üzüm almaq istəyirdim. Həmin oğlana yanaşdım, o, üzümü bir manat əlli qəpiyə dedi. Dedim, dünən sırağagün səksən qəpiyə yalvarırdın, nə oldu, bu gün ikiqat qiymətə satırsan? Oğlan tövrünü pozmadı: müharibədi ay ağsaqqal, qiymətlər qalxıb.***

Həmin bu bığıburma bazarda qiymət qaldıranda igid əsgərlərimiz cəbhədə vuruşurdu. Hərbi səfərbərlik üzrə çağırış məntəqələrində minlərlə vətənpərvər oğullar könüllü olaraq döyüşə getmək üçün müraciət edirdilər. Bəlkə də şanlı qələbəmizdən sonra belə vətən, torpaq sevgisindən uzaq olan ünsürlərdən danışmağa dəyməz. Heyif ki, beləleri bir deyildi, beş deyildi. Müxtəlif çirkin yollarla müharibədən yayınan, torpaqlarımızın işğaldan azad edilməsi üçün döyüşə getməkdən boyun qaçıran məmur balalrı, market sahibləri, mağaza yiyələri bayraq alverinə başlamışdılar. Dörd beş qat baha qiymətə bayraq satan oğlanlar da var idi, cəbhədə bir əlində bayraq , bir əlində silah tutan oğlanlar da...və çiyinlərində eyni vaxtda yaralı yoldaşlarını daşıyan oğlanlar da. Hərdən öz- özümə deyirəm: yaxşı ki, pulu torpaqdan əziz bilənlər müharibəyə getmədilər. Beləleri yoldaşlarını darda qoyub qaçardılar. Allah bu xalqı belələrindən qorusun.



***Füzulı işğaldan azad edildi. Ali Baş Komandan xalqa bu xoş xəbəri fərəhlə çatdirdi. Cəbrayıl işğaldan azad edildi. Yenə Ali Baş Komandan həm həyəcanla, həm sevinclə mavi ekranlarda göründü. Zəngilan, Qubadlı, Xocavənd rayonları, kəndlər, qəsəbələr işğalçılardan təmizləndi. Ali Baş Komandan daha vəcdlə, daha ötkəm danışmağa başladı. İndi onun gülər üzü daha inamlı görünürdü. Elə həmin ərəfələrdə prezidentimiz Paşinyana layiq olduğu sözü dedi: "İti qovan kimi qovacağıq!" Paşinyan bu sözləri dedizdirdi- özünün dayaz düşüncələri,sərsəm çıxışları, korkoranə müqaviməti ilə. Ali Baş Komandan ona dəfələrlə mesaj vermişdi: Günahsız insanların həlak olmasının qarşısını almaq üçün sülh danışıqlarına hazıram. Paşinyan nə elədi? Cəbhə xəttindən çox-çox uzaqlarda olan Gəncəyə, Mingəçevirə, Bərdəyə, Tərtərə və s.rayonların ərazilərinə raket zərbələri endirdi. Bu , müharibə qanunlarına tamam zidd idi. Prezidentimiz dəfələrlə bildirdi ki, mülki əhaliyə atəş açmaq beynəlxalq qaydaları pozmaq deməkdir və ağır cinayətdir. Bizim ordumuz 44 gün ərzində bir dəfə də olsun erməni əhalisinə atəş açmadı. Bizim isə 100 mülki vətəndaşımız erməni vandalizminin qurbanı oldu, dörd yüzdən çox dinc əhali yaralandı. Yüzlərlə ev, inzibati binalar dağıdıldı. Beynəlxalq aləm isə susurdu.***

Qoy onlar sussunlar. Bizim isə artilleriyamız, tanklarımız, dronlarımız susmurdu. Cəbhədə uğurlarımız çoxaldıqca həm xalqımızın üzü gülürdü, həm Ali Baş Komandanımızın. İlham Əliyev hər dəfə televiziya ekranlarında görünəndə xalqımızın qələbəyə ümidi daha da artırdı. Hər dəfə işğaldan azad olunan kəndlərin, qəsəbələrin adlarıını sadalayandan sonra inamla "Qarabağ Azərbaycandır!" nidası düyünlənmiş yumruğun müşayiəti ilə daha təntənəli səslənirdi. Xarici jurnalistlərlə müsahibəsində yuksək intellekt, dərin savad,İngilis və rus dillərində mükəmməl cavablar, hadisələrə real və dolğun qiymət verməsi, təhlil bacarığı, diplomatik yanaşma tərzi qarşı tərəfi diqqətlə qulaq asmağa məcbur edirdi. Təxribat xarakterli suallara ustalıqla cavab verdikcə müxbirlər heyrətlərini gizlədə bilmirdilər.

Elə bil xalq da vərdiş eləmişdi- İlham Əliyevin ekranlarda görünməsini, qalibanə və bir az da amiranə səsini eşitmək üçün darıxırdılar. Amma ...

***Amma bu səslər içində heç vaxt unuda bilməyəcəyim bir səs var idi. Bu səs noyabrın 8-də "Şəhidlər xiyabanı"ndan eşidildi. Ali Baş Komandan şəhidlərin (yerləri behişt olsun) məzarını ziyarət edəndən sonra daha qürurla xalqa müraciət etdi. Bu müraciəti təbii ki,milyonlar izləyirdi. Milyonlarla insanlar daha xoş xəbər eşitmək istəyirdi. Nəhayət müraciətin ən kulminasiya anı: "Əziz Şuşa, sən azadsan"! Bu müraciətdən üç aya yaxın vaxt keçib və mən bu sətirləri yazarkən özümü qəhərlənməkdən saxlaya bilmədim. "Əziz Şuşa, sən azadsan! Biz səni dirçəldəcəyik". Bu səsdə nələr yox idi, İlahi ?! Bu səsdə məğrur Şuşa qalasının əzəməti, Xarı bülbülün təravəti, İsa bulağının zümzüməsi, Cıdır düzünün möhtəşəmliyi, yaralı heykəllərin hayqırtısı var idi. Bu səsdə Topxana meşəsinin, Daşaltı qayalarının uğultusu, nərəsi var idi. Bu səsdə " Qarabağ şikəstəsi", Şuşanın "Başı dumanlı dağlari"nin bütün qüdrəti, əzəməti var idi. Bu səsdə "Heyratı", "Mənsuriyyə", "Koroğlu cəngisi" var idi. Bu səsdə "Yallı" sədaları var idi. O yallı sədası ki, Cıdır düzündə hökumət başçısından çox donuz otarana oxşayan Nikol Paşinyan iyrənc vücudunu oynada-oynada rəqs edirdi.***

Bizim torpaqda bizim rəqs və..."Qarabağ Ermənistandır nöqtə" sərsəmləməsi. Bu sözlər rus politoloqlarının dediyi kimi "İlham Əliyevi təxribata sürükləyirdi". Bu sarsaq küçə siyasətçisinin sarsaq iddiaları xalqımızın, ordumuzun, igid əsgərlərimizin heysiyyatına toxunmaq, təhqir etmək idi. Ermənistanda minlərlə xəstə təxəyyüllü dığaların əli ilə hakimiyyətə gəlmiş təlxəkdən ayrı nə gözləmək olardı? Arzusu gözündə qalan dığa cəmi 44 gün tab gətirə bildi. Ali Baş Komandan hər dəfə çıxışında "Nə oldu Paşinyan?" sualını səsləndirəndə və "İti qovan kimi qovacağıq " deyəndə, ayılmalı idi Paşinyan. Heç olmasa "onun-bunun dabanını yalayıb" əli boşa çıxanda ağıllanmalı idi. Cəmi 44 günə "güclü erməni" mifi alt-üst oldu. Paşinyan da, havadarları da Şuşa döyüşlərindən şoka düşdülər.

Şuşa döyüşləri hərb taixində yeni səhifə açdı. Nağıllarda deyildiyi kimi "Bəşəriyyətin gözü belə döyüş görməmişdi, qulağı belə hünər eşitməmişdi".

Böyük Türk xalqının böyük sərkərdəsi Hulusi Akar Azərbaycanın tarixi qələbəsini çox dahiyanə bir cümlə ilə ifadə etmişdir: Azərbaycanın 44 günlük qələbəsindən bundan sonra 44 il danışılacaqdır.

"Biz bir millət, iki dövlətik!" Dəfələrlə Türkiyə və Azərbaycan dövlət başçılarının dediyi sözlər dostluğun , qardaşlığın sübutudur.Əhsən belə dostluğa , əhsən belə qardaşlığa. Rəcəb Tayyib Ərdoğanın həmişə şəstlə , qürurla , hökmlə dediyi "Biz həmişə qardaş Azərbaycanın yanındayız" sözləri xalqımıza , ordumuza ən dəyərli mənəvi kömək idi. Qələbə münasibətilə bir şeir yazmışşdım.Yeri gəlmişkən həmin şeirdən bir bəndi bu yazıya əlavə edirəm::

*Ər oğludur Rəcəb Tayyib Ərdoğan,*
*Alqış sənə İlham kimi Ər doğan!*
*Bu Vətəndə ərən doğur hər doğan*
*Nəvəsiyik Cavanşirin, Babəkin-*
*Axmaq dığa ,torpağımdan əl çəkin!*

**"Allah əmri ilə başa düşmədilər ,yan dəmiri" ilə başa saldıq!**

**Hər dəfə işğaldan azad olunan rayonlardan qürurla danışan Ali Baş Komandan ermənilərin rəzilliyini ,qəddarığını ,insanlığa yaraşmayan hərəkətlərini xüsusi qeyd edirdi.Onların ən rəzil hərəkətlərindən biri də məscidlərimizdə donuz saxlamaqları idi.Öz həmcinslərini müqəddəs ocaqlarımıızda saxlamaq bütün müsəlman dünyasını, İslamı bütövlükdə təhqir etmək deməkdir. Avropa susurdu. Məhəmməd peyğəmbərin karikaturasını çəkib Avropada nümayiş etdirəndə də "demokratik dünya" səsini çıxartmamışdı.Bu xristianların müsəlmanlara ən ağır təhqiri idi.Məscidlərimizdə donuz saxlanmasını isə Moskva televiziyalarında işləyən muzdlu ermənipərəstlər " bu montajdır" dedilər.**

**(ardı var)**

***Ramiz İsmayıl***

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

## "Vətən Simurqları" hünər və qəhrəmanlıqlarla dolu tarixi salnamədir

***Vətənimizin hər qarış torpağı uğrunda mücadilə və mübarizələrə atılan, bu şanlı və şərəfli yolda şirin canlarını qurban verən qəhrəman şəhidlərimizin hər birinin solmaz xatirəsi qəlbimizdə əbədidir, unudulmazdır. Hər şəhid bir zirvənin əbədi yolçusudur. Əbədiyyət ünvanlı ali və müqəddəs zirvədə qərar tutan Vətən aşiqlərinin nakam, qısa, şərəfli ömür yoluna işıq tutmağın özü də olduqca şərəfli bir duyğudur.***

Eyni zamanda nakam, şəhid ömürlərin, şərəfli tale yollarının sorağıyla qalaq-qalaq kitablar ərsəyə gətirməyin də məsuliyyəti böyük, yükü isə olduqca ağırdır. Bu ağır yükü daşımaq, bu məsuliyyətli işin öhdəsindən gəlmək bir qələm sahibi üçün nə qədər şərəfli də olsa bir o qədər də ağrılıdır. Çünki hər bir şəhidin ömür yolu ilə tanış olduqca, onun qəhrəmanlığı ilə qürur duyduğun qədər də yarıda qırılmış ömrünə, vaxtsız solan arzularına təəssüf hissləri keçirir, kədərinə şərik çıxır, ağrı-acısına mənən qatlaşmalı olursan. Ruhsuz, duyğusuz əsər yaratmaq isə qeyri-mümkündür. Bu səbəbdən Almaz Ülvinin uzun illərdir ülvi dünyasında şəhid nisgiliylə alışıb yanan kövrək qəlbində hansı ağrılı hisslər keçirdiyini də çox yaxşı dərk edirəm. Ülvi kimi paklıq, ülvilik şərbətini dadan yüzlərlə nakam şəhidlərimizin şərəfli ömrünə kitab bağlamaq missiyası bu baxımdan məni səmimi qəlbimlə qürur və məmnuniyyət hissi ilə duyğulandırır.

Filologiya elmləri doktoru, əməkdar mədəniyyət işçisi Gülbəniz xanım Babaxanlının maliyyə dəstəyi ilə "Vətən Simurqları" kitabı işıq üzü görüb. Kitabın məsul katibləri Şəbnəm Babayeva və fil.f.d. Əzizağa Nəcəfovdur.

### *Kitabı toplayıb nəşrə hazırlayan*

***və ön sözün müəllifi Almaz Ülvi oxucularını 1990-cı il 20 Yanvar faciəsinin qurbanı olmuş şəhid ədib Ülvi Bünyadzadənin "Həyat üçün doğulmuşuq, Vətən üçün ölməliyik!" adlı ölümsüz misraları ilə salamlayır. Kitabın müəyyən səhifələrində də azadlığımızın ilk carçılarından sayılan şəhid Ülvimizin Simurq qanadlı poetik düşüncələri də arasıra diqqətimizi cəlb edir.***

Belə ki, ön sözün ilk cümləsində vurğulanır: "Qarabağ Azərbaycandır və nida! Dağlıq Qarabağı düşmən işğalından azad etmək üçün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev belə bir şüarla səfərbərlik elan etdi və Qarabağa doğru yola başladıq! II Qarabağ Vətən Müharibəsinə başlamaq üçün 2020-ci ilin 27 sentyabr günü qəflətən seçilmədi. Bu günə 30-32 ili arxada qoyan dərd-ələm dolu illəri ağır addımlarla gəlmişdik. Nə edəcəyimizi, necə edəcəyimizi düşünürdük. Tarix boyu türk sınan, əyilən, məğlub xalq olmayıb. Zaman fürsətini, məqamını gözləməyi də bilən, səbr sahibi olub, kəmfürsət olmayıb, haqq meydanına cəsarətlə Kişi kimi girib, qalib olaraq çıxıb."

Bu kimi tarixi həssas məqamlara diqqət yetirdikcə təbii ki, gerçəkliyin özü xatırlanır. Bəs bu kitab hansı əfsanəvi, mənəvi duyğuların təsiri ilə ərsəyə gəldi? Gəlin, yenə də ön sözə diqqət edək: "Azadlıq meydanında düşündüm ki, bəs biz nə edək, bu mübarizədə hansı əməyi ortaya qoyaq. Sosial şəbəkədə belə bir elan verdim: "Qələbə Paradımızdan sonra hər kəs:

*1. Qarabağ müharibəsi Şəhidindən*

*2. Qarabağ müharibəsi Qazisindən və ya Qəhrəmanından - ən azı bir məqalə yazsın və qısa vaxt ərzində kitab kimi nəşr edək ( fotoları ilə).*

Kim neçə səhifə və neçə qəhrəman haqqında yazırsa yazsın. Kitab pulsuz paylanacaq. Belə kitablara ehtiyac var: həm şəhidlərimizin, qazilərimizin, qəhrəmanlarımızın tanınması, həm valideynlərinin mənən könlünü almaq məqsədilə, həm də dərslik kimi (sinifdənxaric oxu kitabı olaraq): (məqalələr bu e-poçta göndərilsin - 2.qarabag.kitab@mail.ru)".

Budur, cəmi 10 günə 350-dən artıq Qəhrəmanımız haqqında yazı-məqalə aldım:

Şəhidlər, qazilər, igidlərimiz haqqında. Davamı isə daxil olur. Belə fikirləşdik ki, şəhidlərimizin qırx gününə I kitabı nəşr edək, davamını - II kitabı isə Novruz bayramında nəşr edərik. Bu kitabdakı yazıların-məqalələrin hərəsi bir igidin ömründən bəhs etsə də, əslində hər yazıda döyüş meydanı görünür, döyüş əhval ruhiyyəsinə dolursan, özünü Qarabağda, işğaldan azad olmuş, bizdən ötrü qəribsəmiş Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Suqovuşanda, Ağdərədə, Şuşada, Ağdamda, Kəlbəcərdə, Laçında görürsən".

### *Vətən simurqları!*

***Qarabağımızın xilaskar ərənləri! Parlaq qələbəmizin səbəbkarları! Məsləki, məramı müqəddəs, məqamı uca Şəhidlər! Üçrəngli Vətən bayrağına bükülüb gənc yaşında Vətən torpağının bağrına əmanət edilən ər oğullar! Vətənimizn azadlığı, suverenliyi, bütövlüyü uğrunda axıtdığınız qanlarınız bahasına qazandığımız parlaq qələbəmizi bizlərə halal edin!***




Çünki sizin mübarizə əzminiz, qeyrətiniz, şücaətiniz sayəsində əlimizdə tutduğumuz zəfər bayrağı ilə 30 ildir həsrətində olduğumuz Qarabağımıza dönüş edirik.

***"Vətən Simurqları" hərbi-vətənpərvərlik toplusunda 44 günlük Vətən Müharibəsi müddətində itirilmiş tarixi torpaqlarımızı qanları, canları bahasına öz sahibinə qaytaran qəhrəman yurd oğullarının keçdiyi ağır döyüş yollarından bəhs edilir.***

### *Kitabı səhifə-səhifə vərəqlədikcə*

nakam qalan şəhid ömürlərə, yarım qalan arzulara heyfsilənməyə bilmirsən. Bu ağrılı məqamlara diqqət yetirdikcə kövrəkcəsinə duyğulanaraq, göz yaşlarına hakim olmaya bilmirsən. Söz yox ki, biz onları şəxsən həyatda tanımasaq da, onların hər birinə sonsuzadək borclu və minnətdarıq. Bu borcun, bu minnətdarlıq hisslərinin ifadəsi mümkünsüz, çəkisi isə ölçüyə gəlməz. Onların haqqı hər bir Vətən övladının çiyinlərində bir ömür boyu ödənməyəcək ağır yükdür. Bəs biz nə zamansa sizin haqqınızı ödəyə biləcəyikmi, qəhrəman şəhidlərimiz? Onlar 44 günlük qısa bir müddət ərzində Azərbaycanın qəhrəmanlıq salnaməsinə elə bir səhifə yazdılar ki. Tarix boyu, zaman-zaman fəxarətlə xatırlanacaq qəhrəmanlıqlarla, şücaətliklərlə dolu, mübarizə ruhlu, həqiqətin təntənəsinə güzgü tutan, zəfər soraqlı, möhtəşəm, şanlı bir səhifə!

***"44 günün əfsanəsi" adlı ön sözdə qeyd olunduğu kimi: "Bu 44 günün hər dəqiqəsi bir tarix oldu. Bu 44 günün hər dəqiqəsində bir Azərbaycan qəhrəmanı kəşf olundu. Bu 44 gündə biz yenidən Simurq kimi doğulduq".***

Kitabda müəlliflər tərəfindən Adil İbrahimli, Ağa Əmi Heybətov, Ağaəli Ağayev, Aqil Əliyev, Arəstə Baxışova, Aqşin İbadov, Alı Həsənli, Cəbrayıl Dövlətzadə, Elçin Mansurov, Elnur Vəliyev, Əmrah Həmidov, Fəqan Zalov, Faiq Qasımov, general Polad Həşimov, Hikmət Səfərov, Həmid Abbasbəyli, Həsən Məmmədli, Hüseyn İsmayılov, Elvin Məmmədov, Əkbər Hüseynov, Xansu Qurbanov, Xəyal Balakişiyev, Xudayar Yusifzadə, İlkin Ağaquliyev, Röyad Məmmədov, İlqar Bürcəliyev, Nurlan Ağakişiyev, Orxan Balayev, Sadiq Bağırzadə, Tural Cəlilov, Fuad Məmmədov, Turqut Xəlilbəyli, Yüksəl Əlizadə və digər qəhrəman şəhidlərimiz haqqında yazılar kövrək, duyğulu hisslərlə və ürək yanğısıyla qələmə alınmışdır. Belə ki, Vətən Müharibəsinin Qubadlı uğrunda şəhidlik məqamına ucalan qadın qəhrəmanı Arəstə Baxışovanın anasına "Əgər mən gedib Vətən uğrunda Şəhid olacamsa, o mənim başımın ucalığıdır" söyləməsi ruhumuza dərin kədər və eyni zamanda qürur hissləri aşılayır. Həmçinin Xüsusi Təyinatlı Qoşun komandiri, mayor Aqşin İbadovun Zəngilan uğrunda gedən döyüşlərdə şəhid olmamışdan öncə anasına yazdığı məktubunda "Ağlama, ya qayıdaram, ya da şəhid olaram, ölmərəm ki..." söyləməsi təsadüf hissləri doğurmur. Belə ki, igid Qəhrəmanımızın ölümsüzlük zirvəsində qərar tutacağı an sanki əzəldən ürəyinə damıbmış.

***"Ön söz"dən: "Bu kitab həm də psixoloji məqamları qabardıb. Bu kitabın qəhrəmanları Qarabağ torpaqlarını işğaldan azad edən şəhid olan qəhrəman oğullarımızdır, Ali Baş Komandandır, bütün ordumuzdur, bütün Azərbaycan xalqıdır, Azərbaycan-Türkiyə dostluğudur, atalarını gözləyən körpələrimiz, əlləri göyə uzalı Allaha duasını əsirgəməyən analar, atalar, bacılardır, körpələrdir."***

### *Qarabağımızın xilası*

eyni zamanda milli ruhumuzun və qürurumuzun qələbəsidir. "Qarabağ Azərbaycandır və nida" müqəddəs şüarı qələbəmizin rəmzi ifadəsinə çevrildisə də, doğma Şuşamızın Xarı bülbülü isə torpaqlarımızın ərazi bütövlüyü uğrunda can qoymuş 2803 şəhidin əziz, müqəddəs ruhları qarşısında qəhrəmanlıq simvoluna, qeyrət tacına çevrildi. Ən böyük rəmzi abidəni isə Şəhidlərimiz öz qəhrəmanlığı ilə xalqımızın qəlbində ucaltmağa nail oldular. İllər keçsə də, "Vətən simurqları"nın əziz xatirəsi heç vaxt unudulmayacaq, sonsuz ehtiram hissi ilə daim yad ediləcəkdir. Təbii ki, zəfərə nail olmaq heç də asan proses deyil. Biz də bir xalq olaraq Zəfərimizi qanla qazandıq. Bu kitabın ərsəyə gəlməsini böyük Zəfərimizi öz qanları ilə yazan igid Vətən oğullarınım əziz ruhu qarşısında bir vəfa borcu kimi dəyərləndirirəm. Mən şəxsən bir Azərbaycan vətəndaşı kimi bu çətin, məsuliyyətli, şərəfli və məhsuldar işdə tərtibçisinə böyük zəhməti müqabilində ən dərin, ən səmimi minnətdarlıq hisslərimi ifadə edirəm.

**II Qarabağ Vətən Müharibəsinin qəhrəmanlarına ithaf edilmiş "Vətən simurqları" şanlı tarixi salnaməsinin nəşrinin 2-ci hissəsinin yaxın zamanlarda işıq üzü görməsi diləyilə! Allah bütün şəhidlərimizə rəhmət eləsin!**

**Sevinc ƏDALƏTQIZI**
**Təbriz şəhəri**

***Qurban Bayramov***

## Yeni kəndimizi düşmənimizə göz dağı etməliyik...



***"Ağıllı kənd" adıyla ağılsızlığa yol açılır... Görürəm ki, telegüzgüdə "Ağıllı kənd" deyənlərin, ideya daşıyıcılarının kənddən - kəndçidən xəbərləri yoxdur... Dədə-baba yurd anlayışını, sevgisini aradan çıxarmaq lazım deyil... İnsan dədə yurduna bağlıdır... Bunu insanların əlindən almaq lazım deyil... Hər kəs öz yurdunda ağıllı-başılı məskunlaşmalıdır... Kəndlini zorla şəhərli etmək olmaz!! Bütün məişət tələbatları müasir olsun - qazı, işığı, suyu, sanuzeli, interneti, telefonu, küçəsi, yolu və s. Belə müasirliyə kimin nə sözü ola bilər... Sosial-ictimai evlər də, ən müasir dizaynda qurulsun... Amma kəndlilik-kəndçilik imici saxlanmaq şərti ilə...***

***Məgər, İsmayıllıda min il bundan əvvəl tikilmiş Basqal kəndi ağıllı kənd deyil... Kəndlinin fərdi təsərüffatı, malı, qoyunu, həyətbacası olmalıdır... Amma bunları müasir şəkildə, fərdi istəyə uyğun, cəlbedici, fərqli dizayınla qurmaq lazımdır... Hamının evi inqubator cücəsinə dönməməlidir... İsanın evi, Musanın evinə oxşamamlıdır... Fərdilik və fərqlilik saxlanmalıdır... Hər bir kənddə hər bir ailənin özünün yurd yeri, həyət yeri var, torpaq payı var, əkin-biçin sahəsi var, bunların hamısı nəzərə alınmalıdır... Lakin bütün yeniliklər tətbiq edilmək şərtilə... Kimin əlavə fikri varsa, byursun, müzakirə edək, tələb və təkliflərimizi ortaya qoyaq... Bu məsələdə elin-obanın fikri, istəyi, tələbi nəzərə alınmalıdır... Yenidən qurmada özümüz də fəal olmalı, əlimizdən gələni əsirgəməməli, bir-birimizə dayaq durmalı, köməkləşib yurdumuzu ürəyimizcə, istəyimizcə, həm də dövlətimizin köməkliyi ilə birgə qurmalıyıq və yeni kəndimizi düşmənimizə göz dağı etməliyik...***

***Nadir Rzalı***

## Camaata badalaq gələ bilərsiz siz?!



***Bakı Humanitar kollecinin direktoru kiminçünsə yaxşı insan, yaxşı dost ola bilər. Bunu inkar etmirik. Amma açıq aydın aşkardır ki, o "şamtutan" sözü nə mənada deyilib. Etik olmasa da deyəcəm, kimsə lazımsız yerə harasa gəlirsə, yəni 3-cü şəxsdirsə, ona "şamtutan" deyirlər. Və çox yaxşı da bilirik ki, bu nə mənada deyilib və***

***nə deməkdir. Millət uşaq-zaddı?! Ya anlamaz yerinə qoymusuz camaatı?! O boyda professor Möhsün Nağısoylu durub deyir ki, o sözün yaxşı mənası da var, mən təhqir kimi qəbul etmirəm. Ay mənim alimim, açıq fikir bildirə bilmirsənsə, danışma. Hamıdan əvvəl siz fikir bildirməli idiz, siz qınamalı idiz. Ümumiyyətlə, Dilçilik insititutunun fəaliyyəti heç təqdirəlayiq deyil!***

***Mən olsaydım, o direktoru şəksiz-şübhəsiz məhkəməyə verərdim!***



*Gülnaz Qubalı*

# Sirli ana məhəbbəti

**Bu kiçik kənddə yoxsul eyni zamanda,xoşbəxt bir ailə yaşayırdı.Ana,ata və yenicə dünyaya gələn körpədən ibarət,təməli yenicə qoyulan kiçik bir ailə. Payızın soyuq və çiskinli cecələrinin birində gənc ana, qəflətən dünyasını dəyişir. Hələ əlinin xınası getməyən bu nakam gəlini,kənd əhli öz adətlərinə görə məzarlığa son,axirət evinə yola salaraq,kiçik çay kənarındakı dərə döşündə yerləşən kənd qəbrstanlığında,yaşıllıqlar arasında dəfn edirlər.Yeni dünyaya gələn adsız südəmər körpə isə anasız qalır.Ana südündən,ana qucağından,ana ətrindən,əsası da ana himayəsindən məhrum olan bələkdəki çağa,bu hadisəni hiss edibmiş kimi,cəmi üç gün yaşayır.Üçüncü günün sonunda hələ bu dünyanı anlamayan,öz ana və atasını tanımayan körpə də gözlərini əbədi yumur.**

Onsuz da hüzn içində olan qohum-əqrəba və bütün kənd əhli bu qəfil hadisədən bir az da kədərlənir,qəmə batır.Canından çox sevdiyi xanımını və ilk körpəsini vaxtsız itirən gənc ata isə elə bil ölmüş əzizlərinin dərdindən özü də ölmüşdü.Əlacsız qalıb,acı göz yaşları içərisində, öz həyat yoldaşının yanında kiçik məzar qazaraq elliklə evinin nübarı olan,doyunca üzünü görmədiyi ilk fidanını, nişanəsini torpağa tapşırır.Bütün kənd əhli bu vaxtsız dünyadan köçən ana ilə baladan danışır,mütəəssir olub təəssüf hissi keçirirlər.Bəzisi isə bu ailə faciəsinə acıyir, göz yaşlarına hakim ola bilmirdilər.

Bir müddət belə keçir.Ailəsinə,övladına ruhən bağlı olan ata üçün bu itki çox böyük itki olur.Yuxularını qarışdıran,bu dərdin ağırlığına tab gətirməyən gənc atanın qəddi bir az da əyilir və hər gün ümidlə məzlum-məzlum yollara boylanır. Günün birində onların dönüb gələcəyini ümid edərək yaşayır.

Bu minvalla yenə də bir müddət beləcə keçir.Artıq payız və qış fəsli yerini bahar fəslinə verir.Hər tərəfdən bahar rayihəsi,təbiət ətri duyulur.Bu gün də günəş üfüqdən yenicə qalxmışdı.Səhərin açılması ilə açılan qapılardan yaşıl otlaqlara tərəf axışan qoyun-quzu mələrtisi,mal-davarın böyürtüsü eşidilirdi.

### *Ürəyi yanan, xoşbəxtliyini, arzularını itirən ata,*

***bir yerdə qərar tuta bilmir. Məzarlığa getmək,gözlərinin önündən bir dəqiqə belə çəkilməyən,öz əlləri ilə məzara qoyduğu iki məsumun məzarını ziyarət etmək qərarına gəlir.Həyətdən özü ilə, həyat yoldaşının sevdiyi ağ,qönçə qızılgüllərdən toplayıb iri bir dəstə də bağlayaraq,məzarlığa ziyarətə gedir. Bu yolla təskinlik tapacağını umur. Yolboyu ürəyindən min cür fikirlər keçirir.Dağı arana,aranı dağa qatır.Həyacan burulğanına düşür.Səhərin bu ürəksıxan hüznlü işığında,əyri-dolanbac kənd yolunun çala-çuxuruna,daşlarına ilişə-ilişə yol gedir dərdli ata.Halından,görkəmindən pərişanlıq yağır.***

Yolun yarısına çatanda arxadan gələn at nalının səsi onu fikirdən ayırır. Yağışların yuyaraq üzə çıxardığı daşlara dəyən dəmir nalların səsi,taxta darvaza dalında yatan ev itlərinin hürməsinə səbəb olur.Kənd xoruzları da bu səslərdən duyuq düşərək səs-səsə verib banlayıb susurlar.Gələn meşəbəyi idi.Gəzən heykəli xatırladan,məxmər tüklü bu qonur atı və bu yaşlı meşəbəyini kənddə uşaqdan-böyüyə tanımayan yox idi.Hər gün səhər tezdən,çiynində qoşalülə tüfəngi, yəhər üstündə bu yolla meşəyə gedərdi.Meşəbəyi yolun kənarı ilə əlində bir dəstə gül tutmuş asta addımlarla addımlayan evinin çırağı sönən bu dərdli yolçunu tanıyır və atın başını çəkərək,durdurur.Yolustü salamlaşırlar.Allahdan ona səbr diləyən atlı,sağollaşıb,atın başını buraxaraq yorğa yerişlə oradan uzaqlaşıb gözdən itir.

Ata gəlib dəyirmana çatır.Bu kəndin cəmi bir su dəyirmanı vardı ki,onu da kənd əhli el birliyi ilə çayın sağ kənarında tikmişdi.Kənd əhli və yaxın kəndlərdən axın-axın axışan insanlar əsasən öz taxıllarını müntəzəm olaraq bu dəyirmanda üyüdər,qış tədarükü görərdilər.Yaşlı-cavan taxıl üyütməyə gələnlərin kimisi ulağ belındə,kimisi qoşqulu atla,kimisi də atının tərkində kisələrlə bu dəyirmana buğda,arpa və qarğıdalı daşıyırdılar.

### *Qarlı günlərdə*

***isə kisələr kirşənin üzərində daşınsa da,əl dəyirmanı olanlar bu işi öz isti evlərində görür,günlərlə dəyirmanda növbə gözləmirdilər.Bütün bunları görən atanın keçən günləri yaddaşında təzələnir.Xanımının hər dəfə onu isti fətirin arasına yağ-pendir qoyaraq dürmələyib,əynindəki sırıqlısının altına basıb, "acanda yeyərsən" deməsi və gülə-gülə yola salması gözlərində canlandı.Soyuq qış aylarında,yəhər üstündə səhər tezdən fərəhlə evdən çıxaraq dəyirmana üz tutması,qoltuğundakı lavaşın istisi və ətrinin onu necə bihuş etməsi bir-bir yadına düşdü.İndi isə o günlərdən əsər-əlamət belə qalmamış,həyatı alt-üst olmuşdu.***

Ata bu fikirlər içərisində ağır-ağır addımlarla,demək olar ki,ayaqlarını sürüyərək məzarlığa gəlib çatır.İçəri daxil olur.Yaşarmış və kədərli gözləri ilə öz ciyərpasının qəbrini axtarmağa başlayır.Əsasən sal və əhəng daşından düzəldilən qədim məzarların arası ilə,dar bir cığırın izinə düşərək,çox ehtiyatla,hətta qorxa-qorxa gəlib həmin iki qərib,nakam ana ilə balanın qoşa qəbirlərini tapır.Əlləri ilə üzünü örtüb hönkürtü ilə ağlayır,ürəyi soyumur,baş daşlarını da öz ılıq göz yaşları ilə yuyur,ağı deyə-deyə üzünü daşlara sürtür.Qəbirləri saralmış otlardan təmizləyib,ananın məzarinın yanında əkdiyi ağ,yenicə yarpaqlayan yasəmən ağacını da sulayır.Gətirdiyi gülləri isə hər iki məzarın torpağını əli ilə hamarlayıb, titrək bir səslə "sizin gül payınızı gətirmişəm",-deyərək məzarların üzərinə səliqə ilə düzür.Taqətsiz halda,dərindən bir nəfəs alaraq qəbrin ayaq hissəsində dizləri üstə yerə çökür.Ağlayıb bir az toxtayandan sonra,məzarları bir müddət diqqətlə süzən atanın xoşbəxt günləri yadına düşür.Bir anlıq üzündə təbəssüm yaransa da uzun sürmür.Tez də mutiləşir,yazıqlaşır.Ata məzarları nəzərlərilə tumarlayır, sığallayır və birdən diqqəti bir şeyə kəsilir.Qəbrin başında donub qalır.Nəfəsini içinə çəkərək,ağlamaqdan qan çanağına dönən gözlərini bir neçə dəfə qırparaq, yenidən məzarları başdan-ayağa nəzərdən keçirir və gördüyü şey onu çaşdırır. Sarsılmış ata bir anlıq bunun nə olduğunu anlamır.Diqqətini özünə cəm edərək qorxa-qorxa,eyni zamanda çox maraqla məzarlara yenidən diqqətlə baxır və hıçqırıqlar onu boğur.

***Ananın məzarı körpəsinin məzarı ilə birləşmişdi.İlk öncə hansısa heyvanın qəbri eşib və bu səbəbdən qəbrin altı boşluğa düşərək yana tərəf əyildiyini fikirləşsə də,öz fikirləşdiyinə özü də inanmayıb qəbirlərin o tərəf,bu tərəfinə keçərək əmin olmaq istəyir.Amma heç bir qənaətə gələ bilmir.Çünkü qəbir aşağıya doğru çökməmiş, yana tərəf əyilmişdi. Sanki qucaqlaşmışdılar.Sanki ana, öz ciyərparasını sinəsinə çəkmişdi.Sanki,cəmi üççə gün övladından ayrı qalan nigaran ana,qəriblik,həsrət çəkərək körpəsini bağrına basıb ətrini alır,öz isti öpüşlərinə,ilıq nəfəsinə qərq edirdi.***

Körpəsini gözündən-nəzərindən ayrı qoya bilmirdi. Dərdli ata bu qeyri-adi hadisədən,bədbin təəssuratlardan bir az da təsirlənir.Gözləmədiyi müəmmalı hadisə ilə qarşılaşan,kövrək hislər və kənd camaatının iştirakı ilə,qəbirləri dərin bir hüzn,göz yaşları içərisində bir-birindən ayırır.Dini ayinləri icra edərək,dəqiq heç bir şey anlamadan pıçıldaşa-pıçıldaşa oradan uzaqlaşıb gedirlər.Axşamın bir vaxtında məzarlıqdan dönən bikef ata səhərə qədər yerinin içinə qor dolmuş kimi yata bilmir,gecənin bir aləmi yuxudan səksəkə içində hövlanak ayılır,yarıyuxulu və yorğun gözləri ilə ətrafa nəzər salır, yanında kimsənin olmadığını,hər tərəfin də qaranlığa qərq olduğunu görürdü. Təkcə pəncərədən içəri süzülən ayın parlaq işığı və yaxın kəndlərdən eşidilən çoban itlərinin birağızdan hürməsi olur.Yenə də bütün olub-keçənləri istər-istəməz xatırlayan dərdli ata könülsüz halda başını balıncına atar,mitil yorğanını başına çəkərək,yuxülamağa çalışardı.Adətən səhərə yaxın yuxuya gedər və çox qəribə yuxular görərdi. Hətta bəzən eyni yuxunu bir neçə dəfə ard-ardınca görməsi onu çox narahat edər və fikir-xəyal içərisində qərq olardı.

Yenə də bir müddət beləcə keçir. Daima ürəyində xanımı və körpəsi ilə danışan,heç cürə bu qərib fikirlərin cəngindən yaxa qurtara bilməyən gənc ata, yenə də məzarlığa getmək qərarına gəlir.Elə bil bu köhnə məzarlıq bir maqnit olub,onu özünə tərəf çəkir,qəbirlər onu çağırırdılar.Yenə də eynilə səhərin alatoranından,azan səsinə yuxudan durur.Həyətə düşüb buz kimi su ilə əl-üzünü yuyur.Eyvana qalxıb qırışmış çit süfrəsini önünə sərərək yer süfrəsi açır,süfrəyə pendir-çörək,zeytun qoyur,sobanın üzərindəki cızıldayan çaydandan bir stəkan çay da süzərək önünə gətirir.İştahasız halda bir tikə çörək yeyib,süfrəni yığışdırır. Güzgü önünə keçərək əlini saçlarına çəkir.Özünü tanımır,arıqlamış,alnındakı qırışları bir az da dərinləşmişdi.Dərindən köks ötürüb pillələrlə aşağı düşərək,ev ilə məzarlığın arası xeyli olduğundan tez də yolunu məzarlığa tərəf salır.

### *Bu qədim məzarlıq*

***çox köhnə və tükürpədən boş çalalarla dolu idi. Yaz ayı olduğu üçün ot dizə qalxmış və bu çalaları da görünməz etmişdi.Bir çox tarixi bilinməyən,müxtəlif adlar və rəqəmlər həkk olunmuş,yamyaşıl mamırla örtülən məzarlar da çökəyə düşərək bir tərəfə əyilmişdi.Eyni zamanda yağışların təsirindən qaralmış uzun başdaşları da yana əyilərək yanındakı məzar daşına söykənmişdi. Belə qəbirlərdən bu məzarlıqda həddən artıq çox olduğundan bu hal uzaqdan baxana əcaib-qəraib təsir bağışlayır,vahimə yaradırdı.Hətta ilk günlər atanın ayağı bir neçə dəfə də bu çuxurlara düşərək,onun ürəyinə qorxu salmışdı.***

Hələ də o günkü hadisənin təəssüratlarını,həyacanını yaşayan dərdli ata məzarlığın tapdanmaqdan döyənəy olmuş ilan kimi uzanan cığırı ilə gəlib qəbirləri tapır.Gördüklərinə inanmır.Gözləri alacalanır və yerindəcə quruyub qalır. Yuxularının mənasını indi anlayır.Bədənini başdan-ayağadək soyuq tər basır.Nə edəcəyini bilmir.Bir müddət beləcə susur.

Yerdəki quru xəzəllərin arasından gələn,yer böcəklərinin yaratdığı xışıltı səsləri,məzarlığın bu sükünətinə qarışaraq qorxunc səslər çıxarırdı.Ata üşəndi.Əlləri,ayaqları sözünə baxmır,bədəni qeyri-iradi olaraq əsirdi.Dönüb gəldiyi yola və bir də məzarlara nəzər yetirdi,zənni onu aldatmamışdı.Məzarlıq həmin köhnə məzarlıq,qəbirlər də həmin qəbirlər idi.Amma,qəbirlər yenə də eynilə bir-birinə kilidlənmişdilər.Körpənin məzarı o dəfəki kimi yana tərəf əyilmiş,hətta üstündəki torpaqlar ananın məzarına tökülərək bir-birinə qarışmışdı.

Ana öz bircə balasını yenə də bağrına basıb bərk-bərk qucaqlamışdı, ondan ayrılmaq istəmirdi.İkinci dəfə bu hadisənin təkrarlanması ilə sanki,"məni balamdan ayırmayın,bizə toxunmayın demək istəyirdi".Elə bil ana öz balasını soyuqdan qoruyur, şirin sözlərlə əzizləyir,yaxud döşünə salıb əmizdirirdi.

### *Kim bilir, bəlkə də,*

***o dünyadan yarımçıq qoyduğu öz analıq borcunu yerinə yetirirdi?Bəlkə də,balasına lay-lay deyir,nazını çəkirdi?Bəlkə də,"O" dünyada tək qoymaq istəməmiş,öz dünyasına, analara bəxş edilən Cənnətində övladına yer ayırmışdır?Bəlkə,hansısa ilahi bir qüvvə çağanı bu dünyadan qoparıb,bir mələk şəklində öz anasına qovuşdurmuş,övlad məhəbbətilə çırpınan ana ürəyinə bu yolla təsəlli verib,sakit etmişdir?Analıq vəzifəsindən ali bir vəzifə olarmı?Hansı kövrək ana ürəyi övladından ayrı qala bilər ki?Ana məhəbbətinə, ana sevgisinə kim,hansı qüvvə qarşı gələ bilib ki?***

Ata başını qaldırıb göylərə nəzər saldı.Bu əsnada göyün üzü də bambaşqaydı.Elə bil ki, göydəki ay belə bir az da öz ziyasını çoxaltmışdı ki, bu iki müqəddəs məzar aydın görünsün.Buludların arxasında gizlənmiş,hələ şəfəq saçmayan günəş də,hətta ulduzlar,asiman belə bu möcüzəyə diqqət kəsilərək qəbirlərə tərəf boylanmışdılar.

Bu,Qadir Allahın bir möcüzəsiydi.Bəli,bu muqəddəs ananın,müqəddəslik rəmzi sayılan,insanın ruhuna bəxş edilən ülvü,tükənməyən məhəbbəti idi,"sirli ana məhəbbəti".Elə bil Allahın böyüklüyünü dərk edən hər nə vardısa burada toplaşmış,bu qeyri-adi hadisəni,ananın övladına olan böyük sevgisini hər tərəfdən izləyirdi. Dərdli ata yenə də bu işə təəccüb içində qalan kənd əhalisinin iştirakı ilə, qəbirləri biri-birindən ayırır və yenə də Quran ayələrindən bir neçəsini oxuyaraq, göz yaşları içərisində kənd əhalisi ilə oradan uzaqlaşır.Öz taleyi ilə barışa bilməyən ata,öz-özünə qənim kəsilmiş,asi olmuşdu.Özünü lənətləyirdi.Səsi gəldikcə qışqırmaq,haray çəkmək,səsini Allaha duyurmaq istəyirdi.Xanımını və bircə balasını qoruyub saxlaya bilmədiyi üçün özünü günahkar bilir,qınayırdı.Öz-özlüyündə isə bu işin bir möcüzə olduğunun qənaətindəydi amma,həm də təəccüb içindəydi.

Yenə də bir müddət beləcə keçir.Bu geniş dünyada özünü tək-tənha hiss edən,evə-həyətə yovuşmayan pərişan ata əksər günlərini demək olar ki, məzarlıqda keçirir.Burada,əzizlərinin yanında təskinlik tapırdı.Daha məzarlıq ona qorxunc,yad və vahiməli gəlmirdi.

### *Bu gün*

də günortaüstü yenə məzarlığa üz tutur.Həmişəki kimi,həmişəki cığırla gəlib bu qoşa qəbirləri tapır və gördüyü mənzərədən yerindəcə donub qalır. Gözlərinə inanmır.Yenə də qəbirlər eynilə həminki kimi birləşmişdilər.Sınəsi dağlı ata bu dəfə hər şeyin fərqindəydi və bu işin bir möcüzə olduğunu indi öz-özlüyündə qət edir.Kənd ağsaqqallarının və ağbirçəklərinin iştirakı və məsləhəti ilə,sözü bir yerə qoyaraq qəbirləri bir daha ayırmamaq və bu yolla da onları incitməmək qərarına gəlirlər.Belə də edib,onların ruhuna Quran ayələrindən bir neçəsini də oxuyub,oranı tərk edirlər.

**Bütün kənd əhli bu işin,doğrudan da Allahın bir möcüzəsi olduğunu dərk edir.Qucaqlaşaraq torpağın qoynunda uyuyan,bu iki məsum ana ilə balanın bir-birlərinə sonsuz məhəbbət saçan,sədaqət göstərən,torpağın altından belə özünü biruzə verən sevgini tərənnüm edən,mərhəmət pıçıldayan qəbirləri yox,əsl qadınlıq,əsl analıq "abidəsini" ziyarətgaha çevirirlər.Məhəbbətlərin ən böyüyü olan ana məhəbbətinə və Allahın ruhu coşduran bu möcüzəsinə boyun əyərək bir daha məzarları bir-birindən ayırmırlar.**

## *Təbrik*



**Hörmətli Fərid bəy!**

**Sizi Vətən müharibəsinin döyüşçüsü kimi tanıyır, Qarabağımızın azadlığı uğrunda; Füzulinin, Cəbrayılın, Qubadlının azad olunmasında igidliklə döyüşərək, "Cəbrayıl uğrunda" medalı ilə təltif olunmağınızı təbrik edirik.**

**Əzizimiz Fərid bəy və istəklimiz Aynur xanımla Sizin nişan gününüzü səmimi qəlbdən təbrik edir, mübarək olsun deyir və gələcək həyatınızda xoşbəxtlik, Səadət arzulayırıq!**

**Şair-publisist Aydın Şüvəlanlı və yaxın qohumlarınız**

# Afət-Nigar qalmaqalı



**Günlərdir, xanəndə Nigar Şabanova ilə müğənni Afət Fərmanqızının arasında baş verən qalmaqal ölkə mediasını zəbt edib. Verilişlərdən birində Nigarın "bəzi müğənnilər kimi özümə gül, maşın göndərtmərəm" deməsi Afət Fərmanqızının qəzəbinə səbəb olub. Müğənni "instagram" hesabında Nigar Şabanovanı "ağ yuyub, qara sərib":**

*"Deyirəm danışmayım, cavab verməyim, olmur. Bir Nigar var, mənə söz atır efirdən. Siz də bilirsiniz ki, mənə söz atır.*

*Deyir, bəziləri kimi efirə maşın gətizdirib özümü alçatmıram ki. Mən də cavab verdim ki, söylə, bilək, məndən başqa maşın kimə gəlib? Ad çəkməyə hünəri çatmır və deyir ki, özümü onun səviyyəsinə endirmirəm. Necə olur, mənə cavabı Xalq artisti Flora Kərimova verir, sən özünə yaraşdırmadın?*

*Sən ustadın Mələkxanım Eyyubovanı da danmısan. Atalar deyir ki, ustadına kəm baxanın gözlərinə qan damar.*

*Məni heç kimlə səhv salma. Get işinlə məşğul ol".*

### *"Bir qadın ağzına "davay do svidaniə" sözlərini alırsa..."*

Afətin "instagram" hesabında **Nigar Şabanova** haqqında danışmasının ardınca xanəndə ürəyini adalet.az saytına boşaltdı:

***"Afətin haqqımda fikir səsləndirməsindən xəbərim yox idi. Siz dediniz, girib, səhifəsinə baxdım. O barədə heç nə danışmaq istəmirəm. Mən verilişdə kişilərə hədiyyə gətizdirənlərə sözümü demişdim. Qadın qadına hədiyyə gətirirsə, heç kimin içi göynəməsin. Bir qadın ağzına "davay do svidaniə" sözlərini alırsa, mən ona nə cavab verim? Onun başındakı papağına baxın. Biabırçılıqdır".***

### *"Şişirdilmiş dodağına baxıb sonra gülsün"*

Nigar Şabanova və Afət Fərmanqızı arasında olan söz-söhbət məcrasından çıxdı. Nigarın söylədikləri xanım ifaçını özündən çıxardı. Saytımıza açıqlama verən Afət Fərmanqızı Nigar Şabanovaya söz xırdaladı, faktlarla cavab verdi:

***"Əvvəla haqqımda deməsi ki, bir qadın ağzına "davay do svidaniə" sözlərini alır, Nigar bu ifadəni araşdırsın. İntiqam və Ehtiram qardaşlarının toylardan birində bu kəlməni işlətməsi onları bütün Rusiyaya məşhurlaşdırdı. Elə bunun nəticəsində də həmin qardaşlar Timati ilə iş birliyi etdilər. Nigar həmin sözə görə mənə deyil, İntiqam, Ehtiram qardaşlarına gülür, yoxsa özünə?***

***Daha sonra söyləyir ki, onun barəsində fikir bildirməyimdən guya xəbəri yoxdur. Nigar mənim fanatımdır. Səhifəmi də gizlin-gizlin izləyir. Bir dəfə təsadüfən paylaşımlarımdan birini bəyənmişdi də.***

***Fanatım Nigara sual verirəm, papağımda gülməli nə var? Ucuz papaq hesab edib ona gülürsə, getsin "EmporiumBaku"dan mənə bahalısını alıb gətirsin. Həmin papağı sevə-sevə geyinərəm. Gülməyini açıq demir deyə ona görə tam şəkildə cavab verə bilmirəm. Gülməli Nigarın düşüncəsidir. Sözü deyəndə məntiqlə danışsın ki, belə gülməli situasiya ilə də üz-üzə qalmasın. Həmin papaq hər kəsin evində var. Gülməyə qalanda mən onun şişirdilmiş dodağına güləm gərək. Əvvəl normal qadın idi. Dodağını yaman günə qoyub.***

***O mənim papağıma gülür, mən onun dodağına gülürəm. Keçmiş fotolarına baxsın, görsün necə qız imiş. İndi nə gündədir?***

***Mənə maraqlıdır, mənim maşınım niyə bu qədər müzakirə olunur? Nəsimidən oxudum "Qallenvagen" aldım, Nizamidən də oxuyacam, təyyarə alacam. Nigar və Nigar kimilərinin başına mənə maşın hədiyyə gələndə daş düşmüşdü, Nizamidən oxuyandan sonra kometa düşər. Xainlik pis şeydir.***

***Bu Nigara üçüncü cavabımdır, dördüncü ağır olacaq. Haqqımda danışmasın. Hər kəs bilir ki, birinci mən ona söz atmamışam, o, mənə söz atıb. Mən kiməsə sataşan insan deyiləm. Mənə sataşanlara isə layiqli cavab verirəm, verəcəm də.***

***Söyləyir ki, heç kimin içi göynəməsin. Bu ifadə qadına yaraşan bir cümlə deyil.***

***Buradan insanlara bir sual ünvanlamaq istəyirəm, Nigar deyir ki, gül, maşın göndərilən müğənnilər, düzdürmü? Sözü kimə atır? Təbii ki, mənə.***

***Bu sanki ona bənzəyir ki, o yanı qaya, bu yanı qaya, içində sarı maya? Hamı bilir ki, bu yumurtadır. İndi də hər kəs bilir ki, Nigar həmin sözləri mənə ünvanlayıb.***

***Nigarın özü dəyərli şəxslərin adından istifadə edib özünə gül göndərtməsin, evlilik təklifləri ilə reklam tutmasın. Evlənsin sübut eləsin. Onun barəsində söyləyəcəklərim bu qədər!"***

### *"Müəllim-tələbə" mövzusu yenidən alovlandı: "Bir ustadım var"*

Müğənni Afət Fərmanqızının Nigar Şabanovaya "ustadını danmısan" deməsindən sonra isə Nigar qəzəbini boğa bilməyib yenidən "instagram" hesabından Afətə sətiraltı söz atdı. İllər öncə baş verən "ustad" qalmaqalı yenidən gündəm oldu. Şabanova Xalq artisti Mələkxanım Eyyubovanı müəllimi kimi görməyib yalnız Qəzənfər Abbasova təşəkkür etdi:

***"Səviyyəsiz qadıncığazların dilinə söz düşüb: "Ustadına kəm baxan və s". Artıq qadınlar xanımlıqlarını, danışıq mədəniyyətlərini belə itiriblər. Ortalıqda meymunluq, klounluq etməyə ehtiyac yoxdur. "Ustad" mövzusu heç kimin əlində kozur olmasın. Mənim bir ustadım olub və var! Qəzənfər Abbasov! Qarşısında baş əyirəm, haqqını, zəhmətini heç vaxt ödəyə bilmərəm.***

***Gedin, qadın kimi həya ilə, abır ilə danışıq öyrənin".***

**Mövzu ilə bağlı Mələkxanım Eyyubovanın fikrini öyrənmək istəsək də, o, bu məsələyə münasibət bildirmədi.**

**Rövşən Tahir**

# Koronavirusa yoluxan Akkayanın səhhəti pisləşdi

***Koronavirusla mübarizə aparan Deniz Akkaya xəstəxanaya yerləşdirilib.***

***Sosial media hesabından anbaan paylaşım edən Akkaya qızdırmasının 39 dərəcəyə qalxdığını, virusun ciyərlərinə qədər endiyini və dəhşətli öskürdüyünü söyləyib.***

***"Koronavirus mənim üçün inanılmaz dərəcədə ağır oldu"***



***Sosial media hesabında sağlamlığı barədə məlumatlar verən məşhur "Evdə virusla mübarizə aparmağı bacara bilmədim. İsrarlı şəkildə dirəniş göstərməyin faydası yox idi. Ona görə də xəstəxanaya yerləşdim" cümlələrini yazıb.***

***Bunun ardınca Akkaya "Əvvəlcə bu virusu yüngül keçirəcəyimi düşünürdüm. Lakin olmadı. Həyatımda sağlamlığımla bağlı hansısa ciddi bir problem yaşamadığım halda bu xəstəlik mənim üçün ağır oldu. 4 gün ərzində yaşadıqlarımı sizinlə bölüşürəm" deyərək fikirlərini izləyiciləri ilə bölüşüb.***

### *"Ağciyərimdə xırda ləkələr müşahidə olundu"*

***Akkaya instagram hesabında ard-arda paylaşdığı postlarda insanları bu virusun təhlükəli olduğuna inandırmağa çalışıb və çağırışlar edib: "Evdə qalıb koronavirusla mübarizə aparmaq heç də həmişə yaxşı hal deyil. Əgər daxili səs sizə "xəstəxanaya get" deyirsə, gedin. Nəyəsə gecikməyin. Yoxlamalar nəticəsində ağciyərimdə xırda ləkələr müşahidə olundu. Hazırda qızdırmam 39 dərəcədədir. Qızdırma olduğu təqdirdə heç nə hiss etmirəm. İlk günlərlə müqayisədə oynaq ağrılarım azalıb. Allahın izni ilə bu xəstəlik də keçər və mənə heç nə olmaz".***

*Rövşən Tahir*

## *"Qarabağ" Ağdamda seçimlərə başladı*

*"Qarabağ" Futbol Akademiyası aşağı yaş qruplarına seçimlər elan edir. Qol.az xəbər verir ki, bu barədə klubun saytında yayılan açıqlamada bildirilir.*

*Qeyd edilir ki, seçimlər Ağdam rayonu, Quzanlı qəsəbə stadionunda keçiriləcək. Seçimlərdə iştirak etmək istəyən 2006-2013-cü il təvəllüdlü oğlanlar qeydiyyatdan keçmək üçün bu gündən fevralın 26-dək müraciət edə bilərlər.*

*Seçimlərin əsas mərhələsi martın 5-dən 7-dək reallaşacaq.*

*Əlaqə nömrələri: 050-646-46-75; 055-400-49-09.*

## *Milan derbilərinin kralı!*

**"İnter"in futbolçusu Romelu Lukaku yeni rekorda imza atıb. Qol.az xəbər verir ki, 27 yaşlı hücumçu buna A seriyasının 22-ci turunda "Milan"la matçda (3:0) nail olub. Belçikalı futbolçu görüşün 66-cı dəqiqəsində fərqlənməklə ardıcıl 5 Milan derbisində qol vurmuş olub. Beləliklə, Lukaku derbi tarixinə bütün turnirlərdə ardıcıl 5 derbidə qol vuran ilk futbolçu kimi düşüb.**

**Qeyd edək ki, Lukaku hazırda "Yuventus" un hücumçusu Kriştiano Ronaldonu bir qol qabaqlayaraq, 17 qolla çempionatın bombardiridir.**

Əliqismət Lalayev ailə üzvləri ilə birlikdə **Qibləliyevlər ailəsinə** əzizləri

**Fikrət Mehbalı oğlu Qibləliyevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ceyhun Rüstəmov ailə üzvləri ilə birlikdə ailə dostları müğənni **Xatun Əliyevaya** qardaşı

**Balaşın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi və baş məsləhətçi: **Aqil ABBAS**

Baş redaktor: **İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 2000**
**Sifariş: 65**
Çapa imzalanmışdır: 22.02.2021